

# Əli Əsədovun sədrliyi ilə iclas keçirildi

*Baş nazir Əli Əsədovun sədrliyi ilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə uyğun olaraq "2021-2025-ci illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın hazırlanması məqsədilə yaradılan Komissiyanın ilk iclası keçirilib. Bu barədə Unikal.org-a Nazirlər Kabinetindən məlumat verilib.*

Səh.2

UNİKAL

№09 (2047) 5 mart 2021-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.org

unikal-1@mail.ru



# Oqtay Şirəliyevin nazirliyində şübhəli tenderlər

## Səhiyyə sistemində dövlət satınalmaları ilə bağlı nə baş verir?

*Oqtay Şirəliyevin rəhbəri olduğu Səhiyyə Nazirliyində keçirilən dövlət satınalmaları ilə bağlı müəmmalar səngimir. Xeyli vaxtdır həm medianın, həm də cəmiyyətin diqqət mərkəzində olan bu tenderlərlə bağlı mübahisələrin, müzakirələrin sırasına az qala hər ay yeniləri əlavə olunur. Maraqlısı isə odur ki, nazirlik bir qayda olaraq bu müzakirələri, mübahisələri sakitcə seyr etməklə kifayətlənir və demək olar ki, münasibət bildirmir. Bu yaxınlarda səhiyyə sistemində bir neçə yeni tenderlə bağlı növbəti ciddi şübhələr meydana çıxıb. Məsələn: təzəlikcə məlum oldu ki, Səhiyyə Nazirliyinin Tibbi Reabilitasiya Xəstəxanasının "Texniki və içməli suyun daşınması" məqsədilə keçirdiyi tenderin qalibi "Paradoks-LTD" MMC adlı şirkət olub.*

Səh.12

Səh.2




# İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə toplantısında mühüm çağırış

## "Üçüncü Qarabağ savaşının başlaması üçün ciddi səbəblər yoxdur"



*Qarabağda savaşın yenidən başlanacağı ilə bağlı cəmiyyətdə müəyyən narahatlıq var. Hətta kimlərsə arqumentlər gətirir. Ermənilərin müharibəyə başlaması, kənar müdaxilələr, gərginliyin yenidən alovlanması kimi ehtimallar nə qədər realdır? Bu və ya digər sualları sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli "Unikal" qəzetinə müsahibəsində cavablandırıb.*

Səh.4

## Nazim İbrahimov Bayılda böyük tikintiyə başlayıb



*Diasporla İş üzrə Dövlət Komitəsinin sabiq sədri Nazim İbrahimovdan yeni xəbər var. Belə ki, sabiq komitə sədri Bakının Səbail rayonunda, Bayıl qəsəbəsi ərazisində nəhəng tikinti işlərinə başlayıb. Belə ki, 203 saylı orta məktəbin stadionunu alan N.İbrahimov bir müddətdir orada tikinti işləri aparır.*

Səh.8

## Ermənistanda xaotik proseslər gedir



*Postsovet məkanında diktatura və demokratiyanın, habelə hibrid rejimlərin qurulması ilə nəticələnən müxtəlif siyasi proseslər, rəngli və ağ-qara inqilablar, vətəndaş və dövlətlərarası müharibələr, hətta saray çevrilişləri və hakimiyyətin miras yolu ilə ötürülməsi belə baş verib.*

Səh.9

# "Həcilərin 5 sevgilisi olur, ən çox istədiyi sevgilisini..."

***Azərbaycan şou-biznesinin yazılamamış qanunları var. Məsələn, ifaçının sevgilisi daha çox sponsoru olur. El dilində desək, həcisi. Bu gün həcisi olan ifaçı gündəmdə, trenddədir. Çünki bütün problemlərini həci həll edir. Həci isə sizin bildiyiniz o həcilərdən deyil. Bu həci sevdiyi qadınları şou-biznesə gətirir, yeri gəlsə, sevdirməyi bacarır da.***



Dünya şou-biznesində prodakşınlar tanınmamış bir ifaçının üzərində çalışır və onu dünya ulduzuna çevirərək ondan maliyyə əldə edir. Bizdə isə nə belə prodüserlər, nə də prodakşnlar var. Belə olduğu halda ümid ancaq həcilərə qalır. Bəs görəsən, sənətçilər bu barədə nə düşünür?

"Unikal" moderator.az-a istinadla bildirir ki, ifaçı Nadir Qafarzadə nə həyatda, nə də sənətdə sponsorunun olmadığını deyir: "Bu vaxta qədər nə sponsorum, nə də həcim olub. Mənim heç nəyim olmayıb. Göydə Allah, yerdə özüm bu sənətdə var gücümlə çalışmışıb, çabalamışam. Həci məsələsi adətən qadın ifaçılara aid olur. Bu da elə bir məsələdir ki, bilmirsən ki, indi sponsor kimdir həci kim. Həcim olmayıb deyə onun nə iş gördüyündən xəbərsizəm. Allah həcilərin də, sponsorların da canını sağ eləsin".

Hazırda Türkiyədə yaşayan və oradakı şou-biznesə qatılan aparıcı, aktrisa Aysel Nazim isə deyir ki, dünya ulduzları, eləcə də Türkiyədəki məşhurlar konsertlərindən və layihələrindən gəlir əldə edirlər:

"Bizdə isə daha çox toy biznesi var. İfaçılar karyera qurmağa başlayanda yalnız toy tutmaq üçün ara mahnıları ifa edirlər. Bu sənətə aid olmayan birilərinin hesabına sənətə gəlməyə çalışırlar. Bərbad geyim tərzi, olmayan səs tembri ilə gündə bir ifaçı yetişir. Hamısı da "ulduz"dur. Çox təəsüf ki, həcilərin və ya kimlərinsə hesabına bu sənətə aid olmayan insanların sevgililəri pul buraxıb, onları müğənni edir. Onlar da yalnız toy biznesi haqqında düşündükləri üçün dünya arenasına çıxa bilmirlər. Bunun hər kəsə şamil etmirəm, sevdiyim, sənətinə hörmət etdiyim müğənnilərimiz də var. Onların da daha çox çalışmalarını istəyirəm. Misal üçün Röya Ayxan və bu kimi sənətkarlarımız yaradıcılıqlarına yatırım edirlər. Onu təqdir edirəm".

A.Nazim qeyd edir ki, yeni çıxan ifaçılar özlərinin adlarını dəyişdirib, başqa adla təqdim edirlər, sanki səhnəyə deyil toy məclisinə çıxıblar: "Gözəl səsi, səs tembri olan ifaçılar var ki, heç onlara sponsorlar tapılmır. Bu sənətlə əlaqəsi olmayanlara yatırım edilir, onlar da çıxıb yekə-yekə danışırlar. Səhnədəki hərəkətlərindən, davranışlarından tamamilə başqa bir şeyi təbliğ edirlər, çünki o başqa yoldan gəliblər. Kimisə tapıblar, onlar da sponsorluq edib yeni bir müğənni yaradıblar. Əslində isə sponsor başqa məna daşıyır. Müğənnini tanıdan prodakşınlardır, bir də ifaçının prodüseri. Prodüser bizdə fərqli qəbul edilir. Belə ki, çanta daşıyan, müğənni ilə birlikdə məclislərə, efirə gedib gələn kimi anlaşılır. Prodüser özü pul qoymalı, ifaçıya yatırım etməlidir. Bizdə isə ona həci deyilir. Həcilərin də 5 sevgilisi olur, ən çox istədiyi sevgilisinə pul yatırıb, onu müğənni edir. Salır insanların canına".

Prodüser Təranə Səmədova isə deyir ki, dünya şou-biznesində daha çox ifaçıya yatırım edilir, bizdə isə yanaşma tərzi bir qədər fərqlidir: "Bizim dinləyici kütləmiz azdır. İfaçılarımız yalnız toylardan gəlir əldə edirlər. Türkiyədə bu işi sponsorlar edir. Sponsor, prodüser ifaçını yarı yolda qoyanda ona təzminat açılır. Bizdə isə bu cür şeylər yoxdur. Həci mövzusuna isə toxunmaq istəmirəm. İllər öncə ifaçı Rəqsanə efirə çıxıb ilk dəfə "sponsor"um sevgilimdir dedi. İndi o da müasirləşib, adı dəyişdirilib həci olub. O mövzulara toxunmaq istəmirəm. Açığı deyim ki, onu müzakirə etməyi ayıb bilirəm".

# "Bunu ancaq yaşayan bilər" - Zümrüd Qasımova



***"3 mart 2010-cu il - ikinci dəfə dünyaya gəldiyim gündür. Həyatımın dönüş nöqtəsidir. Hisslərimi ifadə etmək üçün kəlimələr acizdir, bunu ancaq yaşayan bilər".***

Axşam.az xəbər verir ki, bu sözləri aktrisa Zümrüd Qasımova İnstaqram hesabında yazıb. O, 10 il əvvəl xərçənglə mübarizə aparmasından bəhs edib: "Zaman sənə hər şeyi olduğu kimi qəbul edib, yaşamağı öyrədir. 10 il bundan əvvəl mənə desəydilər ki, hələ 10 ildə yaşayacaqsan, inanmazdım... Allah yaşadanda yaşadır. Hər zaman ürəyimdə Allaha, insanlara, bütün canlılara qarşı sevgi ilə yaşadım. Yaşayıram da. Şükr edərək, gülərək, sevərək. Həyat bütün çətinlikləri ilə gözəldir".




# Xuraman açıq-saçıq şəkillərini yayanları polisə verəcək

***Müğənni Xuraman Şuşalı illər əvvəl çəkdirdiyi açıq-saçıq fotolarını sosial şəbəkələrdə yayan şəxslərlə bağlı hüquq-mühafizə orqanlarına müraciət edəcək.***

İfaçı bu haqda "MTV" kanalına açıqlamasında bildirib. O qeyd edib ki, həmin görüntüləri silməyənlərdən şikayətçi olacaq: "Əvvəla, xahiş edirəm ki, o görüntüləri silin. Açıq şəkildə görünməyimə haram qoymuşam. Tez-tez açıq və qapalı formada olan görüntülərimi kollaj edib yayırlar. İcazə vermirəm. Bu məsələni hüquqi yolla həll edəcəm".




# Dövlət qulluqçusu olmaq istəyənlərin nəzərinə

***Dövlət İmtahan Mərkəzi martın 7-da dövlət qulluğunda inzibati vəzifələrin B növünə (inzibati icraçı vəzifələr) aid olan BA və BB qruplarına, həmçinin inzibati vəzifələrin A növünə (inzibati rəhbər vəzifələr) aid olan AA, AB və AC qruplarına uyğun olan vəzifələr üzrə dövlət qulluğuna qəbul olmaq üçün test imtahanları keçiriləcək.***

"Unikal" xəbər verir ki, COVID-19 infeksiya ilə əlaqədar ehtiyat tədbirləri çərçivəsində görülən işlərə uyğun olaraq imtahan binalarına yalnız tibbi maska daxil olmağa icazə veriləcək və namizədlərin məsafədən ölçə bilən elektron termometrlə bədən hərarətləri yoxlanılacaq, zəruri dezinfeksiyaedici vasitələrdən istifadə olunacaq.

İmtahan zallarında namizədlərin bir-birindən lazımi uzaq məsafədə əyləşdirilməsi təmin olunacaq. İnzibati vəzifələrin B növünə aid vəzifələr üzrə olan imtahan kağız daşıyıcılar vasitəsilə Bakıda 6, Gəncədə isə 1 binada təşkil olunacaq. İmtahanda iştirak etmək üçün BA qrupu üzrə 593, BB qrupu üzrə 1263 olmaqla, ümumilikdə 1856 namizəd qeydiyyatdan keçib.

Bu imtahanda iştirak etmək üçün qeydiyyatdan keçmiş namizədlər DİM-in internet saytına daxil olaraq "İmtahana buraxılış vərəqəsi"ni çap etməlidirlər. Buraxılış vərəqəsi ilə yanaşı onlara "Namizədin yaddaş kitabçası" da təqdim olunur. Burada namizədlərə imtahan prosesi ilə bağlı vacib tövsiyələr, onların əməl etməli olduqları qaydalar və digər zəruri məlumatlar çatdırılır.

İmtahan bütün binalarda eyni vaxtda - saat 11:00-da başlanır və 3 saat davam edir. Saat 10:45-dən sonra gələn namizədlər imtahana buraxılmır. İmtahan binasına buraxılış vərəqəsində qeyd olunan vaxtda gəlmək lazımdır. İmtahan binasına mobil telefon və digər rabitə vasitələri, elektron cihazlar, kalkulyator, elektron məlumat daşıyıcısı, kitab, dəftər, jurnal, konspekt, məlumat kitabçası, lüğət, cədvəl, çanta və digər yardımçı vəsaitlər gətirmək qadağandır. İştirakçılardan imtahan binasına əlavə əşyaları gətirməməyi xahiş edirik. Bütün bunlar buraxılış rejimi işinin səmərəli təşkilinə və onun vaxtında başa çatdırılmasına mane olur.

B növü imtahanının keçirilməsi üçün 7 bina, 137 zal, 7 ümumi imtahan rəhbəri, 21 imtahan rəhbəri, 176 nəzarətçi?müəllim, 14 buraxılış rejimi əməkdaşı ayrılıb.

Namizədlər imtahana şəxsiyyəti təsdiq edən sənədin əslini, "İmtahana buraxılış vərəqəsi"ni, "İmtahan iştirakçısının sağlamlığı haqqında bəyannamə"ni (Bəyannamə DİM-in saytından "İmtahana buraxılış vərəqəsi" ilə bir yerdə çap olunur və namizəd tərəfindən imzalanır. Bəyannaməni imtahan nəzarətçisinə təhvil vermək lazımdır) gətirməlidirlər.

İnzibati vəzifələrin A növünə (inzibati rəhbər vəzifələr) aid olan vəzifələr üzrə test imtahanı elektron qaydada, kompüterlər vasitəsilə DİM-in Bakı ş., Nəsimi rayonu, Əbdülvahab Salamzadə, 28 (keçmiş Bakı Asiya Universitetinin binası) ünvanında yerləşən binasında keçiriləcək. Bu imtahanda iştirak etmək üçün qeydiyyat hələ davam edir və 5 mart saat 12:00-da başa çatacaq. İmtahan saat 11:00-da başlanır. Namizədlər şəxsiyyəti təsdiq edən sənədləri ilə birlikdə saat 10:00-dan gec olmayaraq imtahan binasında olmalıdırlar.

***Famil***

# Oqtay Şirəliyevin nazirliyində şübhəli tenderlər

## Səhiyyə sistemində dövlət satınalmaları ilə bağlı nə baş verir?

***Oqtay Şirəliyevin rəhbəri olduğu Səhiyyə Nazirliyində keçirilən dövlət satınalmaları ilə bağlı müəmmalar səngimir. Xeyli vaxtdır həm medianın, həm də cəmiyyətin diqqət mərkəzində olan bu tenderlərlə bağlı mübahisələrin, müzakirələrin sırasına az qala hər ay yeniləri əlavə olunur. Maraqlısı isə odur ki, nazirlik bir qayda olaraq bu müzakirələri, mübahisələri sakitcə seyr etməklə kifayətlənir və demək olar ki, münasibət bildirmir.***

Bu yaxınlarda səhiyyə sistemində bir neçə yeni tenderlə bağlı növbəti ciddi şübhələr meydana çıxıb.

Məsələn: təzəlikcə məlum oldu ki, Səhiyyə Nazirliyinin Tibbi Reabilitasiya Xəstəxanasının "Texniki və içməli suyun daşınması" məqsədilə keçirdiyi tenderin qalibi "Paradoks-LTD" MMC adlı şirkət olub. Tenderin nəticəsinə əsasən "Paradoks-LTD" MMC Tibbi Reabilitasiya Xəstəxanasına 17 min 433 ton texniki su daşıyacaq. Bu miqdarda texniki suyun daşınması üçün Tibbi Reabilitasiya Xəstəxanası MMC-yə 78 min 448 manat 50 qəpik ödəyəcək. Rəqəmlərdən də göründüyü kimi 1 ton texniki su üçün 4 manat 50 qəpik ödəniləcək.



Bundan başqa Tibbi Reabilitasiya Xəstəxanası 3 min 800 ton içməli su alacaq. Bu qədər içməli su üçün 18 min 810 manat ödəniləcək. Nəticədə 1 ton içməli su üçün ödəniləcək məbləğ 4 manat 95 qəpik təşkil edəcək.

Maraqlı orasıdır ki, bu qiymətlər "Azərsu" ASC-nin əhaliyə satdığı içməli suyun qiymətilə müqayisədə dəfələrlə çoxdur. Üstəlik, tender müsabiqəsində maraqlı məqamlardan biri odur ki, qalib şirkət - "Paradoks-LTD" MMC 23.11.2020-ci il tarixində dövlət qeydiyyatına alınıb. Nizamnamə kapitalı cəmi 10 manat olan bu şirkət qeydiyyatdan keçdikdən cəmi 2-3 ay sonra müraciət etdiyi ilk tender müsabiqəsindən 100 min manata yaxın vəsait alıb. İki aylıq şirkətin analoji təcrübəsinin olması barədə isə açıq internet resurslarda heç bir məlumat yoxdur.

Və yaxud: Bakı Şəhəri Baş Səhiyyə İdarəsinin "Dəftərxana və təsərrüfat mallarının satınalınması" lotu üzrə (əlavə bölümdə liftlərə texniki xidmət göstərilməsi) sifarişçi olduğu satınalmanın məbləği 999.743 manat təşkil edir.

Tenderin qalibi "Avanqard AN Servis" Məhdud Məsuliyyətli Cəmiyyəti elan edilib.

Dövlət qurumu ilə "Avanqard AN Servis" MMC arasında imzalanan satınalma müqaviləsinin predmetlərinə görə 7 nömrəli Şəhər poliklinikası üzrə 2, 9 nömrəli Uşaq poliklinikası üzrə 1, 10 nömrəli Qadın məsləhətxanası 1 və 22 nömrəli Birləşmiş Şəhər Xəstəxanasının isə 1 liftinə bir illik xidmət nəzərdə tutulub.

Dörd obyekt üzrə 5 liftə göstərilən illik texniki xidmət ölkənin xidmət sahəsindəki qiymətlərlə müqayisədə fantastik görünməklə yanaşı, eyni zamanda müqavilə bağlanan şirkətin fəaliyyəti də xeyli dərəcədə şübhəlidir.

Bakı Şəhəri Baş Səhiyyə İdarəsinin sözügedən satınalmada qoyduğu şərtlərdən biri də "Dövlət Satınalmaları Haqqında" Qanuna uyğun olaraq Vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayışdır. Lakin "Avanqard AN Servis" Məhdud Məsuliyyətli Cəmiyyətinin bu günə olan vergi borcu 9821 manat təşkil edir.

Bundan başqa 10 manat nizamnamə kapitalı olan "Avanqard AN Servis" Məhdud Məsuliyyətli Cəmiyyətinin fəaliyyət profili və hansı lisenziyalara malik olması barədə məlumatlar yoxdur.

Daha bir ilginc fakt: Səhiyyə Nazirliyinin 1 nömrəli Uşaq Somatik Sanatoriyası tərəfindən keçirilən tender müsabiqəsinin (kotirovka sorğusu) qalibi "Alvis" MMC (VÖEN- 1604207911) olub. Tenderin şərtinə görə, "Alvis" MMC 1 nömrəli Uşaq Somatik Sanatoriyasının sifarişi ilə bu quruma dəftərxana və təsərrüfat malları satmalı idi.

Qeyd olunan mallar üçün 1 nömrəli Uşaq Somatik Sanatoriyası "Alvis" MMC-yə 10 min 88 manat ödəyəcəkdi.

Lakin maraqlısı odur ki, "Alvis" MMC - 18.11.2020-ci il tarixində dövlət qeydiyyatına alınıb. 1 nömrəli Uşaq Somatik Sanatoriyası isə tender müsabiqəsini 01.12.2020-ci il tarixində elan edib. Bu isə o deməkdir ki, tender müabiqəsinin qalibi olan MMC tender elanının verilməsindən cəmi 12 gün əvvəl yaranıb. Bu günlərin də 4-ü şənbə və bazar günləri olaraq qeyri iş günləri olub.

Açıq internet resurslarda barəsində heç bir məlumata rast gəlinməyən, cəmi 8 gün (iş günü) əvvəl yaranan və 10 min manatlıq tenderin qalibi olan "Alvis" MMC-nin qalib elan edilməsi "Dövlət satınalmaları haqqında" Qanunun 6-cı maddəsi ilə xeyli dərəcədə təzad təşkil edir. Çünki həmin maddənin 6.2.1-ci bəndində açıq şəkildə yazılır ki, satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığın, təcrübənin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlılığın olması lazımdır. Tender müsabiqəsindən cəmi 8 gün əvvəl yaranan bu şirkətin hansı peşəkarlığa və təcrübəyə sahib olacağı da aydın deyil.

Yuxarıda sadaladığımız hallar son üç ayı əhatə edir və Səhiyyə Nazirliyində şübhəli tender əməliyyatlarının tam sürətlə davam etdiyinin göstəricisidir. Üstəlik, ilin əvvəlindən bəri müşahidə olunan başqa hallar da var. Sadəcə, onların hər birini ayrıca qeyd etməyə ehtiyac görmürük. Dəniz suyunun dadını bilmək üçün onu tam içməyə ehtiyac yoxdur. Bir-iki damcı içməklə də bu dadı müəyyənləşdirmək olar. Elə Şirəliyevin rəhbəri olduğu səhiyyə sistemindəki tenderlərin nə qədər şəffaf və obyektiv xarakter daşıdığını anlamaq üçün sizinlə paylaşdığımız faktlar yetərlidir.

Aydın şəkildə görünür ki, sözügedən sahədə dövlət satınalmaları ilə bağlı aidiyyatı qurumların ciddi araşdırmalar aparmasına ehtiyac var. Biz isə yazımıza burada nöqtə qoyuruq. Lakin hələlik...

Növbəti sayımızda səhiyyə sistemindəki tender əməliyyatlarının pərdəarxasına nəzər salmağa çalışacağıq.

***Sənan Mirzə***

# Qarabağdakı məğlubiyyət Ermənistanı tamamilə çökdürəcək

## İrəvanda siyasi qarşıdurmanın silahlı toqquşmaya və terrora keçidinin şahidi ola bilərik

***44 günlük müharibədən sonra Ermənistanda baş qaldıran narazılıq getdikcə artmaqdadır. Paşinyana qarşı müxalif qüvvələrin sayının artması, hərbi qüvvələrin də bu prosesə cəlbi vəziyyəti daha da gərginləşdirdi. Bir neçə gün öncə Paşinyan tərəfdarları ilə müxalifətin birgə mitinqi Ermənistanda suların tezliklə durulmayacağını göstərdi.***

Məsələ ilə bağlı fikirlərini “Unikal” qəzeti ilə bölüşən Milli Məclisin deputatı Sahib Alıyev deyib ki, ölkədə siyasi gərginliyin artması Ermənistandakı ağır vəziyyəti daha da kritikləşdirib: “Ermənistanın baş naziri Nikol Paşinyanın keçirdiyi mitinqə gələnlərin sayı onun rəqiblərinin oxşar aksiyalarına qoşulanlardan bir neçə dəfə çox idi. Xatırladaq ki, həmən o rəqibləri Paşinyana ”təslim edilmiş” deyirlər. Paşinyan da Serj Sarkisyanın timsalında onları ”rədd olunmuşlar” adlandırır. Demək, həm keçirilən mitinqlər, həm də “Gellap İnternasional”ın xəttiylə bu yaxınlarda Ermənistanda aparılan sorğunun nəticəsi göstərir ki, orada ”təslim edilmiş”ə güvən ”rədd olunmuşlar”dan qat-qat çoxdur. Bu dolayısı ilə bilirsiniz nə deməkdir. İlk növbədə o deməkdir ki, haylar indi Qarabağın kimdə olması yox, necə dolanacaqlarının hayındadırlar və düşünürlər ki, bu baxımdan hərbi xuntanın yırtıcılarındansa Paşinyan onlara daha çox əl verir. İkincisi, kim də bilməsə, Ermənsitandakı toplum birinci Qarabağ savaşında Azərbaycan torpaqlarının işğalında ”rədd olunmuşlar”ın elə də böyük rol oynamadıqlarını, onlar öz adlarına çıxsalar da, burada ən böyük ”xidmət”i 366-cı alayın, Pskovdan gətirilən desantçıların və Paşa Mersedesin göstərdiyini yaxşı bilirlər. Yəni söhbət sərkərdəlikdən gedirsə, haylar Köçəryan-Sarkisyan cütlüyünün Paşinyandan elə də fərqlənmədiklərinin yaxşı fərqindədirlər”.

MCP sədrinin muavini, politoloq Məhəmməd Əsədullazadə isə bildirib ki, Rusiyanın Ermənistanda baş verənlərə baxışı ”Koçaryan klanına” stavka etməklə, bu qrupu hakimiyyətə gətirib, regionda öz mövqeyini gücləndirməyə çalışmasıdır. Onun sözlərinə görə, ilk növbədə Ermənistanın Türkiyə və Azərbaycanla sülh müqaviləsi bağlanmasının qarşısnı almaqdır: “Ona görə də çalışır ki, prosesə mane olsun. Kremldə anlayırlar ki, N.Paşinyanın hakimiyyətdə olması, bu ölkədə Rusiyanın mövqeyinin zəifləməsinə və tədricən bu ölkədən çıxmasına gətirib çıxara bilər. Çünki, N.Paşinyanın hakimiyyətdə olması, regionda 10 noyabr razılaşamalarından irəli gələn bəndlərə əməl edilməsinə, hətta Türkiyə və Azərbaycanla əlaqələrin normallaşmasına gətirə bilər. Ona görə də Rusiya Hərbi Kəşfiyyat İdarəsi Ermənistan Baş Qərargah rəisinin vasitəsilə və müxalifətlə birgə hərbi çevrilişə cəhd etdi.

Göründüyü kimi, çevriliş baş tutmadı. Rusiya 10 noyabr razılaşmalarının bir neçə bəndinin reallaşmasında maraqlı deyil. Sadəcə iki bəndin həyata keçirilməsini həyata keçirdi. Bura üç rayonun döyüşsüz geri alınması da daxildir. Rusiya buna məcbur idi. Çünki, Azərbaycan hərbi əməliyyatları davam etdircəkdi. İkinci, kommunikasiyaların açılması. Bu da Rusiyanın öz geosiyasi maraqlarına cavab verir. Digər bəndlər Azərbaycanın maraqlarına və Ermənistanla sülhə apardığına görə həmin bəndlərin yerinə yetirilməsində maraqlı deyil”.

Politoloq qeyd edib ki, Moskva Nikol Paşinyanı devirərək, revanşistlərin hakimiyyətə gəlməsinə dəstək verir ki, razılaşmalara gedilməsin: “Ermənistanla Azərbaycanın düşmənçiliyi davam etsin. Rusiya konkret olaraq N. Paşinyanın hakimiyyətdən getməsində əsas maraqlı tərəfdir. Buna baxmayaraq N. Paşinyan hakimiyyətini möhkəmləndirəcək və Rusiyanın təsirini kifayət qədər azaldacaq. Türkiyə ilə Ermənistan arasında sərhədlərin açılması yay aylarında mümkündür. Bu, Paşinyanın ölkə daxilində vəziyyətini yaxşılaşdıracaq və iki ölkə ilə sülh müqaviləsinə gedə bilər. Hazırda N. Paşinyanın hakimiyyətdə qalması,Türkiyə və Azərbaycanın da mövqeyindən aslıdır. Bu proses Rusiyanın Cənubi Qafqazda mövqeyini zəifləyəcək. Baxmayaraq ki, Qarabağın kiçik bir hissəsində sülhməramlı qüvvələrlə iştirak edir. Bu, həll edici amil olmayacaq. Ermənistanda anti-Rusiya siyasəti və Azərbaycanın qətiyyətli addımları Moskvanın təsirini zəiflədəcək. Azərbaycan prezidenti İlham Əliyev Rusiyanın Qarabağdakı siyasətindən narazıdır və proseslər regionda Kremlin əleyhinə işləyir. Bu gün N. Paşinyan və erməni cəmiyyəti üçün Qarabağ mövzusu yoxdur. Ermənistan daxilində Qarabağ məsələsini Robert Koçaryan, Serj Sarkisyan vasitəsilə gündəmə Rusiya gətirir ki, regionda münaqişə daim yaşansın”.



Politoloq Elxan Şahin oğlu isə bizimlə söhbətində deyib ki, Ermənistanın baş naziri Nikol Paşinyan onu devirmək istəyən daxili və xarici mərkəzlərə gücünü göstərdi. Onun qənaətincə, Paşinyanın dəstək mitinqinə qatılanların sayı müxalifətin mitinqlərinə qatılanların sayını dəfələrlə üstələdi. Bu o deməkdir ki, ermənilərin əksəriyyəti Paşinyana alternativ görmür və Azərbaycanla yeni müharibə istəmir, o cümlədən Dağlıq Qarabağdan vaz keçib: “Buna baxmayaraq, Paşinyanın kütləvi mitinqi Ermənistanda siyasi və iqtisadi xaosa son qoymayacaq, tam əksinə qarşıdurma güclənəcək. Paşinyan bu gərginliyi artırmağa hazırdır. Onun erkən parlament seçkisi təklifini yenə səsləndirməsi və yarı prezident respublikasına keçidlə bağlı oktyabr ayında referendum keçirməsi istəyi də bundan xəbər verir. O, baş nazir kreslosunu prezident kreslosuna dəyişmək istəyir. Çünki baş nazirin sözlərinə görə 6 il əvvəl dəyişdirilən Konstitusiya yeni böhran yaradıb. Böhranın əsas səbəblərindən biri budur ki, baş nazir baş qərargah rəisini istefaya göndərə bilmir, prezident də buna mane olur. Baş qərargahın rəisi Onik Qasparyan istefa vermək istəmir. İş o yerə çatıb ki, Paşinyanın Qasparyana qarşı ittihamına baş qərargah rəisinin qızı sosial şəbəkə üzərindən cavab verib və baş naziri satqın adlandırıb. Ermənistanda yaxın günlərdə siyasi qarşıdurmanın silahlı toqquşmaya və terrora keçidinin şahidi ola bilərik”.

***Z.Məmmədli***



# Həbs edilən sabiq başçısından xəbər var

***Şəki Ağır Cinayətlər Məhkəməsində Yevlax şəhər İcra Hakimiyyətinin sabiq başçısı Qoca Səmədovun ilkin baxış iclası keçirilib.***

Unikal.org-un əldə etdiyi məlumata görə, Rəşid Hüseynovun sədrliyi ilə keçirilən iclasda anket məlumatları dəqiqləşdirilib. Növbəti məhkəmə iclası martın 10-na təyin edilib.

Qeyd edək ki, DTX-nın yaydığı xəbərə görə, həyata keçirilən tədbirlər nəticəsində 2019-cu ilin noyabr ayınadək Yevlax Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsində işləmiş Qoca Səmədovun bu müddət ərzində vətəndaşların hüquqlarına, cəmiyyətin və dövlətin qanunla qorunan mənafelərinə zərər vuran çoxsaylı qanun pozuntularına yol verməsinə əsaslı şübhələr müəyyən edilib. Belə ki, dövlət qayğısı olaraq işsiz vətəndaşların ictimai işlərə cəlb edilib aylıq qazanc əldə edə bilmələri üçün dövlət büdcəsi hesabına ayrılan külli miqdarda əmək haqları ələ keçirilib, o cümlədən Yevlax şəhərində “Yaşıllaşdırma və işıqlandırma müəssisəsi”nin fəaliyyətinə və digər abadlıq, təmir-tikinti işlərinə cəlb edildiyi rəsmiləşdirilən 133 nəfər heç bir işə cəlb edilmədən və əmək haqqı almadan, adlarına açılmış əmək haqqı kartları Qoca Səmədovun tabeçiliyində fəaliyyət göstərən şəxslər tərəfindən ətraf rayonlardakı bankomatlarda nağdlaşdırılaraq, Qoca Səmədova şəxsən təqdim edilməklə 236.000 manat dövlət vəsaiti mənimsənilməsinə əsaslı şübhələr müəyyən edilib.

Habelə, 2017-2019-cu illərdə dövlət büdcəsindən ayrılmış vəsaitlər hesabına Yevlax şəhərində abadlıq, təmir-tikinti işlərini həyata keçirmək adı ilə müxtəlif şirkətlərin hesablarına köçürülmüş 616.000 manat vəsait heç bir iş görülmədən Qoca Səmədovun tapşırığı ilə şirkət rəhbərləri tərəfindən nağdlaşdırılaraq ona şəxsən qaytarılmaqla təkrarən mənimsənilib. Şəhər icra hakimiyyəti və əlaqəli strukturlarda çalışan işçilərin əmək haqqından təsis etdiyi Şəhid ailələrinə və müharibə əlillərinə yardım Fonduna könüllü ödəmə adı altında hər ay faiz tutulub, yığılan pulun hər ay 8.000 manatadək olan əsas hissəsi Qoca Səmədova şəxsən təqdim edilib. Qoca Səmədov vəzifə səlahiyyətlərindən sui-istifadə edərək İcra Hakimiyyətinin Memarlıq və Tikinti şöbəsinin baş memarı Xalid Əhmədovun vasitəçiliyi ilə vətəndaşlar tərəfindən müxtəlif təyinatlı tikintilərin aparılması üçün zəruri olan sənədləşmə işləri və digər əsaslarla ümumilikdə 44 fiziki və hüquqi şəxsdən müxtəlif məbləğlərdə külli miqdarda təkrarən rüşvət tələb edərək almasına əsaslı şübhələr müəyyən edilib.

Qoca Səmədov və başqaları vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, külli miqdarda təkrar rüşvət alma, mənimsəmə və digər faktlara görə Dövlət Təhlükəsizliyi Xidmətində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə başlanılmış cinayət işləri üzrə şübhəli şəxs qismində saxlanılıb.

***Seymur Əli***

# İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə toplantısında mühüm çağırış

## İlham Əliyev: "Ermənistan özünü normal apararsa, bu prosesdən faydalana bilər"



***Martın 4-də İqtisadi Əməkdaşlıq Təşkilatının XIV onlayn Zirvə toplantısı keçirilir.***

Unikal.org xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev toplantıda videoformatda çıxış edib.

"Azərbaycan İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərlə münasibətlərinə böyük əhəmiyyət verir. Bu gün burada İqtisadi Əməkdaşlıq Təşkilatının Tədqiqat Mərkəzinin nizamnaməsini imzalayacağıq. Biz Azərbaycanın mərhum Prezidenti Heydər Əliyevin təşəbbüsünü dəstəklədiklərinə görə üzv dövlətlərə minnətdarıq və Azərbaycanda yerləşəcək Mərkəzin səmərəli fəaliyyəti üçün əlimizdən gələni edəcəyik.

2020-ci ildə Azərbaycan öz torpaqlarının Ermənistan tərəfindən 30 ilə yaxın davam edən işğalına hərbi-siyasi yollarla son qoydu. Ermənistan üzərində döyüş meydanında əldə edilmiş hərbi Zəfər siyasi yollarla tam təmin edildi. BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş və Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələri 27 il kağız üzərində qalmışdı. Azərbaycan özü həmin qətnamələrin icrasını təmin edərək ərazi bütövlüyünü bərpa etdi. İşğalçılar qədim Azərbaycan torpağı olan Qarabağdan qovuldu. 44 gün ərzində Ermənistan ordusu tam darmadağın edildi. 2020-ci il noyabrın 10-da Azərbaycan Ermənistanı kapitulyasiya aktı imzalamağa məcbur etdi. Müharibə başlayan kimi bizi dəstəkləyən ilk ölkə qardaş Türkiyə oldu. Əziz qardaşım, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın açıqlamalarını və onun siyasi və mənəvi dəstəyini yüksək qiymətləndiririk.

Ötən il sentyabrın 27-də və 28-də - müharibənin birinci və ikinci günü qardaş Pakistan və Əfqanıstan Ermənistanı işğala son qoymağa, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini icra etməyə çağırmış və Azərbaycanın ərazi bütövlüyünə öz dəstəklərini ifadə etmişlər. Mən bizi dəstəklədiklərinə görə onlara dərin təşəkkürümü bildirirəm. Eyni zamanda, müharibə dövründə bizi dəstəkləyən ölkələrin dövlət və hökumət başçılarına da təşəkkür edirəm.

İşğal zamanı Ermənistan işğal etdiyi ərazilərdə Azərbaycanın kənd və şəhərlərini, bütün mədəni və dini abidələrini qəsdən dağıtmışdır. Bizim məscidlər donuz və inək saxlanılan yerlərə çevrilmişdir. Bütün bunların foto və videoları internetdə var. Bu, bütün İslam dünyasına qarşı düşmənçilikdir. Azərbaycan xalqının mədəni və dini irsinin qəsdən dağıdılması və təhqir edilməsi faktları beynəlxalq media nümayəndələri tərəfindən əks etdirilmişdir. Bütün müsəlmanların hisslərini təhqir edən Ermənistanın müsəlman ölkələri ilə əlaqələrini genişləndirmək cəhdləri riyakarlıqdan başqa bir şey deyil. Azərbaycan müsəlman ölkələri arasında həmrəyliyə dəyərli töhfələr vermişdir. Biz müxtəlif beynəlxalq kürsülərdən İslam ölkələrini birliyə çağırmışıq. Azərbaycan İslam dininin zorakılıq və terrorla əlaqələndirilməsini kəskin şəkildə pisləyir. Biz islamofobiyaya qarşı mübarizə aparmalı və İslamın həqiqi dəyərlərini - sülh, tolerantlıq və ədaləti təşviq etməliyik. Bu mənada, qardaş Pakistanın təşəbbüsü ilə İslam Əməkdaşlıq Təşkilatının martın 15-nin Beynəlxalq İslamofobiya ilə Mübarizə Günü elan olunması qərarını alqışlayırıq.

Hazırda qarşımızda azad olunmuş ərazilərin yenidən qurulması kimi nəhəng vəzifə dayanır. Biz azad olunmuş ərazilərdə şəhər və kəndlərimizi yenidən quracağıq, mədəni və dini abidələrimizi bərpa edəcəyik. Biz indi gələcək haqqında düşünürük. Biz bölgədə sülh və sabitliyi təmin etmək üçün bir çox ölkələri birləşdirən nəqliyyat layihələrini müzakirə etməyə başlamışıq. Azərbaycan, Türkiyə və İran bölgədə nəqliyyat layihələrinin icrası ilə bağlı vahid mövqe sərgiləyir. Ermənistan da özünü normal apararsa, bu prosesdən faydalana bilər".

# Əli Əsədovun sədrliyi ilə iclas keçirildi



***Baş nazir Əli Əsədovun sədrliyi ilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə uyğun olaraq "2021-2025-ci illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın hazırlanması məqsədilə yaradılan Komissiyanın ilk iclası keçirilib.***

Bu barədə Unikal.org-a Nazirlər Kabinetindən məlumat verilib.

İclasda Azərbaycan Prezidenti tərəfindən 2 fevral 2021-ci il tarixli "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" barədə imzalanmış Sərəncamda Hökumətə "2021-2025-ci illər üzrə Sosial-iqtisadi inkişaf strategiyası"nın hazırlanması ilə bağlı verilmiş müvafiq tapşırıqlar, habelə yaradılmış Komissiyanın 10 alt işçi qrupunun fəaliyyət istiqamətləri, iş planları və onun koordinasiyası, hesabatlıq və təşkilati məsələlər müzakirə olunub.

# Vilayət Eyvazov özünü yandıran polisi işdən çıxardı



***Özünü yandıran polis əməkdaşı daxili işlər orqanlarından xaric edilib.***

Unikal.org-un əldə etdiyi məlumata görə, Daxili İşlər naziri general-polkovnik Vilayət Eyvazovun əmri ilə, Salyan Rayon Polis Şöbəsinin əməkdaşı Fətiyev Miri Bəxtiyar oğlu vəzifəsindən azad olunub.

Qeyd edək ki, keçən ilin dekabr ayında rayonun Xələc kənd sakini, 1986-cı il təvəllüdlü Fətiyev Miri Bəxtiyar oğlu üzərində gəzdirdiyi yanacağı üstünə tökərək özünü yandırmağa cəhd edib.

Yanında olan polis əməkdaşları tərəfindən vaxtında müdaxilə edildiyindən yanğın söndürülüb. Yüngül yanıq xəsarətləri alan M.Fətiyev Salyan Rayon Mərkəzi Xəstəxanasına çatdırılıb. İlk tibbi yardım göstərildikdən sonra o, Bakıya göndərilib.

***Famil Fərhadoğlu***

# Qarabağda reabilitasiya mərkəzləri yaradıla bilər

***Bu ilin əvvəlində 250 yataqlıq Şağan Reabilitasiya Pansionatının açılışı oldu. Cari ildə Şəmkir və Qəbələdə hər biri 25 çarpayılıq olmaqla, 2 uşaq Reabilitasiya Mərkəzinin açılması planlaşdırılır.***

Bunu açıqlamasında Dövlət Tibbi Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Reabilitasiya və İstehsalatın Təşkili Departamentinin direktoru Çingiz Hacıyev deyib.



Onun sözlərinə görə, işğaldan azad olunmuş ərazilərdə də reabilitasiya mərkəzləri yaradıla bilər:

"Düşünürəm ki, belə ərazilərdə reabilitasiya mərkəzləri yaratmaq olar. Bununla bağlı planlar var və artıq təkliflər təqdim edilib. Təkliflər qəbul olarsa, həmin bölgələrdə reabilitasiya xidmətinin təşkili üçün mərkəzlər yaradılacaq".

# Türkiyə Milli Müdafiə Nazirliyi Xocalı soyqırımı ilə bağlı sərgi təşkil etdi

***Türkiyə Milli Müdafiə Nazirliyi Xocalı soyqırımı ilə bağlı sərgi təşkil edib.***

Unikal.org Türkiyə KİV-ə istinadən xəbər verir ki, bu barədə Türkiyə Milli Müdafiə Nazirliyinin rəsmi "Twitter" səhifəsində məlumat yayılıb.

Bildirilib ki, sərgi 6 mart tarixindən açıq olacaq.

"Xocalıda şəhid edilən soydaşlarımıza Allahdan rəhmət diləyirik", - deyə paylaşımda qeyd olunub.

Baş redaktor:
Zaur Əhməd

"Turanbank" ASC Binəqədi filialı.
h/h AZ74TURA41040011963500110944
M/h AZ26NAB01350100000000027944
Kod: 50462
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5^N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.

Tiraj:2500

# Səfər Mehdiyev 30 milyonluq yeni binadan danışdı

## Komitə sədri: "10 kv. metr yerdə 7-8 işçi oturur"

***Dövlət Gömrük Komitəsinin (DGK) yeni binası Komitənin büdcədənkənar vəsaiti hesabına inşa ediləcək.***

Unikal.org-un məlumatına görə, bunu Komitənin sədri Səfər Mehdiyev 2020-ci ilin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş tədbirdə bildirib.

Onun sözlərinə görə, bəzən bir ildə DGK 8 milyon manat, bəzən 10 milyon manat, bəzən də 15 milyon manat büdcədənkənar əlavə vəsait toplanır. Bu vəsait də Dövlət Gömrük Komitəsinin daha da inkişaf etdirilməsinə yönəldilir. Bu vəsait gömrük orqanları işçilərinin iş şəraitinin yaxşılaşdırılmasına yönəldilir.

O qeyd edib ki, bu gün DGK-nın yeni inzibati binasına ehtiyacı var: "Siz görsəniz ki, bu gün bəzi əməkdaşlarımız hansı şəraitdə işləyir. Binanın nə üçün tikilməsi barədə suallar da verilir. Bu gün komitənin mövcud binasında 10 kvadrat məsafədə 7-8 nəfər oturur. Bəzən işçilər 3 növbədə işə çıxırlar. Aparatın bir neçə idarəsi başqa yerlərdə icarədədir. Ona görə yeni inzibati binanın tikilməsi zəruri idi".

S. Mehdiyev deyib ki, Komitə artıq bu günə qədər 30 milyon manat smeta və satınalma tenderlərini həyata keçirib: "Zaman keçdikcə, bu inzibati binanın tikintisinə büdcədənkənar vəsait hesabına inşa etdiriləcək".



# Nazirin Baş katibə ünvanladığı məktub BMT sənədi kimi yayılıb



***Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramovun cari ilin 22 fevral tarixində BMT-nin Baş katibi Antonio Quterreşə ünvanlandığı, Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin mina və digər partlayıcı sursatlar ilə kütləvi çirklənməsindən irəli gələn ciddi təhlükə və Ermənistanın minalanmış ərazilər ilə bağlı müvafiq məlumatı verməkdən imtina etməsinə dair məktubu BMT Baş Assambleyasının və Təhlükəsizlik Şurasının sənədi kimi yayılıb.***

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən "Unikal"a verilən xəbərə görə, məktubda münaqişədən sonrakı dövrdə Azərbaycanın azad edilmiş ərazilərində mina və digər partlayıcı sursatların mövcudluğunun azərbaycanlı hərbiçilərin və mülki şəxslərin sağlamlığına ciddi təhlükə olduğu qeyd olunur. Bildirilir ki, 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatın imzalanmasından sonrakı dövrdə Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində mina partlayışı nəticəsində 9 mülki şəxs daxil olmaqla, 15 vətəndaş həyatını itirib və 8 mülki şəxs daxil olmaqla, 65 vətəndaş ciddi yaralanıb.

Məktubda vurğulanır ki, Azərbaycanın azad edilmiş ərazilərinin minalarla kütləvi şəkildə çirklənməsi bu ərazilərdə geniş bərpa və yenidənqurma işlərinin həyata keçirilməsinə ciddi maneələr yaradır.

Nazir Ceyhun Bayramov BMT Baş katibinin diqqətinə çatdırır ki, Ermənistan minalanmış ərazilər ilə bağlı dəqiq məlumatın verməkdən imtina etməklə beynəlxalq humanitar hüquqdan irəli gələn öhdəliklərini ciddi şəkildə pozur. Burada, həmçinin vurğulanır ki, Ermənistan tərəfindən basdırılmış minaların insan həyatına son qoyması müharibə cinayətidir.

BMT Baş Assambleyasının və Təhlükəsizlik Şurasının sənədi ilə aşağıdakı keçiddən tanış olmaq olar: <https://undocs.org/a/75/778>.

# Məhkəmələrdəki ən çox iş sosial təminat və pensiya hüququ pozulması ilə bağlıdır



***Ali Məhkəmə 2020-ci ildə məhkəmələrdə inzibati mübahisələrə baxılması vəziyyətinə dair hesabat açıqlayıb. Ali Məhkəmədən Modern.az-a verilən məlumata görə, 2020-ci il ərzində İnzibati Kollegiyanın icraatında cəmi 2707 iş olub. Onlardan 526 (19,4%) iş 2019-cu ildən qalıq keçmiş, 2181 iş (80,6%) isə 2020-ci il ərzində daxil olmuşdur.***

2020-ci il ərzində icraatda olmuş 2707 işdən 2236 işə (82,6%) mahiyyəti üzrə baxılıb, 142 iş (5,2%) üzrə kassasiya şikayəti mümkün sayılmayıb, 1 iş (0,1%) üzrə məhkəmə aidiyyəti ilə bağlı mübahisə həll edilib, 328 iş (12,1%) isə qalıq olaraq 2021-ci ilə keçib.

Baxılmış 2236 işdən 1579 (70,6%) iş üzrə qərar və qərardadlar qüvvədə saxlanıl, 629 (28,1%) iş üzrə ləğv edilib, 7 (0,3%) iş üzrə kassasiya icraatına xitam verilib, 21 (1%) iş üzrə isə məhkəmə aktları dəyişdirilib.

Ləğv edilmiş 629 işdən 451 iş (71,7%) təkrar baxışa göndərilib, 137 iş (21,8%) üzrə yeni qərar çıxarılıb, 17 iş (2,7%) üzrə icraata xitam verilib, 24 iş (3,8%) üzrə isə iddia mümkün sayılmayıb.

Ali Məhkəmənin məlumatına görə, 2020-ci il ərzində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin iştirak etdiyi işlərin sayı 45,7% təşkil edib. Yəni, bütövlükdə 2236 işə baxılıb, bunlardan 1022-si ƏƏSMN-in tərəf kimi iştirak etdiyi işlər olub

2020-ci ildə ölkə üzrə apelyasiya instansiyası məhkəmələrinin inzibati kollegiyalarının icraatında cəmi 5488 iş olub.

Ötən il məhkəmələrin icraatında olmuş 16344 işin kateqoriyalar üzrə bölgüsü belədir:

- sosial təminat və pensiya hüququ ilə bağlı - 3731 iş (22,9%);
- hüquqların daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınması və torpaq mübahisələri ilə bağlı - 3928 iş (24%),
- müharibə veteranı adı və vəsiqəsi verilməsi barədə - 1896 iş (11,6%),
- yaşayış yeri üzrə qeydiyyata alınma və ya qeydiyyatdan çıxarılma ilə bağlı - 1212 iş (7,4%),
- vergi mübahisələri ilə bağlı - 878 iş (5,3%),
- xidməti hüquq münasibətləri ilə bağlı - 356 iş (2,2%),
- yerli icra hakimiyyətlərinin qərarlarının ləğvi və üzərlərinə müvafiq öhdəliklərin qoyulması ilə bağlı - 135 (0,8%) iş,
- yerli özünüidarəetmə orqanlarının qərarlarının ləğvi və üzərlərinə müvafiq öhdəliklərin qoyulması ilə bağlı - 98 (0,6%) iş,
- sair işlər üzrə (ad və soyada dəyişiklik edilməsi, təkrar doğum haqqında şəhadətnamə verilməsi, icra məmurunun qərarlarından şikayət)- 4110 iş (25,1%) .

# "Qadınlarımız kişilərlə çiyin-çiyinə çalışır" - Bahar Muradova

***Qadınlarımız bütün imkanları, qüvvə və bacarıqları ilə kişilərlə bərabər, çiyin-çiyinə çalışırlar. Azərbaycanda qadına həmişə hörmət olub, hər zaman Ana adı uca tutulub.***

"Unikal" xəbər verir ki, bunu Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova deyib.

Komitə sədri bildirib ki, "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında Qanunun qəbul edilməsindən artıq 15 il ötür.

"Zaman keçdikcə bütün sahələrdə olduğu kimi qanunlarda da dəyişikliklərin edilməsi vacibdir. Düşünürəm ki, dövlət qurumlarının təqdim etdiyi bütün hesabatlar cins kateqoriyasına uyğun şəkildə aparılmalıdır. Gender həssas yanaşmanı özündə əks etdirməlidir.

Əsas təşkilatlarda, qurumlarda çalışan qadınların sayı deyil, görülən işdir. Gender mədəniyyətinin təbliğinə xüsusi diqqət yetirməliyik. Bütün səviyyələrdə hər sahədə təlimlərin aparılması məqsədəuyğun olardı".

# Azərbaycanla Türkiyə yenidən birgə hərbi təlimlər keçirəcək

***Hərbçilərimiz 6 həftəlik təlimlər üçün Türkiyəyə yollanıblar. "Unikal" xəbər verir ki, Türkiyə Milli Müdafiə Nazirliyi hərbçilərimizin Isparta şəhər hava limanında qarşılanma mərasimi haqqında paylaşım edib:***

"Can Azərbaycan ilə "Bir millət, iki dövlət" anlayışı altında birlikdə çalışmağa davam edirik. 6 həftəlik hərbi təlimlər üçün Ispartaya gələn qəhrəman Azərbaycan Ordusundan olan qardaşlarımızı hava limanında qarşıladıq".

# 3254 şagird buraxılış imtahanı verəcək

***Dövlət İmtahan Mərkəzi 7 mart 2021-ci il tarixində respublikanın 24 şəhər və rayonunda ilk peşə-ixtisas təhsili müəssisələrinin sonuncu sinfində təhsil alan şagirdləri üçün buraxılış imtahanı keçirəcək.***

DİM-dən "Unikal"a verilən məlumata görə, imtahan keçirilən şəhər və rayonlar peşə-ixtisas təhsili müəssisələrinin yerləşdiyi ərazilərə uyğun müəyyən olunub.

Həmin gün 3254 şagirdin (Bakı şəhəri üzrə Binəqədidə 269, Xətaidə 129, Xəzərdə 112, Nərimanovda 387, Sabunçuda 300, Qaradağda 144, Nizamidə 140, Gəncədə 280, Şəmkirdə 40, Gədəbəydə 39, Qazaxda 18, Tovuzda 86, Sumqayıtda 258, Şamaxıda 20, Qəbələdə 54, Qaxda 98, Bərdədə 75, Göyçayda 52, Kürdəmirdə 20, Zərdabda 76, Şirvanda 74, Sabirabadda 75, Biləsuvarda 55, Salyanda 55, Saatlıda 72, Lənkəranda 31, Cəlilabadda 88, Qubada 96, Qusarda 35, Xaçmazda 76 nəfər) imtahan verəcəyi nəzərdə tutulur.

İmtahan saat 11:00-da başlanır. İmtahanda iştirak edəcək şagirdlərin nəzərinə çatdırırıq ki, imtahan binasına buraxılış saat 10:45-də başa çatır və bundan sonra gələn şagirdlər imtahana buraxılmır.

İmtahanda şagirdlərin bilik və bacarıqlarını yoxlamaq məqsədi ilə onlara tədris dili, riyaziyyat və xarici dil üzrə ümumilikdə 85 tapşırıq təqdim edilir. İmtahanda şagirdlərin xarici dil üzrə dinləyib-anlama bacarıqları da yoxlanılır. İmtahan dinləmə mətninin səsləndirilməsi ilə başlanır.

İmtahan bitdikdən sonra iştirakçılar sual kitabçası və cavab vərəqini nəzarətçiyə təhvil verməlidirlər. İmtahanların keçirilməsi üçün 32 imtahan binası ayrılıb. İmtahanların idarə olunmasına 44 imtahan rəhbəri, 32 ümumi imtahan rəhbəri, 313 nəzarətçi-müəllim, 64 buraxılış rejimi əməkdaşı ayrılıb.

# "2 min hərbçinin cəsədinin DNT müayinəsi aparılıb" - Erməni nazir

***Ermənistanda Qarabağ döyüşlərində ölən əsgərlərin cəsədlərinin və qalıqlarının DNT analizi ilə tanınması üçün iki min prosedur həyata keçirilib.***

"Unikal" xəbər verir ki, bu barədə Ermənistanın səhiyyə naziri Anahit Avanesyan deyib.

Onun sözlərinə görə, müayinədən keçmək üçün az sayda hərbi qulluqçunun nümunələri qalıb. Erməni nazir analizlərlə bağlı bir sıra şikayətlər alqıdırları, onların araşdırıldığını bildirib. Qeyd edək ki, Səhiyyə Nazirliyi daha əvvəl ötən ilin 27 sentyabrından 13 fevral 2021-ci il tarixinə qədər 3577 cəsədin müayindən keçdiyini açıqlayıb.



## DGK sədrindən komitəyə qarşı olan ittihamlara reaksiya

***Ötən ilin Dövlət Gömrük Komitəsinin xarici ticarət dövriyyəsi 24 milyard 471 milyon 29 min manat təşkil edib.***

Unikal.org xəbər verir ki, bunu Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev bu gün keçirdiyi 2020-ci ilin yekunlarıyla bağlı mətbuat konfransında deyib. O bildirib ki, buna kölgə iqtisadiyyatıyla mübarizə, mənşə ölkəsinin müəyyənləşdirilməsi, risk idarəetmə mərkəzlərinin fəaliyyətinin təkmilləşdirilməsi nəticəsində mümkün olub.

DGK sədri son günlər komitəyə qarşı səsləndirilən ittihamlara da münasibət bildirib. Onun sözlərinə görə, 2020-ci ildə idxalın həcmi 10 730,72 olub: "Bunun da 59 faizini idxal rüsumlarından azadolma təşkil edir. Hər kəs indi ekspert qismində çıxış edir. Onlar deyir ki, cəlb edilmiş rüsum 36 faizdir. Ancaq ölkəyə idxal olunan malların 26,5 faizinin 15 faiz rüsumu cəlb olunub. 5 faizə cəlb olunan idxalın həcmi 8,2 faiz təşkil edir".

İdxalda əsas malların dinamikasında birinci yerdə maşın mexanizm aparatları və avadanlıqları (23 faiz) təşkil edib. Bunu Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev bu gün keçirdiyi 2020-ci ilin yekunlarıyla bağlı mətbuat konfransında deyib. Sədr bildirib ki, ikinci yeri yeyinti məhsulları tutur: "Bu, 15.29 faiz təşkil edib. İdxalda əsas ölkələr kimi Rusiya, Türkiyə və Çin ilk üçlükdə yer alıb. İxracda ən böyük pay xam neft təşkil edib (68 faiz)".

Dövlət Gömrük Komitəsinin Xaçmaz rayonunun Xanoba kəndində inşa etdiyi "Xanoba" gömrük postunun tikintisi bu il yekunlaşa bilər.

Onun sözlərinə görə, Şimal Ərazi Baş Gömrük İdarəsinin "Xanoba" gömrük postunun kompleks tikintisi ilə əlaqədar layihə-smeta sənədləri hazırlanıb.

O həmçinin qeyd edib ki, Azərbaycan tərəfi gündəlik olaraq 500-ə yük və minik nəqliyyat vasitəsinin gömrük-sərhəd yoxlanılmasını həyata keçirir: "Qarşı tərəf isə 250 nəqliyyat vasitəsinin yoxlanılmasını həyata keçirir. Bu gömrük postunun tikintisi və istifadəyə verilməsi İrandan Rusiyaya gələn və gedən yüklərin, eləcə də nəqliyyat vasitələrinin daha sürətli keçidini təmin edəcək. Bu keçid məntəqəsi istifadəyə verildikdən sonra şimal istiqamətində sərhədkeçmə prosesləri daha rahat və sürətli şəkildə həyat keçiriləcək".

***Famil***

# "Üçüncü Qarabağ savaşının başlaması üçün ciddi səbəblər yoxdur"

## Qabil Hüseynli: "Erməni ordusu tamamilə dağılıb, erməni ordusunun qalıqları da döyüş aparmaq qüdrətinə malik deyil"

***Qarabağda savaşın yenidən başlanacağı ilə bağlı cəmiyyətdə müəyyən narahatlıq var. Hətta kimlərsə arqumentlər gətirir. Ermənilərin müharibəyə başlaması, kənar müdaxilələr, gərginliyin yenidən alovlanması kimi ehtimallar nə qədər realdır? Bu və ya digər sualları sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli "Unikal" qəzetinə müsahibəsində cavablandırıb.***

***-Qabil bəy, öncə Qarabağda yenidən müharibənin başlayacağı ilə bağlı cəmiyyətdəki narahatlıq barədə fikirlərinizi bildirməyinizi istərdik.***

-Qarabağda nələrsə ola bilər. Amma bunun üçün illər lazımdır. Bu gün Qarabağda müharibə təhlükəsi yoxdur, III Qarabağ savaşının başlaması üçün ciddi səbəblər yoxdur. Erməni ordusu tamamilə dağılıb, erməni ordusunun qalıqları da döyüş aparmaq qüdrətinə malik deyil. Komanda sistemi pozulub, təchizat çox ağır vəziyyətdədir. Rusiya ordunu silahlandırmaqla bağlı yenidən vədlər versə də, bunun üçün böyük pullar lazımdır. Bu pulları tapmaq lazımdır. İndiyə kimi Rusiyadan 5-6 milyard dollarlıq pulsuz silah ötürülüb. Bu, məsələnin bir tərəfidir. İkincisi, Qarabağda müharibə nəyə görə başlamalıdır? Müharibə bitib. Sülhməramlı qüvvələrin qaldığı yerlər var. Orada ermənilər yaşayır, onlar da gec-tez Azərbaycan cəmiyyətinə inteqrasiya olunacaqlar. Azərbaycan vətəndaşlığını qəbul edəcəklər və bununla da məsələnin müharibə yolu ilə həllinə ciddi ehtiyac qalmayacaq.

***-Cəmiyyətdə müəmmalı qalan məsələlər var. Məsələn, hazırda Azərbaycanın nəzarət etmədiyi ərazilər var. Hamı soruşur ki, bu nə zaman və hansı formada həllini tapacaq? Ümumiyyətlə, bu məsələ həll olunmaya bilərmi?***

-Yox, bunların hamısı həll olunacaq. Məsələn, söhbət Ağdərənin bir hissəsindən və ya Ağdərədən keçib Kəlbəcərə gedən yolun bir hissəsindən gedə bilər. Hazırda keçmiş Dağlıq Qarabağın 60 faizə yaxını Azərbaycanın nəzarəti altındadır. Bütün çaylara, su mənbələrinin hamısına Azərbaycan nəzarət edir. Yüksəkliklərin hamısı Azərbaycanın əlindədir. Yəni strateji təşəbbüslər Azərbaycanın əlindədir. Bəli, könül çox şey istəyir. Könül istəyir ki, Laçında Azərbaycanın sərhəd məntəqəsi olsun, gömrük məntəqəsi olsun. Qarabağa gəlib-gedənlərin hamısını Azərbaycan yoxlasın. Amma bunun üçün də müəyyən vaxt lazımdır. Hələ gözləyək görək ki, Ermənistandakı proseslər hansı istiqamətə gedir?

***-Ermənistanda başlamış gərginlik daha fərqli müstəvilərə keçir. Daha genişlənir. Bu proses nə ilə nəticələnə bilər?***

-Oradakı proseslər mürəkkəb səviyyəyə, kulliminasiya nöqtəsinə gəlib çatmışdır. Paşinyan situasiyaya nəzarəti ələ ala bilib. 1 martda Paşinyan da mitinq çağırmışdı, müxalifət də mitinq çağırmışdı. 1 mart mitinqləri göstərdi ki, Paşinyan müxalifətdən azı 6-7 dəfə çox adam yığa bildi. Qüvvələr nisbəti göstərdi ki, əhalinin böyük hissəsi Paşinyanı müdafiə edir. Əhalinin böyük hissəsi Serj Sarkisyana, Robert Koçaryana nifrət edir, onların Ermənistanda qalmasını istəmir. Ümumiyyətlə, Ermənistanda yaşıyan ermənilərin böyük hissəsi Dağlıq Qarabağ problemini müdafiə etmir. Onlar dinc yaşamaq istəyirlər. Qonşuluq münasibətləri istəyirlər. Nə olsun ki, bir hissəsi "Qarabağ bizimdir", "Qarabağ geri qaytarılmalıdır" deyirlər? Xofdan və qorxudan deyirlər. Amma çoxu ölkədən getməyə, başqa ölkələrə köçməyə hazırlaşır.

***-Onlar üçün çıxış yolu varmı?***

-Bunun qarşısını isə müharibə təhlükəsinin sovuşması və riskin azalması, Azərbaycan və Türkiyə ilə normal münasibətlər ala bilər. Kommunikasiyaların açılması, Mehri dəhlizinin açılması, Gümrüdən Qarsa dəmir yolu çəkilərək Ermənistanın Bakı-Tbilisi-Qars dəmir yolu xəttinə qoşulması, Qazaxdan İcevana, İğdırdan Ermənistan ərazilərinə xətlərin açılması və sair. Bunların hamısı Ermənistanın müəyyən şərtləri yerinə yetirməsi erməni faşist xuntasının nümayəndələridirlər. Erməni faşizmi mahiyyətinə görə alman faşizmindən daha qəddar və amansızdır. Ona görə də Ermənistan cəmiyyətində bir saflanma getməlidir. Bu prosesin getməsi üçün hakimiyyətdə bölgədə formalaşmış yeni reallıqları dərk edən, ona qarşı getməyin mümkün olmadığını başa düşən, Ermənistanın gücünün iqtisadiyyata, xalqın maddi rifahına yönəldilməsinin vacibliyini anlayan adam lazımdır. Ay Robert Koçaryan, ay əclaf, sən nə ilə müharibə aparacaqsan? Nəyin müharibəsini aparacaqsan? Torpağımızı tutubsan, xarabalığa çevribsən, 350 milyard dollarlıq ziyan vurubsan, 35 mindən çox insanımızı qırıbsan, soyqırımı törədibsən, indi də revanşizm. Nə revanşizm? Revanşizm hissləri bizdə olmalıdır. Azərbaycanlılar



**"Ermənistan tərəfindən hər hansı cəhd olsa, bu dəfə Azərbaycan xalqı daha amansız şəkildə onların üstünə çökəcək və bu revanşizmə rəhbərlik edənin iki gözünü bir deşikdən çıxaracaq"**

ilə ola bilər. Ermənistan Azərbaycana və Türkiyəyə qarşı ərazi iddialarından əl çəkməyi qəbul etməlidir, sülh sazişi imzalamalıdır. Sazişdə bölgədəki yeni status-kvonun tənzimlənməsinin mexanizmi əksini tapmalıdır. Ona görə də mənə belə gəlir ki, Paşinyan təşəbbüsü yavaş-yavaş öz əlinə götürür.

***-Belə çıxır ki, Paşinyan hazırda Azərbaycana sərf edən rəhbərdir?***

-Bəli. Bizə Xocalı soyqırımını törədən Serj Sarkisyan, Robert Koçaryan lazımdır ki? Onların əli qana batıb. Paşinyan yenə Qərb nədir, Qərb dəyərləri nədir bilir. 2018-ci ildən əvvəl parlamentdə Qarabağla bağlı maraqlı söz işlətmişdi. Bakıda 20 Yanvar qırğını olanda Azərbaycana başsağlığı verib. Yəni belə dəyərlərin daşıyıcısı olan adamdır. Nə olsun ki Qarabağda yallı getdi, araq içdi?

***-Onun da cəzasını aldı...***

-Bəli. Reallıqları görən, bilən, dəyərləndirən siyasətçi ayrı şeydir. Robertdir, Serjdir, lap elə indiki prezidentdir, bunlar qisasçılıq hissi ilə alışıb-yanmalıdır. 30 ildən çox torpaqlarımızı istila edibsiniz. Qarabağın münbit torpaqları sizi 30 ildən çox taxıl və buğda məhsulları ilə təmin edibdir. Kəlbəcər qızıl yataqlarını istismar edibsiniz. Ağdərədəki kömür mədənlərini istismar edibsiniz. Meşələrdən bütün palıd ağaclarını kəsib parket hazırlayıbsınız, evlərinizə vurubsunuz. 7 rayonda ən yaxşı evlərimizi, xüsusən Ağdam və Füzulidəki o ağ dəmirdən düzəldilmiş ev damlarını söküb aparıbsınız, satıbsınız. İrana satıbsınız, kimə satıbsınız. Ermənistana aparıbsınız. Biz yanmalıyıq, sinəsi dağlanmalıyıq, biz qisasçı olmalıyıq. İtirən bizik, siz nəyinizi itiribsiniz? Nəyi qaytaracaqsan, nəyin qisasını alacaqsan? Ermənistan tərəfindən hər hansı cəhd olsa, bu dəfə Azərbaycan xalqı daha amansız şəkildə onların üstünə çökəcək və bu revanşizmə rəhbərlik edənin iki gözünü bir deşikdən çıxaracaq.

***Z.Məmmədli***

# Cahangir Əsgərov AZAL-ı uçuruma sürükləyir

## "Azərbaycan Hava Yolları" artıq işçilərinin maaşlarını ödəməkdə belə çətinlik çəkirsə, deməli, bu dövlət şirkətində vəziyyət düşündüyümüzdən də ağırdır



***Yola salmaq üzrə olduğumuz həftə məlum oldu ki, ”Azərbaycan Hava Yolları” QSC-nin (AZAL) işçiləri iki aydır maaşlarını ala bilmirlər. Bu barədə ilk açıqlama iqtisadçı-ekspert Qubad İbadoğludan gəlib.***

Qubad müəllim AZAL əməkdaşlarının yazdıqlarına əsaslanaraq bəyan edib ki, adıçəkilən dövlət şirkətində çalışanlar iki aydır maaşsız qalıblar. Baxmayaraq ki, ”Azərbaycan Hava Yolları” pandemiya zamanı bəhrələnənlərdən biridir. Belə ki, Maliyyə Nazirliyi ötən ilin büdcəsindən AZAL-a pandemiyanın neqativ təsirlərini neytrallaşdırmaq üçün 86,9 milyon manat köçürüb.

Üstəlik, adıçəkilən dövlət şirkəti bazarda hökmran mövqeyini saxlayaraq İstanbula uçuşa artan tələbatdan sui-istifadə edib və gediş-gəliş biletini dəfələrlə bahalaşdırıb. ”AZAL pandemiyadan əvvəl səfər etmək istəyənlərin ödədiyi vəsaiti indiyə qədər geri qaytarmayıb. Bəlkə də Cahangir Əsgərov AZAL-ın işçilərinin əmək haqlarını qəsdən vermir ki, bu ilin büdcəsindən də maliyyə yardımı alsın” - deyə iqtisadçı-ekspert bildirib.

”Azərbaycan Hava Yolları” QSC əməkdaşları iki aydır maaşsız qaldığı bir vaxta, elə ötən ay məlum oldu ki, Cahangir Əsgərovun qızı Məlahət Əsgərovanın indiyədək bir neçə şirkət açdığı İngiltərədə növbəti şirkəti fəaliyyətə başlayıb. Belə ki, “MRCR ART LIMITED” bu il yanvarın 8-də Britaniya Şirkətlər Evində Əsgərovlar ailəsinə məxsus Gazelli Art House-nin yerləşdiyi London, Dover Street 39 ünvanında 13123235 saylı lisenziya ilə qeydiyyatdan keçib! Gözəl! Xeyirli olsun!

Lakin insan soruşmadan dayana bilmir: Cahangir müəllimin ailə biznesi günbəgün çiçəkləndiyi bir vaxtda necə olur ki, onillərdir rəhbərlik etdiyi bir dövlət şirkətinin işçiləri aylardır maaş ala bilmir?

Əlbəttə, AZAL-dan bu lakonik suala hər hansı ağlabatan cavab gözləmirik. Üstəlik, bu lakonik sualın cavabı elə özündə gizlidir: Cahangir müəllimin ailə biznesi gündən-günə çiçəklənərkən ”Azərbaycan Hava Yolları” hansı səbəbdən ilbəil zərər edirsə, indi də səbəb eynidir: qeyri-şəffaflıq!

Əlbəttə, AZAL maaşların verilməməsini pandemiya dövrünün yaratdığı çətinliklərlə izah edə bilər. Ancaq bu izahata çətin ki, inanan kimsə tapılsın. Bu dövlət şirkəti inhisarçı mövqelərə malikdir. Hər il büdcədən on milyonlarla manat dotasiya alır. Üstəlik, postsovet məkanının ən bahalı uçuş biletlərini təklif edir. Elə isə necə ola bilər, hətta əməkdaşlarına iki aydır maaş verə bilməsin?

Təkcə Bakı-İstanbul reysi üzrə gediş-gəliş bileti ilə Tiflis-İstanbul reysi üzrə gediş-gəliş bileti arasında hazırda az qala 4-5 dəfəyə yaxın fərq var. Elə isə hansı məntiqlə AZAL işçilərinə iki aydır maaş verməkdə aciz qalıb?

Yaranmış mənzərə ”Azərbaycan Hava Yolları” QSC ilə bağlı cəmiyyətdəki və mətbuatdakı tənqidlərin nə qədər haqlı olduğunu bir daha ortaya qoyur. Növbəti dəfə heç bir şübhə yeri qalmır ki, AZAL doğru prinsiplərlə, standartlarla, normativlərlə idarə olunmur. Bu dövlət şirkətinin idarəçilikdə yeni nəfəsə, modern yanaşmaya ehtiyacı var. Belə bir ehtiyac çoxdan yaranıb və daha çox vaxt itirmək adıçəkilən QSC-nin zərərini, borc yükünü artırır. Əgər işçilərə maaş ödənilməsi də problemə çevrilməyə başlanıbsa, durumun getdikcə anormallaşdığını söyləməyə gərək yoxdur.

Bir sözlə, şəxsi biznesi çiçəkləndiyi halda ziyanı, borcları yüksələn, əməkdaşları maaşsız qalan AZAL-ın problemi konkretdir. Birinci, qurumda qeyri-şəffaflıq hökm sürür, hesabatlılıq zəifdir, nəticədə gəlirlər nəinki xərcləri qarşılamır, üstəlik, borca meydan açır. İkinci, AZAL doğru idarə edilmir. Müasir idarəçilik prinsiplərindən uzaqdır. Yeni dövrün tələblərinə cavab vermir.

Ona görə də qurumun fəaliyyətinə hökumətin müdaxiləsi qaçılmaza çevrilib. Cahangir müəllim sadaladığımız sadə həqiqətləri qəbul edə, onlarla razılaşmaya bilər. Lakin o zaman çıxıb cəmiyyətə də, mətbuata da açıqlaması vacib olan məqamlar var. Məsələn: Bu qədər borcun necə yarandığı həqiqətən maraq doğurur: adın dünyanın ən bahalı aviaşirkətlərindən biri kimi hallansın, hər il dövlət büdcəsindən on milyonlarca dotasiya alasan, ölkənin hava nəqliyyatında inhisarçı mövqelərə malik olasan və... zərər edəsən?! Niyə, hörmətli Əsgərov niyə?

Ən əsası isə: AZAL ilbəil ziyan edir, işçiləri maaş almaqda belə çətinlik çəkir, lakin bunun əvəzində AZAL rəhbərinin ailəsi biznesini böyüdür, həm ölkə daxilində, həm də ölkə xaricində ciddi kapital tələb edən sərmayələr yönəlir. Bu sərmayələrin qaynağı nədir, açıqlaya bilərsinizmi, hörmətli Əsgərov, nədir bu sərmayələrin qaynağı?!

***Elvin Rüstəmov***

# Pakistan-Azərbaycan münasibətlərində yeni tarixi mərhələ başlayır

***Dağlıq Qarabağ münaqişəsi dövründə Azərbaycana həmrəylik və dəstək nümayiş etdirən dost ölkələrdən biri də Pakistan idi. Hazırda iki qardaş ölkə arasında münasibətlər yüksələn xətt üzrə inkişaf edir.***



Təsadüfi deyil ki, dünən Pakistanın Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri general Nadim Razanın başçılıq etdiyi nümayəndə heyətini videoformatda qəbul edən Prezident İlham Əliyev pakistanlılarla azərbaycanlıların birlik və qardaşlığını xüsusi olaraq önə çəkdi.

Dövlət başçısı bildirib: ”Müharibə zamanı nümayiş etdirilən həmrəyliyə və dəstəyə görə qardaş Pakistana təşəkkürümü ifadə etmək istəyirəm. Torpaqlarımızın azadlığı uğrunda apardığımız müharibə 44 gün çəkdi və Azərbaycanın Ermənistan üzərində qələbəsi ilə başa çatdı. Biz 30 ilə yaxın işğal altında olan ərazilərimizi azad etdik.

Müharibənin ilk günündən Pakistan Azərbaycana həmrəylik və dəstək nümayiş etdirdi. Pakistan Azərbaycanın işğal olunmuş ərazilərindən qoşunların dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasının tərəfdarı kimi çıxış etdi və Ermənistanın təcavüzünü pislədi. Bu, həqiqi qardaşlıq və dostluğun nümunəsi idi. Yəqin bilirsiniz ki, Azərbaycanda insanlar Pakistan xalqı ilə, ölkənizlə bağlı öz hisslərini nümayiş etdirdilər, müharibə zamanı Pakistan bayraqlarını dalğalandırdılar. Bu, bir daha bizim birlik və qardaşlığımızı nümayiş etdirir”.

Pakistan-Azərbaycan münasibətlərinin gələcək perspektivlərini Azvision.az -a şərh edən Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü, deputat Hikmət Babaoğlu deyib ki, İslamabad müstəqillik illərində hər zaman Azərbaycanın təhlükəsizliyinin təmin olunmasında maraqlı olub:

“Pakistan-Azərbaycan münasibətləri yalnız indi və 44 günlük Vətən müharibəsi zamanı deyil, həmişə yüksək səviyyədə olub. Hər iki ölkə istər beynəlxalq təşkilatlar səviyyəsində, istərsə də ikitərəfli münasibətlərdə bu vaxta qədər nümunəvi münasibətlər sərgiləyib. Azərbaycan Pakistana, İslamabad isə rəsmi Bakıya bütün məsələlərdə dəstək olub. Yalnız ərazi bütövlüyü deyil, istənilən sahədə bu dəstəyi sezmişik, xüsusən də ötən illər ərzində beynəlxalq təşkilatlarda iki qardaş ölkə bir-birinə açıq dəstəyini nümayiş etdiriblər. Buna paralel olaraq Pakistan-Azərbaycan münasibətləri həm də İslam Əməkdaşlığı Təşkilatında nümunəvi münasibətlərdən biri kimi qiymətləndirilib”.

Hikmət Babaoğlu bildirib ki, Azərbaycanın apardığı 44 günlük Vətən müharibəsində bu dost və qardaş ölkənin siyasi, mənəvi dəstəyi yüksək səviyyədə olub:

“Azərbaycan xalqı Pakistanın dəstəyini yüksək qiymətləndirir. Təsadüfi deyil ki, müharibə gedən dövrdə qardaş Pakistanın bayrağı digər bizə əziz olan ölkənin -Türkiyənin və Azərbaycanın bayraqları ilə bərabər küçə və meydanlarımızı bəzəyirdi. Bu əslində Azərbaycan xalqının xalq diplomatiyası vasitəsilə qardaş Pakistana öz münasibətini sərgiləməsi idi. Ona görə də, bu gün dünyada cərəyan edən qlobal proseslər kontekstində Pakistan-Azərbaycan-Türkiyə böyük üçbucağında baş verən münasibətlər, yaranan müttəfiqlik xüsusi əhəmiyyət kəsb etməkdədir.

Xatırlayırsınızsa, bir neçə ay öncə hər üç ölkənin XİN rəhbərlərinin İslamabadda üçtərəfli görüşü keçirildi. Bu mühüm görüşlər davam etdiriləcək. Belə vacib təmaslar, XİN rəhbərləri səviyyəsində olan görüşlərdə hər üç ölkənin təhlükəsizliyi, ortaq maraqları ilə bağlı yeni diplomatik strategiyanın gəlişdirilməsi və milli maraqların müdafiəsinə yönləndirilməsi məsələləri müzakirə olunur. Ona görə də, Pakistan hər zaman bizə dost, qardaş ölkə kimi qalacaq. Hərbi sahədə əməkdaşlığın bundan sonra da sıx şəkildə davam etdirilməsi, bu əməkdaşlığın daha da yüksək səviyyəyə çatdırılması proqnozlaşdırılır ki, bütün bunlar da Pakistan-Azərbaycan münasibətlərində yeni tarixi mərhələni şərtləndirir”.




## Azərbaycan XİN-dən Yunanıstana həmrəylik jesti

***Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) Yunanıstanda baş vermiş güclü zəlzələ ilə bağlı bu ölkəyə həmrəyliyini ifadə edib.***

"Unikal" xəbər verir ki, bu barədə XİN-in "Tvitter" səhifəsində məlumat paylaşılıb.

"Yunanıstanın mərkəzi hissəsini vuran güclü zəlzələdən sonra Yunanıstanla həmrəyliyimizi bildiririk", - paylaşımda deyilir.

Xatırladaq ki, dünən Yunanıstanda 6,2 bal gücündə zəlzələ olub.

## İsrail səfiri qazilərimizə baş çəkdi

***İsrailin Azərbaycandakı səfiri Corc Dik akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzini ziyarət edib.***

Bu barədə İsrail səfirliyinin "Facebook" səhifəsində məlumat paylaşılıb. Səfir bildirib ki, Azərbaycanda olan israilli həkimlər, tibb bacıları və texniklər 150-dən çox qazini müalicə ediblər.

"İsrail həkimlərindən biri ilə danışdım. O dedi ki, bu müddət ərzində burada İsrail klinikalarında 6 ayda icra etdiyi əməliyyatlardan daha çox əməliyyat edib. Məhz bu, bizim iş birliyimizin ruhudur. Bu, İsrail ilə Azərbaycan arasındakı dostluğun ruhudur. Azərbaycandakı insanların sağlamlığını bərpa etmələrinə, özlərinə inamın, qabiliyyətlərinin geri qayıtmasına və Azərbaycanda - öz vətənlərində yaxşı, normal və layiq olduqları həyat yaşamalarına kömək etmək istəyirik. İnanıram ki, bu ölkələrimiz arasında dostluğun əlamətidir. İnanıram ki, dostluğumuz gələcəkdə daha da inkişaf edəcək və çiçəklənəcək", - deyə səfir vurğulayıb.

## Parlamentdə gender məsələləri ilə bağlı dinləmə keçirilir

***Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsində dinləmə keçirilir.***

"Unikal" xəbər verir ki, dinləmə "Gender (kişi və qadınların) bərabərliyinin təminatları" haqqında Qanunun icra vəziyyəti: imkan və çətinliklər" mövzusundadır.

## Bakı sakinləri bir ayda ərzağa 882 milyon xərcləyib

***2021-ci ilin yanvar ayında Bakının ticarət dövriyyəsinin həcmi 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 0,6% azalaraq 1 757,4 mln. manat olub.***

"Unikal"ın məlumatına görə, bu barədə Bakı Şəhər Statistika İdarəsinin açıqlamasında deyilir.

Qeyd olunub ki, ticarət şəbəkəsində satılmış ərzaq məhsulları, içkilər və tütün məmulatlarının dəyəri əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 3,8% artaraq 882,4 mln. manata, qeyri-ərzaq məhsullarının həcmi isə 4,5% azalaraq 875 mln. manata bərabər olub. İstehlak məhsullarının 33,7%-i hüquqi şəxs statuslu müəssisələrdə, 55,5%-i fərdi sahibkarlara məxsus ticarət obyektlərində, 10,8%-i isə paytaxtın məhsul bazarlarında satılıb.

# Keçmiş deputat olan rektor bankını dirçəldir

## Əhməd Vəliyevin ailə üzvlərinə məxsus bank böyüməyə başlayıb

***Sabiq deputat, eyni zamanda "Odlar Yurdu" Universitetinin sahibi və rektoru Əhməd Vəliyevin ailə üzvlərinə məxsus olan "Muğanbank" ASC böyüməyə başlayıb. Belə ki, bu il fevral ayının sonuna "Muğanbank" ASC-nin müştərilərə verilmiş kredit portfeli 2020-ci il ilə müqayisədə 11 milyon 113 min manat artaraq, 347 milyon 59 min manat təşkil edib.***

Ötən il isə həmin rəqəm 335 milyon 946 min manat təşkil etmişdi.

Bankın yaydığı məlumata görə, "Muğanbank"ın cəmi aktivləri 2020-ci ilin sonundakı 590 milyon 906,22 min manatdan 12 milyon 410,59 min manat artaraq, cari ilin fevral ayının sonuna 603 milyon 316,81 min manata yüksəlmişdir.

2021-ci ildə "Muğanbank" ASC yüksək Ani Likvidlik Əmsalı göstəricisi nümayiş etdirmişdir. Belə ki, müvafiq əmsal 2020-ci ilin sonunda 56.85%-dən 2021-ci il fevral ayının sonuna 81.14%-ə yüksəlmişdir ki, bu da bankın likvidliyinin adekvat səviyyədə olmasını göstərir.

Dövr ərzində bankın məcmu kapitalında da artım müşahidə olunub. Onun məcmu kapitalı 2020-ci il dekabr ayının sonuna 91 milyon 696,99 min manat təşkil edib. 2021-ci il fevral ayının sonuna olan vəziyyətə isə bu göstərici 2 milyon 354,33 min manat artaraq 94 milyon 51,32 min manata çatıb.

"Muğanbank" ASC ötən ili 707,44 min manat xalis mənfəətlə başa vurmuşdu. 2021-ci ilin fevral ayının göstəricisinə əsasən bankın xalis mənfəəti 2 milyon 52,67 min manat təşkil edib. Bu isə ötən ilin sonu ilə müqayisədə 1 milyon 345.23 min manat çoxdur.

Qeyd edək ki, son illərdə "Muğanbank"ın maliyyə göstəricilərinin ürəkaçan olmadığına dair məlumatlar yayılırdı. Hətta ötən ilin ortalarında "Muğanbank"ın 2020-ci ilin birinci yarısının 1.9 milyon manat məbləğində zərərlə başa vurduğu, aktivlərinin ilin əvvəli ilə müqayisədə 69.029 milyon manat, xalis kredit portfelinin isə təxminən 9.2 milyon manat azalaraq 348.316 milyon manata düşdüyü bildirilirdi. Bildirilirdi ki, bank mümkün zərərlər üçün 7.9 milyon məqsədli ehtiyat yaratmağa məcbur olub.



Həmin vaxt maliyyə göstəricilərinin təhlili onu deməyə əsas verirdi ki, 2020-ci ilin əvvəlindən müştərilər bankdan 99.3 milyon manat çıxarıb. Depozit axını həm fiziki, həm də hüquqi şəxslər üzrə qeydə alınıb. "Bankın nizamnamə kapitalı 102.5 milyon manat olsa da, məcmu kapitalı mənfi zonaya yuvarlanıb. Belə ki, məcmu kapital minimal olaraq 50 milyon manat olmalı olduğu halda - 694 manatdır. Başqa sözlə, bank fəaliyyətini davam etdirə bilməsi üçün azı 50,694 milyon manata ehtiyacı var" - həmin vaxt ölkənin iqtisadi sahə üzrə ixtisaslaşan internet resursları bildirirdilər.

"Muğanbank"ın bağlanma riski ilə üz-üzə olduğuna dair iddialar 2019-cu ildə də meydana çıxmışdı. O zaman iddia olunurdu ki, bu bankın faiz gəlirlərinin ötən illə müqayisədə azalması bağlana biləcəyini aktuallaşdırır. Lakin bəzi iqtisadçı ekspertlər məsələyə fərqli yanaşmış və bildirmişdilər ki, 2015-ci ildəki devalvasiyalardan əvvəlki səviyyədən söhbət getməsə də, "Muğanbank" faktiki zərərdən çıxa bilib. "Düzdür, bu bankın adı tez-tez bağlanma ehtimalı olan banklar sırasında çəkilir. Ancaq bankın məcmu kapitalı hazırda 50 milyonluq məcmu kapitaldan kifayət qədər yüksəkdir, 82 milyon manatdır. Bank dövlətin ayırdığı kompensasiya ilə problemli kredit məsələsini də həll edəcək və bununla da vəziyyətini daha da yaxşılaşdıracaq" - onlar vurğulayırdılar.

"Muğanbank"ın yeni ilin ilk 2 ayını ciddi məbləğdə xalis mənfəətlə başa vurması bu ASC-nin vəziyyətini tədricən düzəltdiyi və bağlanma riski ilə bağlı uzun müddətdir ortaya atılan iddiaların həqiqəti əks etdirmədiyi barədə mülahizə irəli sürməyə imkan verir. Lakin qarşıdakı dövrün özü ilə nə gətirəcəyini proqnozlaşdırmaq mümkün deyil.

Sonda məlumat üçün qeyd edək ki, "Oxygen" klinikası, "Odlar Yurdu" universiteti və bir çox şirkətləri olan Əhməd Vəliyevin nəzarətindəki bankın səhmdarları onun ailə üzvləridir: Mehdiyev Elmir Maqbet oğlu (63,50%, Əhməd Vəliyevin kürəkəni), Vəliyeva Vəfa Əhməd qızı (12,05%, Əhməd Vəliyevin qızı), Mehdiyev Maqbet Rəhim oğlu (13,10%, Əhməd Vəliyevin qudası, Tibb Universitetinin dosenti), Mehdiyeva Fəridə Cahandar qızı (11.35%, Əhməd Vəliyevin qudası).

***Toğrul Əliyev***

# Mədət Quliyev Pakistanın Baş Qərargah rəisi ilə görüşdü

***Müdafiə sənayesi naziri Mədət Quliyev bu gün Azərbaycanda rəsmi səfərdə olan Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri, general Nadim Razanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

Müdafiə Sənayesi Nazirliyindən "Unikal"a verilən məlumata görə, görüşdə Azərbaycan və Pakistan arasında hərbi-texniki sahədə əlaqələrin cari vəziyyəti və gələcək əməkdaşlıq perspektivləri müzakirə edilib.



Müdafiə Sənayesi Nazirliyinin Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin şəxsi təşəbbüsü ilə 2005-ci ildə Silahlı Qüvvələrimizin döyüş hazırlığının daim yüksək səviyyədə saxlanması məqsədilə yaradıldığını qonaqların diqqətinə çatdıran Mədət Quliyev Azərbaycanın 44 günlük Vətən müharibəsində əldə etdiyi böyük Zəfərdən söz açıb. Pakistanın Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda apardığı haqlı mübarizədə daim xalqımızın yanında olduğunu vurğulayan nazir dost ölkənin siyasi, mənəvi dəstəyini və qəti mövqeyini yüksək qiymətləndirib. Qonaqlar, həmçinin, Ermənistanın işğalı nəticəsində Azərbaycana vurulmuş maddi və mənəvi zərər barədə məlumatlandırılıblar. Bildirilib ki, torpaqlarımızın 30 ilə yaxın işğal altında qalması həmin bölgələrin acınacaqlı vəziyyətə düşməsi, mülki və təsərrüfat obyektləri ilə yanaşı, Azərbaycanın misilsiz mədəniyyət abidələrinin də məhv edilməsi, ən əsası isə yüz minlərlə azərbaycanlının doğma yurd-yuvasından didərgin düşməsi ilə nəticələnib.

Öz növbəsində, general Nadim Raza Azərbaycan və Pakistan arasında əlaqələrin inkişafı naminə səylərini bundan sonra da əsirgəməyəcəyini bildirib, iki ölkə arasında əlaqələrin dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu və tərəflər üçün bundan sonra da qarşılıqlı faydalı olacağını vurğulayıb.

Nümayəndə heyətinin tərkibində yer alan Pakistan İslam Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Bilal Yaheen Azərbaycan və Pakistan arasında siyasi və digər sahələrdə, o cümlədən hərbi sahədə əməkdaşlığın inkişafı istiqamətində səylərin birləşdiriləcəyindən və bu əlaqələrin dünyada sülhün bərqərar olunması işinə böyük töhfə verəcəyindən əminliyini bildirib.

# YAP-ın növbədənkənar qurultayından sabiq məmurlarla bağlı ilginc gözləntilər...

## Bir çox keçmiş yüksək vəzifəli şəxslərin hakim partiyanın rəhbər orqanlarından da kənarlaşdırılacağı iddia edilir

***Bu gün Hakim Yeni Azərbaycan Partiyasının (YAP) növbədənkənar qurultayı keçiriləcək. Sonuncu - VI qurultayı 2018-ci ilin fevralın 8-də baş tutan hakim partiyanın növbədənkənar qurultayında ciddi qərarların qəbul ediləcəyi gözlənilir. Söhbət ilk növbədə partiya rəhbərliyində önəmli dəyişikliklərdən gedir. Belə ki, YAP sədri müavinlərindən bəzilərinin, eləcə də Siyasi Şura üzvlərinin bir çoxunun əvəzlənəcəyi gözlənilir.***




"Unikal"ın əldə etdiyi məlumata görə, ölkədə son zamanlar aparılan genişmiqyaslı islahatlarla və bu islahatlar dalğasının tələbi kimi ortaya çıxan çağırışlarla ayaqlaşmaq məqsədi daşıyan qurultayda hakim partiyanın üç sədr müavininin əvəzlənməsi şübhə doğurmur. Bunlardan biri Qaçqın və Məcburi Köçkünlərin İşi üzrə Dövlət Komitəsinin sabiq sədri və Baş nazirin keçmiş müavini Əli Həsənovdur. Bakı Şəhər İcra Hakimiyyətinin eks başçısı və Baş nazirin daha bir sabiq müavini Hacıbala Abutalıbovun da sədr müavinliyindən kənarlaşdırılacağı bildirilir.

Həmçinin AMEA-nın sabiq prezidenti, hazırda Akademiyanın Geologiya İnstitutunun direktoru olan 87 yaşlı Akif Əlizadə də hakim partiyanın sədr müavini olaraq əvəzlənəcək.

Beləliklə, YAP sədri müavinlərindən yalnız Əli Əhmədovun (eyni zamanda Baş nazirin müavini və partiyanın icra katibi) öz vəzifəsində qalacağı gözlənilir.

Bundan başqa, YAP Siyasi Şurası üzvlərinin bir çoxu əvəzlənəcək. Onların az qala hamısı sabiq yüksək vəzifəli şəxslərdir. Belə ki, keçmiş kənd təsərrüfatı naziri və sabiq Baş nazir müavini İsmət Abbasov, sabiq Ekologiya və Təbii Sərvətlər naziri Hüseynqulu Bağırov, Prezidenti Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin keçmiş müdiri Əli Həsənovun yeni formalaşdırılacaq Siyasi Şura üzvləri arasında yer almayacağı iddia olunur.

Həmçinin iddia edilir ki, Prezident Administrasiyasının humanitar siyasət məsələləri şöbəsinin sabiq müdiri Fatma Abdullazadə, Azərbaycan Respublikası Prezidenti Katibliyinin sabiq rəisi, 81 yaşlı Dilarə Seyidzadə, AzTv-nin sabiq rəhbəri Nizami Xudiyev, Prezidentinin Administrasiyasının Siyasi Təhlil və İnformasiya Təminatı şöbəsinin (2007-2014) və Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Elektron İdarəçiliyin İnkişafı şöbəsinin (2014-2016) sabiq müdiri Elnur Aslanov da hakim partiyanın yeni Siyasi Şura üzvləri arasında yer almayacaqlar.

BDU-nin sabiq rektoru və keçmiş millət vəkili Abel Məhərrəmovla eks deputat Arif Rəhimzadənin də adları hakim partiyanın yeni Siyasi Şurasından kənarda qalacaq üzvlər arasında hallanır. Onlarla bərabər sabiq Təhsil naziri Misir Mərdanovun (hazırda AMEA Riyaziyyat və Mexanika İnstitutunun direktoru) və keçmiş millət vəkili Yaqub Mahmudovun (hazırda AMEA Tarix İnstitutunun direktoru), eləcə də eks deputatlar - Hadı Rəcəbli ilə Mirkazım Kazımovun da (hazırda "Qasid" firmasının prezidenti) yeni formalaşdırılacaq Siyasi Şuradan kənarda qalacaqlarına dair iddialar dolaşır.

Yuxarıda adları çəkilənlərin bir çoxu eyni zamanda YAP-ın İdarə Heyətinin üzvləridir. Bu isə o deməkdir ki, onlar partiyanın bu orqanından da kənarda qalacaqlar. Söhbət Hacıbala Abutalıbov, Akif Əlizadə, hər iki Əli Həsənov, Nizami Xudiyev, Abel Məhərrəmov və Arif Rəhimzadədən gedir.

Bildirilir ki, hakim partiyanın rəhbər orqanlarında əsasən gənc, enerjili kadrlara üstünlük veriləcək, bəzi millət vəkilləri və nazirlər təmsil olunacaq.

Əlbəttə, bütün bunlar iddialardır, gözləntilərdir. Onların həqiqəti nə qədər əks etdirdiyini, reallaşıb-reallaşmayacağını bugünkü qurultayın sonunda görəcəyik.

Hələliksə yalnız onu deyək ki, ekspertlərin fikrincə, hakim partiyanın rəhbər orqanlarında gözlənilən dəyişikliklərə təbii yanaşmaq lazımdır. Son illərdə iqtidar komandasında önəmli kadr dəyişikliklərinə diqqət çəkən, siyasi idarəetmədə zamanın ruhuna və çağırışına uyğun olan islahatları nəzərə alan ekspertlər hesab edir ki, YAP-ın bu prosesdən kənarda qalmasını gözləmək sadəlövhlük olardı. Siyasi analitiklərin qənaətinə görə, hakim partiyanın növbədənkənar qurultayını və həmin qurultayda qəbul ediləcək qərarları məhz bu müstəvidə dəyərləndirmək lazımdır.

***Elvin Rüstəmov***

# "Şəhidi ərazidən çıxarıb, sürünə-sürünə 40 km yol gəldim" - Qarabağ qazisi

***44 günlük Vətən Müharibəsinin qəhrəmanlarından biri də Sumqayıt şəhər sakini, 35 yaşlı Ruslan Rzayevdir. Müharibə başlayanadək tikintidə fəhlə işləyən Ruslan ordu sıralarına könüllü qoşularaq döyüşə yollanıb.***

R.Rzayev döyüş xatirələrini Azvision.az -la bölüşərək deyib: "Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Sumqayıt şəhər bölməsindən çağırış gəldi. Vətən torpaqlarının azad edilməsi uğrunda döyüşlərdə iştirak edəcəyim üçün çox sevinirdim. Oktyabrın 1-də sevinclə döyüş bölgəsinə yollandım. Müharibə dövründə sanitar təlimatçı idim. Oktyabrın 14-ə qədər Füzuli, Şuşa istiqamətində gedən döyüşlərdə yaralı və şəhid çıxarırdım. Çətin və ağır döyüşlər idi. Oktyabrın 14-ü Füzuli- Şuşa istiqamətində gedən döyüşlərdə yaralı çıxarmaq üçün getmişdim. Ərazini dəqiq tanımadığım və tək olduğum üçün neytrala çıxdım. Onda 3 güllə yarası aldım. Biri qoruyucu jiletdən, biri çiynimdən, biri də kürəyimdən dəymişdi. Orada bir şəhidi çıxarıb təhvil vermişdim. Vurulduğum yerdən sanitar maşınları olan yerə qədər 40 km məsafə var idi. Orada hündür təpəlik vardı, maşınlar onun arxasında idi. Yaralı halda ikinci şəhidi çıxarırdım. Olduğum əraziyə dayanmadan mərmi atılırdı. Həmin təpəliyə şəhidi çatdırana qədər 9 mərmi atılmışdı. Onların birinin də mənə dəyməməyi möcüzə idi. O vəziyyətdə şəhidi ərazidən çıxarmağım çətin idi. Çünki dayanmadan güllə atırdılar. Daldalanmaq üçün yer yox idi. Məqsədim bu idi ki, şəhidi oradan çıxardım, bir ananın gözü yolda qalmasın. Şəhidlə özümü qoruyub sürünə-sürünə təpəliyə qədər 40 km yolu gəldim. Həmin vaxtı yenidən yaralandım".

R.Rzayev 40 dəqiqə ərzində Əhmədbəyli xəstəxanasında qaldığını, daha sonra təcili tibbi yardım maşını ilə Bakıya hərbi hospitala çatdırıldığını qeyd edib.

"Qanaxmam çox idi. 4 qabırğam qırılmışdı, şəhidi çıxaran vaxtı 2 qabırğam da qırılmışdı, mənə dəhşət ağrı verirdi. Həkimlərin dediyinə görə, çoxlu qaxnamam olmuşdu. Hazırda



Sumqayıt reabilitasiya mərkəzində müalicə olunuram, fizioterapiya edirlər. Burada olan bütün xidmətlərdən yararlanıram, həkimlər bizə hörmətlə yanaşır, can yandırırlar. Sumqayıtda bir sıra dövlət xəstəxanalarda müalicə olmuşam. Biz orada vəzifə borcumuzu yerinə yetirdik. Bizə qarşılıqlı münasibət gözəldir".




# Bu il Bakıda daha 2 "ASAN xidmət" açılacaq

***Hazırda 20 "ASAN xidmət" mərkəzi fəaliyyət göstərir. Onlardan 5-i Bakı şəhərində olmaqla, digərləri Sumqayıt, Gəncə, Sabirabad, Bərdə, Qəbələ, Masallı, Quba, Mingəçevir, İmişli, Şəki, Şamaxı, Kürdəmir, Tovuz, Ağcabədi və Balakəndədir.***

2021-ci ildə Bakıda daha 2 "ASAN xidmət" və 1 "ASAN Kommunal" mərkəzinin açılışı planlaşdırılır.

Bakı, Gəncə və Sumqayıtda növbəti, Lənkəran, Salyan və Naxçıvanda isə ilk "ASAN xidmət" mərkəzləri inşa olunur.

Bu günədək "ASAN xidmət" mərkəzlərinə 7.300.000-dən çox vətəndaşın 42 milyondan artıq müraciəti daxil olub. "ASAN xidmət" mərkəzlərində müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən ümumilikdə 300-dən çox xidmət göstərilir. "ASAN Kommunal" mərkəzlərində isə "Azərişıq" ASC, "Azərsu" ASC və "Azəriqaz" İB tərəfindən 55 növ xidmət göstərilir.

Keçirilən rəy sorğularına əsasən vətəndaşların xidmətlərdən məmnunluq əmsalı 99,5 % təşkil edir.

Tovuz "ASAN Həyat" kompleksinin açılışı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə 4 mart 2020-ci il tarixində baş tutub. Kompleksin ərazisində "ASAN xidmət" mərkəzi, "ABAD" mərkəzi, "ABAD Factory" Bitkilərin Emalı və Qurudulması Fabriki, Kinoklub, "ABAD məktəb" təlim mərkəzi, Hərbi Vətənpərvərlik Mərkəzi, ASAN Kafe fəaliyyət göstərir.

Tovuz regional "ASAN xidmət" mərkəzi ölkə üzrə ərazi məhdudiyyəti olmadan bütün vətəndaşlara xidmət göstərir. Mərkəzin fəaliyyəti operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət prinsiplərinə və vətəndaş rahatlığına hesablanıb. Fəaliyyət göstərdiyi müddət ərzində 210 minə yaxın vətəndaş müraciəti qeydə alınıb. Mərkəzdə müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən 300-dən çox xidmət həyata keçirilir.

"ABAD Factory" Bitkilərin Emalı və Qurudulması Fabrikində rəqabətqabiliyyətli, ixracyönümlü 80 adda məhsulun istehsalı nəzərdə tutulur.

Kompleksdə fəaliyyət göstərən Kinoklubda hər birinin 58 nəfər tutumu olan 2 ədəd kinozal var.

Vətəndaşların istirahəti üçün nəzərdə tutulmuş ASAN kafenin tutumu 64 nəfərdir. Bundan başqa kafedə müxtəlif oyun avadanlıqları olan uşaq əyləncə guşəsi də var.

Hərbi Vətənpərvərlik Mərkəzində gənclər hərb tariximiz, ordu quruculuğu barədə geniş məlumatlar almaqla yanaşı, ibtidai hərbi hazırlıq təlimlərində iştirak edə bilirlər.Kompleksin həyətində vətəndaşların asudə vaxtlarını xoş keçirmələri üçün park salınmışdır. Parkın ərazisində fəvvarə, uşaq əyləncə guşəsi, konsert meydançası və açıq havada 40 yerlik kafe var.

***Zaurə***

# Nazim İbrahimov Bayılda böyük tikintiyə başlayıb

## Sabiq komitə sədri 11 il əvvəl aldığı göz xəstəxanası və stadionun yerində nə inşa edir?

***Diasporla İş üzrə Dövlət Komitəsinin sabiq sədri Nazim İbrahimovdan yeni xəbər var. Belə ki, sabiq komitə sədri Bakının Səbail rayonunda, Bayıl qəsəbəsi ərazisində nəhəng tikinti işlərinə başlayıb.***

Belə ki, 203 saylı orta məktəbin stadionunu alan N.İbrahimov bir müddətdir orada tikinti işləri aparır. Hətta bir müddət əvvəl tikinti prosesi nəticəsində ərazidən keçən yol çökərək bərbad vəziyyətə düşüb.

Qeyd edək ki, hələ 11 il öncə N.İbrahimovun Bayılda bir çox əraziləri aldığı barədə məlumat yayılıb. Onun Səbail rayon Mühafizə Polisi İdarəsinin keçmiş inzibati binasını alaraq yerində bina tikdirdiyi bildirilirdi. Bundan başqa, Bayıl qəsəbəsindəki bazarın yaxınlığında, “Akapen” deyilən yerdə neftlə çirklənmiş böyük bir gölün qurudulmasına başlandığı deyilirdi.

Elə həmin vaxt N.İbrahimovun 203 saylı orta məktəbin stadionunun və onun yaxınlığında yerləşən göz xəstəxanasını da aldığı bildirilirdi. İddia edilirdi ki, o, burada otel inşa etdirəcək. Dediyimiz kimi, uzun fasilədən sonra artıq tikinti prosesinə start verilib.

Onu da vurğulamaq yerinə düşər ki, N.İbrahimovun geniş binzes şəbəkəsinin olduğu kimsəyə sirr deyil. Bu biznesin



mühüm istiqamətlərindən biri isə otelçilikdir.

Eyni zamanda onu Bayıla bağlayan köklər də yetərincə dərindədir. Belə ki, ölkə mediası bir neçə il əvvəl Bayıl yamacındakı çoxsaylı villaların məhz Nazim İbrahimovun yaxın adamları tərəfindən tikilib satılması barədə yazırdı.

Daha bir maraqlı məqam: 2019-cu ilin ilin komitə sədrliyindən kənarlaşdırılan N.İbrahimovla bağlı bu qərarın verilməsinə əsas səbəb kimi yol verdiyi korrupsiya əməlləri göstərilirdi. Həmin vaxt yüksək səviyyədə verilən rəsmi açıqlamalarda da qeyd olunurdu ki, onun rəhbəri olduğu komitədə müəyyən beynəlxalq tədbirlər keçirilib, amma konkret işlər görülməyib. Müəyyən tədbirlərin həyata keçirilməsində dövlət tərəfindən ayrılan maliyyə yardımları da öz ünvanına çatmayıb.

Bu açıqlamalardan sonra ictimaiyyətdə və mətbuatda yeni gözləntilər meydana çıxdı: təxminlər bu yöndə idi ki, N.İbrahimov sadəcə postunu itirməklə vəziyyətdən çıxa bilməyəcək, onun haqqında ”dövlət tərəfindən ayrılan maliyyə yardımları öz ünvanına çatmadığı” üçün korrupsiya ittihamı ilə cinayət işi başlanacaq və proses həbsə qədər uzanacaq.

Ancaq aradan illər keçib və sabiq ”diaspora şefi” ilə hüquqi müstəvidə heç bir haqq-hesab çəkilməyib. Bunun səbəbini və ya səbəblərini isə izah etmək çox çətindir. Hələlik gəlinən nöqtə ondan ibarətdir ki, N.İbrahimov ölkədən kənardakı biznesi ilə yanaşı, ölkə daxilindəki biznesini də gücləndirməklə məşğuldur.

***Sənan Mirzə***

# Azərbaycanda parlamentin orduya nəzarəti məsələsi gündəmdə - Rəylər

***Milli Məclisin İnsan hüquqları komitəsinin sədri, Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin rəhbəri Zahid Oruc ordu quruculuğu və Silahlı Qüvvələrə nəzarət mexanizmləri ilə bağlı bir sıra təkliflər irəli sürüb. Ümumi fikir belədir ki, parlament orduya nəzarət etməlidir.***

Bəs mütəxəssislər bu təklifi necə dəyərləndirirlər, parlament orduya nəzarət etməlidirmi? Belə bir dəyişiklik reallaşarsa effektiv olacaqmı?

Qarabağ qazisi, “Qarabağ qaziləri” İctimai Birliyinin mətbuat xidmətinin rəhbəri Rey Kərimoğlu AFN-ə açıqlamasında millət vəkilinin bu mövzuda açıqlaması ilə tanış olduğunu bildirdi: “Əslində o, bu proseslərdən xəbərdardır, eyni zamanda orduda son zamanlar baş verən narazılıqlarla bağlı informasiyaya malikdir. Bu günlərdə Sosial Tədqiqatlar Mərkəzində, 30-a yaxın müxtəlif dövrün qaziləri, şəhid ailələri, müharibə iştirakçılarının, mənim də iştirak etdiyim bir toplantı oldu. Bu qurumun bir funksiyası da ondan ibarətdir ki, ictimaiyyətdə baş verən həqiqəti öyrənib ölkə başçısına çatdırsın. Həmin görüş çox faydalı oldu. Ümid edirəm bu görüşlər davam edəcək. Çünki müzakirə olunan məsələlər bütövlükdə cəmiyyətimizə, ordumuza, dövlətimizə, xalqımıza vacib olan məsələdir”. R.Kərimoğlunun fikrincə, ordu xalqın ən həssas yeridir, orduda baş verən ən adi hadisə, proses də gizli qala bilmir: “Zaman-zaman Azərbaycan ordusunun içərisində neqativ hallarla bağlı mətbuatda informasiyalar yayılıb, dövlət başçısına müraciətlər olub. Hətta müraciətlər əsasında ötən ilin iyul ayında Baş Prokurorluq yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsində Müdafiə Nazirliyinin vəzifəli şəxslərinə yönəlik cinayət işi başlanmışdı. Bununla bağlı mənim əlimdə iki rəsmi sənəd var. Bu proseslər ölkə başçısının diqqətindədir, məlumatlıdırlar. Z.Orucun da qaldırdığı məsələ, narahatlıq da buradan yaranır. Ən düzgün yol nədir? Orduya ictimai, o cümlədən parlament nəzarəti təmin edilməlidir. Əgər bu gün ölkənin hakimiyyətinin bir qolu orduya nəzarət edə bilmirsə, bu yaxşı hal deyil. Çünki ölkənin seçkili orqanı parlamentdir və bu qurum orduya nəzarəti həyata keçirməlidir. İstədikləri sorğuya cavab almalıdırlar, istədikləri vaxt ordu rəhbərlərini parlamentə dəvət edib hesabatlarını dinləməlidirlər. Bunların heç biri baş vermir. Uzun illər Azərbaycan ordusunda korrupsiya və rüşvət faktları hər gün mediada yayılıb. Prokurorluq orqanları müvafiq tədbirlər görüb. Ordu rəhbərliyində təmsil olunan şəxslər, konkret olaraq, Nəcməddin Sadıqov 25 il ordunu məhv edib, onun kökünü qazıyıb. Bu adamlar cəzasız qalıb. Təkcə Nəcməddin Sadıqov deyil, onun general rütbəsi verdirdiyi adamlar var, o cümlədən bacısı oğluna general-mayor, əlaltılarına rütbələr verdirmişdi. Bunlar hamısı araşdırılmalıdır, müvafiq tədbirlər görülməlidir”. Nəticə olaraq Z.Orucun fikrini dəstəklədiyini deyən R.Kərimoğlunun sözlərinə görə, bunlar hamısı Ali baş komandana, dövlətimizə, millətimizə xeyirlidir, vacibdir: “O cümlədən, ordumuzun inkişafına böyük təkan verəcək. Əgər bu deyilən məsələlər, ictimai, parlament nəzarəti həyata keçirilməyə başlasa, çox gözəl olar. Sonda bir məsələni də vurğulayım ki, ölkə başçısının nazirliklərdə ictimai şuranın yaradılması ilə bağlı sərəncamı var. Müdafiə



Nazirliyində niyə ictimai şura yaradılmır? Bu sırf qanunsuzluqdur”.

Hərbi ekspert Ədalət Verdiyev də açıqlamasında bu fikirlə razılaşdığını bildirdi: “Zahid Orucun nəzarətlə bağlı səsləndirdiyi təkliflər ola bilər ki, effektiv bir nəticəyə gətirib çıxarsın. İstənilən qurum, o cümlədən Silahlı Qüvvələrin bütün növləri, həm də çağırış komissiyası necə ki, digər mülki qurumlar yoxlamaya, nəzarətə məruz qalır, bunların da yoxlanması, nəzarət altında olması müsbət bir nəticə verə bilər. Burada mənfi heç nə görmürəm. İstənilən quruma parlament, yaxud digər üst qurum tərəfindən nəzarət edilməsi müsbət bir təklifdir. Düşünürəm ki, bu, ölkə rəhbərliyi və parlament səviyyəsində müzakirə olunub qərar verilsi bir məsələdir. İstənilən halda bu təklifi müsbət dəyərləndirirəm”.

***Nigar***



# Əli Əsədovdan qəbul imtahanları ilə bağlı qərar

***Nazirlər Kabineti “Azərbaycan Respublikasının orta ixtisas təhsili müəssisələrinə ümumi orta təhsil bazasında tələbə qəbulu Qaydaları”nda dəyişiklik edib.***

Unikal.org xəbər verir ki, bununla bağlı baş nazir Əli Əsədov qərar imzalayıb.

Qərara əsasən, epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin qüvvədə olduğu müddətdə qəbul imtahanı Mərkəz tərəfindən mərkəzləşdirilmiş qaydada bir mərhələdə keçiriləcək.

Qəbul imtahanında abituriyentlərə Azərbaycan və ya rus dili fənnindən 30, xarici dil fənnindən 30 və riyaziyyat fənnindən 25 olmaqla, ümumilikdə 85 tapşırıq təqdim ediləcək.

Bu mərhələdə abituriyentlərin toplaya biləcəyi maksimal bal hər fənn üzrə 100 bal olmaqla, cəmi 300 baldır. İmtahanın davametmə müddəti 3 saatdır.

# Tələbələrin köçürülməsi üzrə nəticələr açıqlandı

***Tələbələrin ölkə daxilində və xaricdə yerləşən ali təhsil müəssisələrindən köçürülməsi, yaxud bir ixtisasdan digərinə və təhsilalma formasının dəyişdirilməsi, eləcə də ölkəmizdə yerləşən orta ixtisas təhsili müəssisələrində, magistratura səviyyəsində təhsilalanların köçürülməsi üzrə nəticələr məlum olub.***

Unikal.org xəbər verir ki, Təhsil Nazirliyindən verilən məlumata görə, transfer.edu.az portalı vasitəsi ilə ali təhsil müəssisələrindən köçürülmək üçün ümumilikdə 2 721 nəfər müraciət edib. Onlardan 1 856 nəfərin müraciəti müsbət cavablandırılıb. Ali təhsil müəssisələrindən köçürülməsinə icazə verilən 1 856 nəfərdən 1 777-ni bakalavriatura, 20-ni magistratura səviyyəsi üzrə, 59-nu isə xarici ali təhsil müəssisələrindən köçürülənlər təşkil edir.

Qeyd edək ki, transfer.edu.az portalı 2016-cı ildə tələbələrin köçürülmə prosesinin sadələşdirilməsi məqsədi ilə istifadəyə verilib. Tələbələrin bir ali təhsil müəssisəsindən digər ali təhsil müəssisəsinə, yaxud bir ixtisasdan digərinə köçürülməsi Təhsil Nazirliyinin razılığı ilə qış və yay tətili dövründə həyata keçirilir.

# Ermənistanda xaotik proseslər gedir

## Politoloq Tofiq Abbasov: "Çevriliş, inqilab yolu ilə hakimiyyət dəyişikliyi ölkədə daha ciddi fəsadlara yol aça bilər"



***Postsovet məkanında diktatura və demokratiyanın, habelə hibrid rejimlərin qurulması ilə nəticələnən müxtəlif siyasi proseslər, rəngli və ağ-qara inqilablar, vətəndaş və dövlətlərarası müharibələr, hətta saray çevrilişləri və hakimiyyətin miras yolu ilə ötürülməsi belə baş verib. Burada yalnız bir şey olmayıb: klassik hərbi çevriliş.***

Əgər ordu Paşinyanı devirərək yeni seçkilərə qədər müvəqqəti bir hökumət təyin etsə, bu, postsovet məkanında ilk hərbi idarəetmə olacaqdır. Belədə Ermənistan, dövlətinə ordunun nəzarət etdiyi Yaxın Şərq və Cənubi Asiya ölkələri sırasına daxil olacaq. Bu isə, həm də, ordunu idarəetmədən kənarda saxlayan sovet ənənəsindən uzaqlaşmaq demək olacaq.

Bu yenilik baş verəcəkmi? Bu ənənənin Qafqaza transferində kimlər maraqlıdır? Baş verərsə, Ermənistanda, regionda hansı dəyişikliklərə səbəb ola bilər?

Politoloq Tofiq Abbasov "Unikal"a mövzu ilə açıqlamasında bildirdi ki, Ermənistanda baş verənlər mövcud və klassik idarəetmə modellərinə uyğun deyil: "Bütün bunların hamısının hibrid forması Ermənistanda özünü əcaib bir şəkildə büruzə verir. Uzun illərdirki, Ermənistan özünü bölgədə gücmərkəzi kimi təqdim etməyə çalışırdı, lakin ötən ilin sentyabr ayından başlayan proseslər göstərdi ki, Ermənistan boş bir orqanizmdir. Ökənin siyasi və hərbi qüvvələrinin qeyri-ciddi yanaşmaları sayəsində hərtərəfli böhranla üz-üzə qalıblar. Bir yandan öz aralarında münasibətlərini həll edə bilməyən siyasi qüvvələrin çəkişmələrə qatılmasını, digər tərəfdən də məğlub olmuş ordunun fəallarının bəzi siyasi qüvvələrin kölgəsindəPaşinyan hakimiyyətini devirmək cəhdini görürük. Mən qəti əminəm ki, indiki şəraitdə Paşinyan hakimiyyəti verməyərək bir müddət idarəetmədə qalacaq. Çünki onun sınaqdan çıxmış "küçələrə insanları toplamaq" silahı hələ də işlək vəziyyətdədir. Ermənistan cəmiyyəti həqiqətən də hərbi xunta rejimlərindən kifayət qədər doyub və başa düşür ki, əgər Robert Köçəryan, Serj Sarkisyan və ya onların irəli sürdüyü fiqur hakimiyyətə gələrsə, onlar yenidən köhnə, tam iflasa uğramış sistemə qayıdacaqlar. Bu, Ermənistan üçün yaxşı bir şey vəd etmir. Ona görə də indi biz Ermənistanda xaotik proseslərin getdiyini müşahidə edirik. Siyasi oliqarxiatla qarışan ordu rəhbərliyi yeni bir simbioz təşkil edərək mövcud siyasi hakimiyyəti devirməyə cəhd edirlər. Diqqətlə nəzər salsaq, görərik ki, indi hakimiyyətə iddia edənlərdən heç birinin konkret anti-böhran planları yoxdur və onlar üçün məqsəd yalnız hakimiyyətə gəlməkdir.Əlbəttə, belə olmaz, müharibədə məğlub olmuş, sosial, iqtisadi, və digər sistemləri iflic vəziyyətinə düşmüş Ermənistan üçün indiki hakimiyyət daha uyğundur. Çevriliş, inqilab yolu ilə hakimiyyət dəyişikliyi ölkədə daha ciddi fəsadlara yol aça bilər. Ən yaxşı yol böhrandan çıxaran optimal inkişaf modellərini tətbiq etməkdir.

İndiki vəziyyətdə çevrilişin baş tutacağını görmürəm, olsa-olsa, bəlkə, Paşinyana qarşı terror aktı olar və onu bu yolla aradan götürərlər. Bunu Paşinyan da çox gözəl anlayır.Buna görə o ilk növbədə özünü terrordan qorumağa çalışacaq. Bundan başqa, ölkədə onun da ciddi tərəfdarları var və xalqın əksəriyyəti onun arxasınca gedir.

Hərçənd Paşinyanın ölkədə hərbi vəziyyəti saxlaması proseslərin küçəyə keçməsinə mane ola bilmədi."Çiçəklənən Ermənistan", "İşıqlı Ermənistan" partiyaları parlament yolu ilə çevriliş etməyə cəhd etsələr də, bu alınmadı. Siyasi partiya liderləri, Paşinyanın əleyhinə olan insanlar artıq meydanlardadır.

Dövlətin təhlükəsizliyini təmin edən ordu heç bir halda siyasi proseslərə qoşulmamalıdır. Ermənistan ordusunun qərərgah rəisi başqa olmaqla, digər yüksək rütbəli zabitlərin siyasi proseslərə qoşulması böyük səhvdir.Artıq o da bəlli oldu ki, ordu Qatabağdakı məğlubiyyətə görəməsuliyyəti öz üzərindən atmaq istəyir. Düzdür, müharibə ilə bağlı qərarları siyasilər verir, amma döyüş meydanında hərbçilər iştirak edir. Odur ki, məğlubiyyət zamanı məsuliyyət ilk növbədə onların üzərinə düşür.

Buna baxmayaraq, müxalifət partiyaları da, Köçəryan da, Sarkisyan da, hərbi rəhbərlik də Paşinyanı bir ali baş komandan kimi müharibə dövründə strategiyanı düzgün seçməməkdə, müdafiəni düzgün təşkil etməməkdə vəsairədə ittiham edir. Əlbəttə,həmişə bütün cavabdehliyi həmişə uduzan adamın üzərinə yıxırlar, lakin iki il yarım hakimiyyətdə olan Paşinyanistəsəydi belə, bütün dövləti çökdürə bilməzdi. O, dövlətin çöküşü1998-ci ilin fevral ayında birinci prezident Ter-Petrosyanıhakimiyyətdən uzaqlaşdırmaqla başladı.O nəyin qurbanı oldu? Onun qurbanı oldu ki, dedi:Mən bu müharibənin sonunu görmürəm, biz birinci döyüşü udmuşuqsa,bu o demək deyilki, müharibəni udmuşuq. Azərbaycan da göstərdi ki, təmkinlə, ağılla, müdrikliklə, uzaqgörənliklə öz problemini həll eləyə biləcək və bildi.

Daxildəki Köçəryan-Sarkisyan dəstələrinin həyata keçirdikləri talançılıq siyasəti Ermənistanı bu illər ərzində çökdürən birinci səbəb olaraq sonda öz bəhrəsini verdi. Onlar öz ciblərini doldurdular, yaxın ətraflarını pulla təmin etdilər və öz maliyyə vəsaitlərini, sərvətlərinixaricə köçürtdülər. Serj Sarkisyan Amerikada, Köçəryan isə Kanadada özü üçün sığınacaq hazırlayıb. Mən belə başa düşürəm ki, 20 fevraldakı o dəbdəbəli mitinq də iflasa uğradı və Paşinyan göstərdi ki, minimal resursla çox bərkdən danışan, qışqıran, vuruşmaq istəyən müxalifəti tərkisilah edəbiləcək və etdi də. Çünki həmin müxalifəti təhrik edən başlıca qüvvə oğru və quldur "Qarabağ klanı"dır.

İndi isə ikinci, B planı kimi müxalifətin ordu rəhbərlərini bu proseslərə qatması işə düşüb ki, bu da həqiqətən çox təhlükəli bir şeydir. Əvvəla, vətəndaş müharibasinə yol açır. Digər tərəfdən, zərurət yaranarsa,bu proseslərəAzərbaycan da bu və ya digər şəkildə qatıla bilər. Qısası, bir daha deyim ki, çevrilişin uğurunu görmürəm. Əgər terror aktı olmasa,Paşinyan hələ bir müddət hakimiyyətdə qalacaq".

*Bəhruz Salmanov*



## Ermənistanda baş qərargah rəisi kimi Qasparyanı kim əvəz edə bilər? - Namizədlər

***Ermənistan mətbuatında ordunun baş qərargah rəisi Onik Qasparyanın həbs olunacağı və ya sadəcə vəzifəsi ilə vidalaşacağı təqdirdə onu kimlərin əvəz edə biləcəyi ilə bağlı versiyalar yayılıb.***

Unikal.org Ermənistan KİV-ə istinadən xəbər verir ki, hazırda 4 namizədin adı gündəmdədir və geniş müzakirə olunur.

Onlardan biri hazırda baş qərargah rəisinin müvaini olan general-mayor Andranik Makaryandır. O, baş qərargahın Paşinyanın istefası tələbi ilə verdiyi bəyanata qoşulmayan hərbçilərdəndir. Lakin bildirilir ki, A.Makaryan Qasparyanın vəzifədən kənarlaşdırılmasına razı deyil və onun yerinə keçməyi etik saymır. General yaranmış böhranın sonlanmasından sonra istefa verəcəyini açıqlayıb.

Məlumata görə, Paşinyan hakimiyyətinin bu posta digər namizədi hazırda Ermənistan Müdafiə Nazirliyində yüksək vəzifə tutan general-leytenant Calal Arutunyandır. O da məlum bəyanata qoşulmayanlardandır. Son müharibə zamanı qondarma rejimin "müdafiə naziri" olmuş hərbçi ağır yaralanmışdı və hazırda da səhhətində ciddi problemlərin qaldığı deyilir.

Üçüncü namizəd kimi Ermənistan ordusunun keçmiş baş qərargah rəisi Artak Davtyanın adı müzakirə olunur. Qeyd edilir ki, hazırki hakimiyyət ona şübhə ilə yanaşsa da, A.Davtyanın bu vəzifəyə gətirilməsi gündəmdədir.

Həmçinin Paşinyan hakimiyyətinin ordunun baş qərargah rəisi postunda separatçı rejimin "müdafiə naziri" Mikael Arzumanyanı görmək istəməsi qeyd olunur. Bildirilir ki, M.Arzumanyanın siyasi proseslərə qarışmaması və ambisiyasız kimliyi ilə seçilməsi onu namizədlərdən biri edib.

## "Hakimiyyətdəkilər ölkəni düşünsəydi, " - Koçaryan

***"Hakimiyyətdəkilər ölkəni düşünsəydi, başqalarına yol açıb gedərdilər".***

Unikal.org Ermənistan KİV-ə istinadən xəbər verir ki, bunu sabiq Ermənistan prezidenti Robert Koçaryan bunu keçirdiyi mətbuat konfransında deyib.

"Hazırki hakimiyyət ləyaqətlə danışıqlar apara bilməz. Əgər ölkəni düşünsəydilər, bunu edə bilən başqa adamlara yol açıb gedərdilər. Hazırda Paşinyan ən yüksək antireytinqə malikdir. Bütün inzibati resurslardan istifadə edərək cəmi 20 min insan toplaması bunun sübutudur", - deyə Koçaryan bildirib.

O həmçinin 10 noyabrda imzalanmış üçtərəfli bəyanatın Ermənistanın maraqlarına uyğun olmadığını düşündüyünü əlavə edib.



## Azərbaycan Qarabağda S-300 sistemlərini bu yolla məhv etdi

***Vətən Müharibəsi ilə bağlı daha bir maraqlı fakt üzə çıxıb.***

Böyük Britaniyanın "Middle East Eye" saytı adı açıqlanmayan yüksək rütbəli azərbaycanlı hərbçidən Qarabağda məhv edilən S-300 zenit-raket kompleksləri ilə bağlı açıqlama alıb.

"Azərbaycan Qarabağ Müharibəsi sırasında Sovet İttifaqının istehsal etdiyi təkmotorlu An-2 təyyarəsindən Rusiyanın "S-300" zenit-raket kompleksinin məhv edilməsi üçün pilotsuz aparat kimi istifadə edirdi".

Azərbaycanlı hərbçi An-2 təyyarələrində distant idarəetmə sistemi quraşdırıldığını açıqlayıb.

"Təyyarələr S-300 kompeksini aktivləşdirirdi və An-2 vurulduqdan sonra onu vuran sistemin koordinatları Ordumuzun arsenalındakı Harop kamikadze dronlarına ötürülürdü".

Bunun sayəsində 44 günlük döyüşlər zamanı Ermənistana məxsus 6 ədəd S-300 zenit-raket kompleksi məhv edilib.

## Dövlət Xidmətindən ikili vətəndaşlığı olan şəxslərə xəbərdarlıq

***Dövlət Miqrasiya Xidməti ikili vətəndaşlıq alan Azərbaycan vətəndaşları barədə məlumat yayıb.***

Qurumun İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Elnur Kələntərli "Unikal"a bildirib ki, başqa bir dövlətin vətəndaşlığını qəbul edən şəxslər bir ay müddətində Azərbaycan Dövlət Miqrasiya Xidmətinə və ya vətəndaşlığını aldığı dövlətdə Azərbaycan Respublikasının səfirliyi və ya konsulluğuna müraciət etməlidir: "Vətəndaş həmin qurumlara yazılı müraciət etməlidir. Bunun üçün Dövlət Miqrasiya Xidmətinin saytında ərizə və anket forması var. Vətəndaş həmin anket formasını doldurmaqla Dövlət Miqrasiya Xidmətinə göndərməlidir. Əgər həmin şəxs başqa ölkə vətəndaşlığını illər əvvəl də qəbul edibsə, bu barədə də məlumat verilməlidir".

E.Kələntərli bildirib ki, ikili vətəndaşlığı olan şəxslər Azərbaycan Respublikası tərəfindən yalnız Azərbaycan vətəndaşı kimi tanınır.

## Bu ölkə virusa yoluxanların sayına görə dünya rekordu vurdu

***Çexiya koronavirusa yoluxanların sayına görə, dünya rekordu vurub.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, hər 100 min sakinə COVID-19-a yoluxanların say nisbətinə görə, Avropa Birliyi Çexiyanın ehtiyaclarını ödəmək üçün təcili 100 min doza Pfizer vaksini göndərməyi planlaşdırır.

Prezident Zeman Çindən Sinopharm vaksini almaq üçün müraciət də edib.

# Müəllimlərin vaksinasiyası üçün 10 peyvənd məntəqəsi fəaliyyət göstərir

***Hazırda paytaxtın təhsil işçiləri üçün 10 peyvənd məntəqəsi fəaliyyət göstərir.***

"Unikal" Trend-ə istinadən bildirir ki, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin rəhbərliyi KİV nümayəndələri ilə birgə vaksinasiya prosesinin gedişini izləyib. Ümumi təhsil müəssisələrinin pedaqoji və texniki heyəti üçün nəzərdə tutulan vaksinasiya prosesinə ilkin olaraq yaşı 50 və daha yuxarı olan şəxslər cəlb olunub.

Hər mərkəz üzrə gündə (saat 09:00-dan 15:00-dək, hər saatda 20 nəfər olmaqla) təxminən 120 nəfərin peyvənd olunması nəzərdə tutulur.

"Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası"na uyğun olaraq təşkil edilmiş vaksinasiya prosesi Bakı şəhərində yerləşən ümumi təhsil məktəblərində



10 peyvənd məntəqəsində (Binəqədi rayonunda - 276, Xətai rayonunda - 56, Xəzər rayonunda -26, Suraxanı rayonunda - 84, Sabunçu rayonunda - 90, Səbail rayonunda - 239, Nərimanov rayonunda - 258, Nəsimi rayonunda - 14, Nizami rayonunda 129, Yasamal rayonunda 158 saylı tam orta məktəblər) həyata keçirilir. Vaksinasiya prosesinə paytaxt üzrə ilkin olaraq yaşı 50 və daha yuxarı olan 20 000 nəfərə yaxın pedaqoji və texniki heyət üzvünün cəlb olunması nəzərdə tutulur.

Qeyd edək ki, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən peyvənd məntəqələri kompüter avadanlıqları ilə təchiz olunub və data kart vasitəsilə internetə çıxış təmin edilib.

Koronavirus pandemiyası şəraitində normal tədris mühitinin davam etdirilməsi üçün pedaqoji və texniki heyətin vaksinasiya prosesində iştirakı zəruridir. Bunu nəzərə alan və sağlamlıqlarına həssas yanaşan təhsil işçiləri martın 3-dən başlayan vaksinasiya prosesində fəal iştirak edirlər.

# Nazirlik vaksinasiya ilə bağlı vətəndaşlara müraciət etdi

***"Bəzən vətəndaşların narazılıqları vaksin olunmağa gəldikləri zaman növbə gözləmələridir. Qeyd etmək istəyirəm ki, vaksindən öncə bir neçə yoxlanış, məlumatların alınması prosesi bəzən vətəndaşların gözləməyinə səbəb ola bilir".***

Bunu Səhiyyə Nazirliyi COVID-19-la mübarizə işçi qrupunun üzvü Səbinə Babazadə deyib.

Nazirlik rəsmisi qeyd edib ki, əsas səbəblərdən biri isə qeydiyyatdan keçməmiş vətəndaşların müraciəti zamanı yaranır: "Onların bir-bir qeydiyyata alınması prosesi həqiqətən bəzən çətinliklərə səbəb olur və gözləmələrə gətirib çıxarır. Nəticədə müəyyən narazılıqlara səbəb olur. Bizim işə yardım məqsədi ilə vətəndaşlardan qeydiyyatdan keçmələrini və ya yaxınlarından bu prosesdə onlara yardımçı olmalarını xahiş edirik".

S.Babazadə eyni zamanda vaksinasiyadan sonra vətəndaşların hər hansı şikayətlərinin olub-olmaması məsələsinə də aydınlıq gətirib: "Təkcə COVID-19 vaksini yox bütün vaksinlərin vurulduqdan sonra müəyyən yan təsirlər özünü göstərə bilər. Halsızlıq, qısa müddətli baş ağrıları, yüngül hərarət və ya inyeksiya yerində az miqdarda ağrı baş verə biləcək normal hallardır. Bəzən vaksinin həyəcanın-



dan təzyiqin qalxması da mümkündür. Bu hallar bütün vaksinlər üçün keçərlidir. Hər hansı ciddi bir vəziyyət və yaxud şikayətlə qarşılaşmamışıq".

# Vətən Müharibəsi barədə erməni yalanları Berlin Film Festivalında...

***Ermənistan beynəlxalq tədbirlərdə Azərbaycana qarşı təxribat xarakterli addımlar atmaqda davam edir.***

Modern.az xəbər verir ki, sonuncu belə hadisə martın 1-5 tarixlərində keçirilən Berlin Film Festivalında qeydə alınıb. Belə ki, nüfuzlu festivalın "Forum Expanded" proqramında "Black Bach Artsakh" adlı sənədli film nümayiş olunacaq.

Virtual keçirilən tədbir zamanı nümayiş olunacaq sənədli film Qarabağda aparılmış Vətən Müharibəsinin gedişatı və nəticələrinə həsr olunub. Amma sənədli film yalnız Ermənistan tərəfinin mövqeyini işıqlandıran qərəzli şəkildə çəkilib. Bundan başqa, "Black Back Artsakh" filminin sinopsisində Azərbaycana qarşı sərt ittihamlar yer aldığı üçün həmin mətn Berlin kinofestivalının saytından çıxarılaraq, daha neytral və qısa təsvirlə əvəzlənib. Festivalın rəhbərliyi sənədli filmlə bağlı xüsusi açıqlama da verib.

"Filmin yeni təsviri onu nə üçün aktual hesab etdiyimizin göstəricisidir. "Black Back Artsakh" filmi virtual proqramda qalacaq və yayda keçirəcəyimiz tədbirdə nümayiş olunacaq. Yayda panel diskussiyalar zamanı hər kəsi konstuktiv dialoqa dəvət edəcəyik"- deyə Berlin Film Festivalı açıqlayıb.

# İdarə müdiri məktəb direktorlarını topladı

***Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) tabeliyindəki ümumi təhsil müəssisələrinin rəhbərləri ilə onlayn görüş keçirilib.***

BŞTİ-nin tabeliyindəki məktəblərdə tədrisin təşkili vəziyyəti və cari məsələlərə həsr olunmuş onlayn görüşdə BŞTİ-nin müdiri Mehriban Vəliyeva, İdarənin müvafiq struktur bölmə rəhbərləri və məktəb direktorları iştirak ediblər.

Görüşdə çıxış edən Mehriban Vəliyeva məktəblərdə qiymətləndirmə, kargüzarlıq və digər məsələlər üzrə monitorinqlərin təşkil olunacağını nəzərə çatdırıb. M.Vəliyeva direktorlara işlərinə daha məsuliyyətlə yanaşmağı, məktəbləri nəticəyönümlü müəssisələrə çevirməyi tövsiyə edib, tədrisin təşkilində məktəb direktorlarının üzərinə düşən məsuliyyətin düzgün dəyərləndirilməsinin vacibliyini vurğulayıb.

Sonra çıxış edən BŞTİ-nin Ümumi təhsil sektorunun müdiri Fuad Babayev fənn olimpiadalarının nəticələri barədə danışıb. BŞTİ-nin tabeliyindəki ümumi təhsil müəssisələri üzrə 1404 şagirdin növbəti yarımfinal turuna keçdiyini deyən sektor müdiri bilik yarışlarının şəhər mərhələsinin təşkilində göstərdikləri yüksək peşəkarlığa görə mərkəz məktəblərin direktorlarına təşəkkürünü bildirib.

Görüşə yekun vuran BŞTİ müdiri qeyd edib ki, həllini gözləyən məsələlər birgə səylərin artırılmasını və çağırışlara çevik münasibət göstərilməsini zərurətə çevirib. İdarə müdiri, həmçinin təhsilin keyfiyyətinin yaxşılaşdırılmasının, ümumi təhsil məktəblərinin idarəetmə sisteminin, məktəb-valideyn və müəllim-şagird münasibətlərinin təkmilləşdirilməsinin əsas hədəflərdən olduğunu məktəb direktorlarının diqqətinə çatdırıb, qarşıda duran vəzifələr barədə müvafiq tapşırıqlar verib.

# “Açıq havada maskasız gəzməyə icazə verilsə, nəzarət də çətinləşər” - Ağciyər xəstəlikləri üzrə həkim

***Azərbaycan Tibb Universitetinin (ATU) Ağciyər xəstəlikləri kafedrasının müdiri, dosent Rafiq Bayramov COVID-19-la bağlı ölkədəki epidemioloji vəziyyət, karantinin sərtləşdiriləcəyinə dair yayılmış məlumatlarla bağlı Modern.az-ın suallarını cavablandırıb.***

***- Rafiq doktor, əhali arasında bayramqabağı karantin rejiminin sərtləşdiriləcəyilə bağlı məlumatlar dolaşır. Ümumiyyətlə, ölkədə vaksinasiyaya start veriləndə bunun immunitet yaranması, normal həyata daha tez qayıtmağımız üçün vasitə olduğu bildirildi. Azərbaycanda vaksinasiya prosesinin getdiyi bir vaxtda karantin rejiminin sərtləşdirilməsi gözləniləndirmi?***

- Bütün bunların hamısı epidemioloji vəziyyətdən, yoluxma göstəricilərinin necə dəyişməsindən asılıdır. Təbii ki, vaksinasiya virusla mübarizədə əsas amildir. Azərbaycanda iki aya yaxın müddətdə artıq 300 mindən çox insan peyvənd olunub. Yoluxma sayı nə qədər az, peyvənd olunanlar nə qədər çox olarsa, epidemioloji vəziyyət də bir o qədər çox təhlükəsiz və stabil olar. Doğrudur, vaksinasiya olunan və yoluxanların ümumi sayı əhali sayına nisbətdə o qədər də çox deyil ki, kollektiv immunitet yaranmasından danışaq. Çünki o zaman arxayın ola bilərik ki, kollektiv immunitet yaranıb. Yəni əhalinin 2/3-dən çoxu virusa qarşı immunizasiya olunub. Ya yoluxub ya da vaksinasiya ilə immunitet qazanıb. Nə qədər ki, kollektiv immunitet yaranmayıb, karantinin sərtləşdirilməsi təhlükəsi, riski var. Yeri gəlmişkən onu da bildirim ki, hər il yaz-payız aylarında respirator virus infeksiyalarına yoluxanların sayı artır. Bu həmişə olub. COVID-19 infeksiyası dönəmində də düşünürəm ki, buna bənzər situasiyanın olması qeyri-adi deyil. Doğrudur, ötən dövrlə müqayisədə koronavirusla mübarizədə yaxşılaşma müşahidə olunur. İnşallah, getdikcə yoluxma azalar və koronavirus infeksiyası da digər kəskin respirator virus infeksiyalarının növlərindən birinə qarışıb adiləşər və bütün dünya öz axarına qayıdar.

***- Doktor, maraqlısı budur ki, koronavirus yayılandan sonra adi qrip demək olar yoxa çıxıb. Bunun səbəbləri nə ola bilər?***

- Doğrudur, sizinlə razıyam. Əslində adi qrip yoxa çıxmayıb. Yenə də kəskin respirator virus infeksiyalarına yoluxanlar var. Sadəcə, onların müalicə sxemi, profilaktika üsulları COVID-19-la oxşar olduğu üçün bir o qədər də diqqət yetirilmir. Çünki bəzən insanlar koronavirus şübhəsi olsa da, diaqnozu dəqiqləşdirmək üçün müayinə olunmurlar. Yəni onun virusa yoluxub-yoluxmaması təsdiq olunmur. Burun-udlaqdan yaxma verib müayinə olunmurlar, bununla da koronavirusa yoluxması təsdiqlənmir. Amma buna baxmayaraq, özləri müxtəlif dərmanlar, venadaxili infuziyalar, müxtəlif türkəçarə vasitələrdən istifadə edərək, müalicə olunurlar. Çünki koronavirusa yoluxduqlarını düşünürlər. Bu hal da mümkündür. İkinci tərəfdən, koronavirus infeksiyası klinik əlamətlərinə, gedişinə, xüsusiyyətlərinə görə, digər respirator virus infeksiaylarına çox bənzəyir. Bəzi fərqləndirilən xüsusiyyətlər də fərqli ola bilir. İybilmə və dadbilmənin itməsi, kürəkdə ağrıların olması və s. əlamətləri olmadan da koronavirus təsdiqlənir.

***- Klinik əlamətlərdən söz düşmüşkən, yoluxmanın 3-4 minin üzərində olduğu vaxtlarla müqayisədə hazırda virusa yoluxma əlamətlərində ağırlaşma halları hansı səviyyədədir? Nəzərə alaq ki, xəstə sayının çox olduğu dövrlərdə reanimasiyada olanlar, həmçinin ölənlər daha çox idi. Hazırda vəziyyət, xəstəliyin gedişi necədir. Xəstələr daha yüngülmü, yoxsa ağırmı keçirirlər?***

- Son bir neçə gündə yoluxanların sayında rəsmi rəqəmlərdən də göründüyü kimi nisbətən artım qeydə alınır. Qeyd etdiyiniz dövrdə xəstə sayı da çox idi, xəstəxanalar da xeyli yüklənmişdi. Xəstələrin bir çoxu fobiyadan xəstəxanalara müraciət etmirdi ki, birdən özünü xəstəxanaya, ailə üzvlərini karantinə alarlar. Bu baxımdan həkimə vaxtında müraciət etməyib, hətta heç bir tibb işçisilə məsləhətləşmədən, həkim təyinatı olmadan müxtəlif venadaxili infuziyalar, dərman pereparatları alıb özləri özlərini müalicə edirdilər. Nəticədə də gecikmə səbəbindən ağırlaşan xəstələrin sayı çox olurdu. Amma çox şükür ki, hazırda yoluxma sayları və ağır xəstələr də o həddə deyil. Arzulayıram ki, nə yoluxanların, nə də ağırlaşanların sayı əvvəlki həddə çatsın. Bunun olmaması üçün hər birimiz koronavirusla mübarizədə aktiv iştirak etməliyik. Əgər xəstəliyin əlamətləri varsa, mütləq izolyasiya olunmaq, diaqnozu dəqiqləşdirmək, mütəxəssis təyinatına uyğun müalicə olmaq lazımdır.

***- Bizim qonaqlı-qaralı xalq olduğumuzu, qarşıdan 9 günlük tətilin gəldiyini nəzərə alsaq, bayramqabağı hansı tövsiyələriniz var? Bayaq dediyim kimi, insanlar həmin dövrdə müəyyən qadağaların olacağını düşünürlər...***

- Vətəndaşlarımıza hər zaman bayram əhval-ruhiyyəsi, bayram qeyd etməyi arzulayıram. Amma hazırkı epidemioloji vəziyyəti nəzərə alıb, Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyələrinə, verdiyi təlimatlara riayət etməyə çağırıram. Çox təəssüflə qeyd etmək istəyirəm ki, bəzi insanlar yoluxma göstəriciləri bir balaca azalanda infeksiyanı unutmağa meyllənir və arxayınlaşmağa başlayırlar. Hətta bəzi insanlarımız maska taxılmasını özünü və ətrafdakıları mühafizə üçün yox, bir çox hallarda inzibati tədbirlərdən qorumaq üçün edirlər. Təbii ki, bu hamıya şamil olunmur. Amma bu qrupdan olan insanlarımız da az deyil. Demək istədiyim odur ki, xüsusilə qarşıdakı müddətdə əhaliyə qapalı yerlərdə bayramlaşmağı, görüşməyi, bir-birinin evinə çox gedib-gəlməyi tövsiyə etmirəm. Çünki COVID-19 infeksiyasına yoluxanların çoxu bu xəstəliyi simptomsuz keçirir. Hətta özünün bu infeksiyaya yoluxduğunu bilmir, amma daşıyıcı olur. Nəticədə daşıyıcı insanlar digərlərini yoluxdura, hətta risk qrupundan olan insanları xəstələndirə bilirlər. Hansı ki, daşıyıcı özü heç bir əlamət hiss etmir, amma onun yoluxdurduğu xəstəliyi ağır keçirir. Ona görə də karantin qaydalarına ciddi əməl etmək, sosial məsafəni mümkün qədər saxlamaq, qoruyucu maskalardan istifadə etmək, ciddi zərurət, ehtiyac olmadıqda kütləvi toplaşmaq, qonaq getmək tövsiyə olunmur.

***- Bəs qapalı məkan olan restoranlarda maskasız oturub yeyib-içəndə yoluxma riski olmur?***

- Əslində hazırlanmış təlimatlar, tövsiyələrə əsasən masalararası məsafə nəzərdə tutulub. Tam səmimi bir şey deyim ki, yüzdə yüz ideal olan heç nə yoxdur. Bu həyatda da, tibbdə də belədir. Verilən qərarlarla bağlı müsbət nəticə əldə olunması insanların həmin qərarlara riayət etməsindən asılıdır. Bu infeksiya ilə hər birimiz mübarizə aparmalıyıq. Çünki qarşı tərəfi nə qədər günahlandırsaq da ki, xəstələr qorunmurlar, yaxud görülən tədbirlər adekvat deyil, yəni bir-birini ittiham etməklə məsələ həll olunmur. Hər kəs öz məsuliyyətini, öhdəliyini dərk edib də məsələyə ciddi yanaşsa, daha effektli nəticə əldə edə bilərik. Bu infeksiya elədir ki, təkcə bir nəfərin, bir qurumun mübarizəsilə alınmaz. Hər kəs fərdi olaraq öz üzərinə düşən vəzifəni qəbul edib mübarizə aparmalıdır ki, istədiyimiz nəticəni əldə edib normal həyata dönək.



***- Maska ilə davam edək, çünki maska bu virusla mübarizənin olmazsa olmazıdır. Amma getdikcə açıq havada maska taxmaq çətinləşir. Necə deyərlər, təmiz hava udmağa həsrət qalmışıq. Tez-tez sosial şəbəkələrdə də məsələ qaldırılır. Bu prizmadan zamanla açıq havada maska məsələsinə baxıla bilərmi, necə düşünürsünüz?***

- Düşünürəm ki, bu da epidemioloji vəziyyətdən asılı olacaq. Yoluxma sayı azaldıqca, gələcəkdə baxıla bilər. Amma hazırkı dönəm üçün o qərarı düzgün hesab edirəm. Çünki bayaq da dediyim kimi, çox sayda insan COVID-19 infeksiyasına yoluxsa da, heç bir klinik əlaməti, şikayəti olmur. Cəmiyyətdə, ictimai yerlərdə olmaqla, digərlərini yoluxdurur. Doğrudur, xəstələrin maska taxması daha vacibdir. Amma daşıyıcı olma ehtimalından hamının maska taxması tövsiyə edilir. Həm də açıq havada maskasız gəzməyə icazə verilsə, nəzarət də çətinləşər. Kimin yoluxub, kimin yoluxmadığını, kimin xəstə, kimin sağlam olduğunu ayırmaq çox çətindir. Ona görə də hamının maska taxmağı tövsiyə edilir ki, epidemioloji vəziyyətin gərginləşməsinin qarşısını ala, mübarizə apara bilək.

# Laçın: rus sülhməramlılarının nəzarəti altında həyat -BBC-nin reportajı

***Azərbaycan təxminən 30 ildir Qarabağ silsiləsinin cənub-qərb yamacında yerləşən kiçik bir şəhər olan Laçının geri qaytarılmasını gözləyir. O, bölgədə Dağlıq Qarabağın paytaxtı Stepanakerti (azərbaycanlılar şəhəri "Xankəndi" adlandırır) Ermənistanla əlaqələndirən ən vacib yolun üstündədir. Yaxın bir neçə ildə bu gərginlik düyününüRusiya hərbçiləri idarə edəcək. Laçında onlar öz qaydalarını qurublar.***

Kiçik Horadiz qəsəbəsindəki hərbi nəzarət məntəqəsi Azərbaycanın geri qaytardığı ərazilərə gedən yolun başladığı qapıdır. 6 ay əvvəl şərqdən qərbə bu səfər mümkün deyildi. Araz çayının sol sahili boyunca yol dolanbacdır. Sağ sahildə İranın yaşayış məskənləri sezilir.

İlin bu vaxtında, yaz ərəfəsində yalnız hərbi maşınlar oradan asanlıqla keçə bilər. Gün çıxır, amma hava tutqundur, çən düşür. Səyahətin ilk saatında pəncərədən müharibənin mənzərəsi görünür. Hərbi texnika, tırtıllar və sonsuz xarabalıqlar - ərafında kilometrlər boyu bir dənə də olsun bina yoxdur.

Birinci Qarabağ müharibəsi zamanı bu kəndlərdə yaşayan azərbaycanlılar evlərini tərk ediblər. Dağılmış divarlar, qırılmış pəncərələr, sökülmüş hasarlar və paslanmış qapılar o vaxtdan bəri insanların buraya qayıtmadığını söyləyir.

Laçın yolunun yalnız yarısında, Qoturbulaq kəndi yaxınlığında salamat damı olan ilk bina gözə dəyir. 4 ay əvvəl üzərində "Ağadzor" - kəndin erməni adı yazılmış bir lövhə. İndi işarə yol kənarına atılıb, palçıqlı haldadır və Azərbaycan əsgərləri bu yaxınlaradək ermənilərin yaşadığı binalarda məskunlaşırlar.

Vətəndaşların bu ərazilərə girişinə hələ icazə verilmir - minaya görə ərazi yoxlanılmalıdır.

3 saat sonra dağ yolu başqa bir yoxlama məntəqəsinə çatır. Baryerin arxasında tikanlı məftillərlə güclü istehkamlar görünür. Gizli zirehli personal daşıyıcısını da görə bilərsiniz. Əsgər yolu bağlayan bloklara qırmızı-ağ zolaqlar çəkir.

Yaxınlıqda sarı fonlu bir lövhədə qırmızı hərflərlə yazılıb: "Laçın təhlükəsizlik dəhlizi. Rusiya Federasiyasının sülhməramlı qüvvələri". Bir neçə Rusiya bayrağı nəzarət nöqtəsinin üzərində dalğalanır.

Nəzarət məntəqəsindən keçmək üçün Azərbaycan hərbçiləri keçidi Rusiya sülhməramlıları ilə əlaqələndirməlidirlər.

Rusiya Müdafiə Nazirliyində vəziyyətlə tanış olan həmsöhbətimiz "BBC Rus Xidməti"nə deyib: "Əvvəllər Azərbaycan zabitləri sülhməramlılarımızla səyahətləri əlaqələndirməli olduqlarına görə qəzəblənirdilər. Rəsmi olaraq bu, onların ərazisidir. Ancaq sülhməramlılarımız təlim keçmiş uşaqlardır, onlara izah etdilər ki, bu, sülh müqaviləsinin şərtidir. Müqavilə bu şərtlərlə imzalanıb. Ümumiyyətlə, bu sözlərdən sonra bütün mübahisələr sona çatıb".

### Cəsədlə dolu yol

Rus zabitlər dərhal nəzarət nöqtəsinin şəklinin çəkilməsini qadağan və sualları cavablandırmaqdan imtina edirlər. Müqaviləli əsgərlər kameralardan və mikrofonlardan qorxurlar, ancaq pünhan söhbətdə necə yaşadıqlarını izah etməyə hazırdırlar. Onların bir çoxu 3 aydır dağlardakı nəzarət nöqtələrindədir, xarici dünya ilə kifayət qədər ünsiyyət yoxdur.



"İnternetdən istifadə etməyimiz qadağandır. Əyləncə üçün televizor var, amma burada heç bir kanal tutmur, ona görə də, burada mebel kimi bir şeydir. Bəzən disklərdə filmlərə baxırıq, - deyə adının çəkilməsini istəməyən hərbçilərdən biri deyir. - Boş vaxtlarımda kitab oxuyuram. İndi Ayn Randın "Mənbə"sini mütaliə edirəm. Amma tezliklə onu bitirəcəyəm. Çox təəssüf ki, yeni kitablar yoxdur. Burda kitablar var, amma onları bəyənmirəm. Remarkı çox sevirəm, müharibə və sevgi mövzusunda yazıb".

Asudə vaxtlarında əsgərlər turnikdə məşğul olurlar. Yaxşı havalarda qaçırlar, ancaq dağlarda duman nadir hal deyil. Əsl təhlükə minalardır. Bəziləri 90-cı illərin əvvəllərindən bəri torpağa basdırılıb, bəziləri son 6 ayda ortaya çıxıb.

Dekabr ayında Azərbaycanın geri aldığı ərazidə, Şuşa şəhərində (ermənilər Şuşi adlandırırlar) bir rus zabiti minaya düşüb. Müdafiə Nazirliyi hərbçinin xəstəxanada öldüyünü bildirib. Bir az əvvəl başqa bir rus zabiti minaya düşüb, lakin sağ qalıb; o, cəsədlərinin axtarışı və mübadiləsi üzrə qrupun üzvü idi. Yerli sakinlər deyir ki, minalardan təmizlənmə zamanı başqa bir sülhməramlı yaralanıb, lakin onun adını bilmirlər.

Axtarış missiyasının iştirakçılarından biri bildirib: "Ölənləri tapmaq üçün Qırmızı Xaçla iş burada gördüyüm ən pis şeydir. Mina sahələrinə girdik, artıq çaqqalların parçaladığı cəsədləri gördük. Şuşa yolu cəsədlərlə dolu idi. 18-19 yaşlı gənc ermənilər. Dəhşət!"

"Biz Azərbaycan hərbçilərinə layiqincə hörmət etməliyik, - deyə o davam edir. - Mən yeni mövqeləri tutarkən, onların çox sayda ermənini dəfn etməsini öz gözlərimlə görmüşəm, meyitləri çaqqallardan xilas edirdilər. O yerdə ki, cəsədlərin üstünü azca olsa da, torpaqla örtmək mümkün olmayıb, ancaq bədən parçaları və sümük tapırıq".

### "Uşaq bağçası"

Laçının küçələri boşdur. Rəsmi məlumatlara görə, hazırda şəhərdə cəmi 80 yerli sakin var, qalanları hərbçidir. Sakinlər jurnalistlərlə danışmaqdan çəkinir və bir şey söyləyərlərsə, adlarını çəkilməməsini xahiş edirlər.

İndiyə qədər yalnız erməni pasportu olan şəxslər əlavə təsdiq olmadan Laçına gedə bilərlər. Digərlərinə xüsusi icazə lazımdır. Azərbaycan hərbi konvoyları həftədə 3 dəfə dəhlizdən keçir, Şuşada yerləşən bölmələr və indi Bakının nəzarətində olan digər məntəqələr üçün təchizat gətirir.

Konvoyu rus sülhməramlıları müşayiət edir, lakin dar dağ yolunda hər iki tərəf bir-birinə sataşır. Azərbaycan konvoyunun keçidi zamanı erməni nömrəli minik avtomobili qəfildən onu ötüb keçir Sərnişin oturacağında olan kişi azərbaycanlılara orta barmağını göstərərək telefonda baş verənləri lentə alır.

Konvoya başçılıq edən rus sülhməramlıları maşının dayanmasını tələb edirlər, lakin maşın hərbçilərə məhəl qoymadan irəliləyir. Ən yaxın nəzarət məntəqəsində sürəti azaldır.

Yerli sakinlər deyirlər ki, azərbaycanlılar da tez-tez burada kimin patron olduğunu nümayiş etdirməyə çalışırlar: Laçın boyunca hərəkət edərkən, dövlət bayrağını avtomobilin şüşəsindən asırlar. Bu cür gəzintilərin videoları dərhal sosial şəbəkələrdə görünür və yeni qarşıdurmalara səbəb olur.

Müharibə bitdikdən bir neçə ay sonra tədricən yeni nizama alışma başlayıb. Rus sülhməramlıları qurduqları qaydaları pozanların nazı ilə oynamırlar, buna görə də, ehtirasların şiddəti azalıb.

"Hər kəs qarşı tərəfə buranın kimin torpağı olduğunu göstərməyə çalışıb. Həm də bunu axmaq üsulla ediblər. Təbii ki, maşını sürətlə sürür və dil çıxarırlar, məsələn. Elə bil uşaq bağçasıdır", -yerli sakin deyir.

Ermənilərlə azərbaycanlılar arasındakı qarşıdurmalar sülhməramlıların yeganə problemi deyil. Bəzən hərbçilər barışıq müqaviləsini pozmağa çalışan yerli qoyunların taleyini həll etməlidir. Bu ərazidəki çobanlar uzun illər dövlət sərhədlərinə məhəl qoymadan qoyunları otlaqlara aparıblar, o zamanlar bölgədəki bütün ərazi erməni qüvvələri tərəfindən idarə olunurdu. İndi "Laçın dəhlizi"nin xaricində Azərbaycan hərbçilərinin nəzarət nöqtələri var.

"Əzizim, xahiş edirəm mənə kömək edin! Yenə qoyunlar dumana düşüb, 300 baş! Sülhməramlıları tez çağırın, əks halda, qoyunlar qarşı tərəfə keçəcək. Son dəfə azərbaycanlılar bizə 20 baş qoyunu qaytarmadılar!"

Ertəsi gün qoyun sürüsü yenidən sülhməramlıların postuna gedən yolu keçib. Çoban heyvanları Azərbaycan konvoyundan 1 dəqiqə əvvəl yola çıxarıb. Beynəlxalq qalmaqalın qarşısı alınıb: müşayiət maşını siren və səs siqnalı ilə qoyunları qorxudub.

### "Balaca adamlar"

"Müqəddəs Diriliş" erməni kilsəsinin oyma taxta qapıları kilidlidir. Məbəd ötən ilin noyabr ayının sonundan bəri bağlanıb, lakin yerli sakinlər hətta bağlı qapı qarşısında dua etməyə gəlirlər - məbədin ətrafındakı çıxıntılarda yanmış lampalar və şam köpükləri var.

Yerli bir adam deyir: "Keşişdən gəlməsini xahiş etdik, heç olmasa Bazar günü xidmət etsin. Ancaq gəlmir. Ehtimal ki, qorxur".

Sülhməramlıların maşını yol boyu şütüyür. "Sağa qısılın, konvoyun keçməsinə imkan verin", - deyə avtomobildəki səsgücləndiricisindən əmr səslənir. Yerli südçü maşınının əyləci basılır və maşını yolun kənarına çəkilir. Bu o deməkdir ki, azərbaycanlılar gəlir.

Yerli sakinlər əvvəlcə sülhməramlıların istisnasız olaraq, bütün nəqliyyat vasitələrini yoxladıqlarını - təxribatlardan və silahlı toqquşmalardan qorxduqlarını, buna görə, ilk növbədə, silah axtardıqlarını söyləyirlər. İndi seçmə qaydada yoxlanılır, əsasən, yük maşınları və mikroavtobuslar. Talanın qarşısını almağa çalışdıqlarını deyirlər.

"Ailəmizin burada üç evi var. Mərkəzdə deyillər. Magistral yoldan içəriyə demək olar ki, 1 kilometr məsafədə. Hər gün ora gedə bilmərik. Oğlum bu yaxınlarda getdi, deyir qapı qırılıb ... İkinci oğluluma aid evin də qapısı qırılıb"... Laçında dükan işlədən satıcı Aida Balikyanın özü bir həftədir evinə baş çəkmir.

Sülhməramlılar, əlbəttə, asayişi qoruyurlar, lakin Aidanın izah etdiyi kimi, talançılar patrul xidməti ilə üzləşməmək üçün nə vaxt gələcəklərini yaxşı bilirlər. Laçının digər sakinləri qarətçilərin əvvəllər cəsarətli olduğunu söyləyib: gündüz evlərin damlarını sökürmüşlər. Onlara atəş açıblar, o vaxtdan bəri aşkar oğurluq dayanıb.

"Mən bir şeyi bilirəm: bunu edənlər azərbaycanlılar deyil, onlar bizimkilərdir, - deyən Aidanın izahı var. - Bunu xoş güzərandan etmirlər. Satmaq və yaşamaq üçün elektrik tellərini belə sökürlər..."

"Heç kim bundan sonra nə olacağını bilmir. Qonşu kəndə gecə saat 12-də gəliblər və getməli olduğumuzu söyləyiblər. İnsanlar özləri ilə nə aparacaqlarını bilmirlər". Larisa əri ilə birlikdə şəhərdəki ikinci mağazaya sahiblik edir. Həm yerli sakinlər, həm də rus sülhməramlıları buradan mal alır.

"Biz heç bir şeyə qərar vermirik. Böyük dövlətlər bizim yerimizə qərar verir. Çarəsizik, vəziyyətə nə cürsə uyğunlaşmalıyıq. Nə olacağını bilmək üçün çox balaca adamlarıq".

Larisa Laçından heç vaxt ayrılmadığını söyləyir, çünki "hər yerdə müharibə ola bilər" və "evdən başqa hara getmək olar ki..."

Şəhər boş olduqda və sülh müqaviləsi ilə Azərbaycanın bir hissəsi halına gələndə belə, buradan ayrılmayacaq, mümkün qədər uzun müddət burada yaşayacaqlar.

**Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi.**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Mina xəritəsini gizlədən Ermənistanın cinayətkar siması ifşa edilməlidir

## Arzu Nağıyev: "Dünya bu həqiqəti Dağlıq Qarabağ həqiqətinin bir parçası kimi bilməlidir"

***Azərbaycan 44 günük müharibədə zəfər qazandıqdan sonra işğalçı dövlətin siması işğaldan azad edilmiş ərazilərin timsalında dünyaya nümayiş olunsa da, düşmən naqis xislətindən əl çəkmək istəmir. Ermənistan dövləti Qarabağda dinc həyatın bərpası istiqamətində Azərbaycanın başladığı tədbirlərə işğal dövründə bu torpaqlara basdırdığı minaların xəritəsini verməməklə mane olmağa çalışır. İndiyədək işğaldan azad edilmiş ərazilərdə xeyli sayda mülki insanın və hərbçinin həlak olması faktı üzrə cinayət işi açılıb.***



Ötən həftə yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransında prezident İlham Əliyev bu məsələyə toxunaraq dünyanın diqqətini bu problemə yönəltməyi bacardı. Prezident bildirdi ki, düşmən minalamış ərazilərin xəritəsini Azərbaycana təqdim etmir: "Biz işğaldan azad olunmuş ərazilərin təhlükəsizliyini bu gün kifayət qədər təmin edirik, müntəzəm reydlər keçiririk, pilotsuz uçuş aparatları vasitəsilə və vizual şəkildə monitorinq aparırıq. Buna görə vəziyyət tam nəzarət altındadır. Bundan əlavə, əlbəttə, ərazilərin minalanması əsas çətinlikdir. Ona görə ki, erməni tərəfi minalanmış sahələrin xəritələrini bizə təqdim etməyib. Yeri gəlmişkən, bu da cinayət hesab edilə bilər. Ona görə ki, hərbi əməliyyatlar başa çatandan sonra bizdə həm hərbi qulluqçular, həm də mülki şəxslər arasında bir neçə hadisə olub, bu insanlar yalnız ona görə həlak olub ki, minalanmış sahələrin xəritələri bizə təqdim edilməyib".

Prezidentin bu çıxışı dünyaya Ermənistanın cinayətkar dövlət olduğunu, insan hüquqlarını qoruyan beynəlxalq təşkilatların bu dövlətə cinayətkar mövqeyindən çəkinməsi üçün təsir göstərməli olduğunu bir daha bəyan etdi.

Elə ekpertlər də Dağlıq Qarabağ həqiqətlərinin dünyaya car çəkilməsində bu məsələnin unudulmamalı olduğunu, düşmənin işğaldan azad olunmuş torpaqlarımızda cinayətləri davam etdirdiyini beynəlxalq təşkilatların, dünyanın güc ölkələrinin diqqətinə çatdırmağın vacibliyini vurğulayırlar.

Milli Məclisin deputatı Arzu Nağıyev "Unikal"a açıqlamasında deyir ki, Azərbaycan 44 günlük müharibədə qalib gələrək beynəlxalq hüquqda təsbit olunmuş ərazi bütövlüyünü təmin etsə də, Dağlıq Qarabağla bağlı həqiqətlərin dünyaya çatdırılması işi davam etdirilməlidir: "Bu gün Dağlıq Qarabağın dirçəldilməsi üçün görüləcək ilk iş ərazinin minalardan təmizlənməsidir. İşğaldan azad edilmiş ərazilər minadan təmizlənməlidir ki, orada quruculuq işləri aparmaq mümkün olsun. Əgər gələcəkdə beynəlxaq aləm də bu strukturdan istifadə etmək istəyirsə, Azərbaycanın işğaldan azad etdiyi ərazilərinin minadan təmizlənməsində maraqlı olmalıdır. Bildiyimiz kimi, Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarında həm xaotik, həmçinin də xəritə ilə mina basdırıb. Təmas xəttində 6 sırada düşmən mina basdırmışdı. Ona görə də minaların təmizlənməsi çox vaxt aparır. Eyni zamanda, işğalçı dövlət qeyri-humanist addım ataraq ziyarətgahları, məzarlıqları da minalayıblar. Çox maraqlı məqam budur ki, Rusiyanın KİV-i Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarında minalanmaya 400 milyon dolar vəsait sərf ediblər. Bu çox böyük rəqəmdir. Ermənistan ordusunun büdcəsi 65 milyon dollardırsa, bu qədər vəsiatin minaya sərf edilməsi bir qədər şübhə doğurur. Bu isə iki məqamdan xəbər verir. Birinci məqam odur ki, Ermənistan tərəfi istəmir ki, nə qədər mina basdırdıqları üzə çıxsın. Bu səbəbdən də minalanmış ərazilərin xəritəsi Azərbaycana verilmir. Çünki, Ermənistan ordusunda çox korrupsiya faktları olub. Bu minaların basdırılmasından da yan keçməyib. İkinci məqam isə bilərəkdən bu xəritənin Azərbaycana verilməməsidir ki, işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi çətinləşsin. Baxmayaraq ki, Azərbaycan bunun üçün Agentlik yaradıb və Rusiya, Türkiyə kimi dövlətlərin dəstəyi ilə biz kommunikasiya xətlərinin altını tam təmizləmişik. Lakin bu beynəlxalq aləmdə əks səda doğurmaqdadır. İtalya parlamenti bununla bağlı bəyanat verərək Ermənistan tərəfindən həm humanist, həmçinin də gələcəkdə təhlükəsizlik baxımından minaladığı ərazilərin xəritəsini Azərbaycana versin. Kommunikasiyaların beynəlxalq səviyyədə işləməsi üçün ərazilər minalardan təmizlənməli, xəritə Azərbaycana verilməlidir. Artıq digər dövlətlər də bunu Ermənistandan tələb etməldirlər. Gələcəkdə şimal-cənub dəhlizinə qoşulmaq istəyən, logistikadan yararlanmaq istəyən dövlətlər Ermənistana bu xəritənin Azərbaycana verilməsi ilə bağlı bəyanat verməlidirlər. Bu gələcəkdə təhlükəsizliyə təhdid olan məsələyə çevrilə bilər. Bu istiqamətdə artıq işlər gedir. ABŞ səviyyəsində də Ermənistana bu məsələdə təyziq olmalıdır. ATƏT-in Misnk qrupu da deklorativ bəyənatlardan əməli işlərə keçməlidir. Birmənalı şəkildə onların da bu məsələ ilə bağlı Ermənistandan tələbi olmalıdır. Ona görə də, düşünürəm ki, beynəlxalq aləm Dağlıq Qarabağın minalardan təmizlənməsində maraqlı olmalıdır. Bizim üzərimizə düşən iş isə Ermənistanın minaladığı ərazilərin xəritəsini Azərbaycana verməməklə insanlıq əleyhinə cinayətlər törətməkdə davam etməsini dünyaya çatdırmaqdır. Dağlıq Qarabağ işğaldan azad edilsə də, Ermənistanın bu ərazilərdə törətdiyi cinayətlərin acı nəticələri hər birimizin gözü qarşısındadır. Dünya bu həqiqəti Dağlıq Qarabağ həqiqətinin bir parçası kimi bilməlidir. İnsan hüquqlarını qoruyan təşkilatların diqqətinə minalanmış ərazilərin xəritəsinin müharibə başa çatmasına rəğmən Azərbaycana verilməməsi ilə Ermənistanın cinayətkar dövlət kimi ifşa edilməsi işi davamlı hal almalıdır. Ta ki, düşmən dünyada cinayətkar dövlət kimi rüsvay olduğunu görüb bu xəritəni Azərbaycana təqdim edəcək. Ermənistanın minalanmış sahələrin xəritələrini Azərbaycana verməməsi dinc vətəndaşları və hərbi qulluqçuları bilərəkdən ölümə və şikəstliyə məhkum etmək deməkdir. Bu da insanlıq əleyhinə cinayət hesab edilir".

Qeyd edək ki, bu günlərdə İtaliya Parlamentinin Deputatlar Palatasının Xarici əlaqələr daimi komissiyasında qəbul olunmuş "Ermənistan və Azərbaycan arasında razılaşmaların yerinə yetirilməsi vəziyyəti haqqında qətnamə"də bu məsələyə xüsusi toxunulub. Belə ki, Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin minalardan təmizləmə əməliyyatlarını asanlaşdırmaq məqsədilə tərəflər konstruktiv fəaliyyət göstərməyə dəvət olunub və bu xüsusda, minalanmış ərazilərin xəritələrinin verilməsi istənilib. Qətnamədə Azərbaycan tərəfinin üçtərəfli bəyanatdan irəli gələn öhdəliklərini yerinə yetirdiyini, müharibədən əvvəl və müharibə zamanı tutulmuş bütün erməni hərbi əsirləri qaytardığını bildirdiyi qeyd olunub. Eləcə də qətnamədə İtaliya hökuməti qarşısında ərazilərin minalardan təmizlənməsi əməliyyatlarını asanlaşdırmaq məqsədilə tərəfləri konstruktiv fəaliyyət göstərməyə dəvət etməsi və bu xüsusda, minalanmış ərazilərin xəritələrinin verilməsini istəməsi vəzifələri qoyulub.

Bundan başqa, qeyd edilən məsələyə indi dünya mediasında da xüsusi diqqət yetrilir. Məsələn, Misirin "Əl Masr Əl Yom" nəşrində "Müharibə cinayəti törədən Ermənistan minalanmış ərazilərin xəritələrini Azərbaycana vermək istəmir" sərlövhəli məqalədə bu məsələ ilə bağlı Ermənistan sərt tənqid edilir. Məqalədə Prezident İlham Əliyevin yerli və xarici jurnalistlər üçün keçirdiyi mətbuat konfransında, ötən il noyabrın 10-da hərbi əməliyyatların dayanmasına baxmayaraq, Ermənistanın minalanmış ərazilərin xəritəsini təqdim etməməsi səbəbindən hərbçilərin və mülki şəxslərin həlak olması barədə söylədiyi fikirlər yer alıb. Qeyd olunub ki, dövlət başçısı həmin ərazilərin tez bir zamanda minalardan təmizlənməsinin mümkün olmadığını, Azərbaycanın etik standartlara və ümumbəşəri dəyərlərə uyğun olaraq hərbi əsirləri və meyitləri Ermənistana təhvil verdiyini diqqətə çatdırıb. Rusiyalı hərbi icmalçı Aleksandr Artamonov da "Pravda.ru" şəbəkə nəşrinin "YouTube" kanalında bu mövzuya toxunaraq bildirib ki, İlham Əliyevin sözlərinə görə, Azərbaycan Ermənistanla sülh sazişi imzalamağa hazırdır. O həmçinin xatırladıb ki, Azərbaycanın hərbi yolla özünə qaytardığı Qarabağ ərazisi bütün beynəlxalq qanunlara və BMT-nin qətnamələrinə görə Azərbaycana məxsusdur: "Hazırda evlərinə qayıtmağı gözləyən 750 min insan oraya qayıda bilmir, çünki minalanmış sahələrin xəritəsi Azərbaycan tərəfinə verilmir və ərazi məskunlaşmaya yararlı deyil: infrastruktur yoxdur, orada hərəkət etmək mümkün deyil, demək olar ki, hər yer minalanıb. Bununla belə, Azərbaycan sülh barədə danışır".

Xatırladaq ki, indiki halda Ermənistan "Müharibə qurbanlarının müdafiəsi haqqında" 1949-cu il 12 avqust tarixli Cenevrə konvensiyalarını, 10 oktyabr 1980-ci il "Hədsiz zərərli sayıla bilən və ya seçimsiz nəticələrə malik ola bilən müəyyən adi silah növlərinin istifadəsinə qoyulan qadağalar və ya məhdudiyyətlər haqqında" Konvensiyanın İkinci Protokolunun tələblərini kobud şəkildə pozur. BMT-nin 1999-cu ildə qəbul etdiyi "Piyadalara qarşı minaların tətbiqi, ehtiyatının toplanması, istehsalı və verilməsinin qadağan edilməsi haqqında" Konvensiyanın müddəaları da Ermənistan tərəfindən pozulur. Sözügedən konvensiyaya əsasən, münaqişə tərəfləri müharibə başa çatdıqdan sonra minaların təmizlənəcək sahələrin xəritələrinin təhvil verilməsi, piyadalara qarşı minalardan istifadə etməyəcəkləri barədə öhdəlik götürür. Lakin hazırda Ermənistan bu öhdəliyini pozmaqda davam edir.



# Rüsvayçı şəkil üstündə qanlı dava: "İlk bıçağı bacısı vurdu..."

***Rusiyanın Rostov vilayəti, Aksay şəhərində qəsdən adam öldürməyə cəhddə ittiham olunan Sabirabad rayon sakini, 1987-ci il təvəllüdlü Amil Babayevin cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.***

Amil Babayev Rostov vilayətində qohumları ilə birgə müvəqqəti yaşadığı zaman tanışları Fərrux Xəlilovun onun bacısı barəsində rüsvayedici məlumatları, o cümlədən fleşkartda saxladığı fotoşəkilləri yayma hədəsi ilə pul tələb etməsi barədə məlumat öyrənib.

Bu səbəbdən 10 dekabr 2016-cı il tarixdə, saat 21 radələrində bacısını iştirakı ilə Fərrux Xəlilovla Rostov vilayəti, Aksay şəhərində binaların birinin qarşısında görüşüb.

Amil Babayev Fərrux Xəlilovdan bacısını hansı səbəbdən şantaj etməsi barədə soruşub və mübahisə yaranıb.

Mübahisə zamanı Amil Babayev Fərrux Xəlilovla dalaşıb, fleş-kartı ondan alması ilə mübahisə bitsə də, bununla kifayətlənməyib. Növbəti gün saat 15 radələrində bacısı və əmisi İxtiyarın iştirakı ilə Fərrux Xəlilovla Aksay şəhərininin Verbnaya küçəsi 2 ünvanında görüşüb. O, Fərrux Xəlilovla yenidən hansı səbəbdən bacısını şantaj edərək pul tələb etməsindən danışıb.

Fərrux deyilənlərin yalan olduğunu, əslində bacısı ilə aralarında uzun müddətdir sevgi münasibətləri yarandığını bildirib. Bu sözlərdən hiddətlənən Amil Babayev qisas məqsədi ilə onu öldürmək qərarına gəlib. Özündə olan bıçaqla Fərrux Xəlilova çoxsaylı zərbələr vurub.

Ümumilikdə ona səkkiz yerdən xəsarət yetirib, öləcəyini güman edib və hadisə yerindən gedib.

Hadisə yerində olan İxtiyar Babayevin müdaxiləsi ilə Fərrux Xəlilov xəstəxanaya çatdırılıb. Ona vaxtında ixtisaslı tibbi yardım göstərildiyi üçün həyatı xilas edilib.

Amil Babayev Rusiyanı tərk edib və Azərbaycana gəlib. Bir müddət Sabirabad rayonunda gizlənib, 2019-cu il aprelin 5-də hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən həbs olunub.

İstintaq orqanı tərəfindən Amil Babayevin barəsində Cinayət Məcəlləsinin 29,120.1-ci (qəsdən adam öldürməyə cəhd) maddəsi ilə ittiham elan edilib.

Lənkəran Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə Amil Babayev 10 il 6 ay müddətinə azadlıqdan məhrum edilib.

Fərrux Xəlilovun cinayət nəticəsində vurulmuş maddi və mənəvi ziyana görə Amil Babayevdən 100 min manat məbləğində pul tələbinə dair mülki iddiasının baxılmamış saxlanılıb. Ona mülki mühakimə icraatı qaydasında mülki iddia vermək hüququnun izah olunması qərara alınıb.

Hökmdən narazı qalan Amil Babayevin müdafiəçisi apelyasiya şikayəti verib. O, qeyd edib ki, Amil Babayev Cinayət Məcəlləsinin 29,120.1-ci maddəsində nəzərdə tutulan əməli deyil, həmin məcəllənin 126.1-ci (qəsdən sağlamlığa ağır zərərvurma) maddəsində nəzərdə tutulan əməli törədib.

Müdafiəçinin sözlərinə görə, məhkəmə kifayət qədər araşdırma aparmadan onun əməlini Cinayət Məcəlləsinin 29,120.1-ci maddəsi ilə əsassız olaraq tövsif edib və həmin maddə ilə ona cəza təyin edib.

Bundan başqa, zərərçəkmiş Fərrux Xəlilov apelyasiya şikayəti verib. O, şikayətində göstərib ki, Amil Babayev məhkəmənin hökmü ilə layiqli cəzasını alıb: "Onunla əlbir olaraq məni öldürmək istəyən digər şəxslər, əmisi İxtiyar Babayev və bacısı Raidə Abuşova layiqli cəzasını almayıblar. Onların hər üçü əlbir olaraq məni öldürməyə cəhd ebilər. İxtiyar Babayev və Raidə Abuşova ibtidai istintaq orqanı tərəfindən əsassız olaraq kənarda saxlanılıb, yalnız Amil Babayev məsuliyyətə cəlb edilib.

Şirvan Apelyasiya Məhkəməsinin qərarı ilə tərəflərin şikayəti təmin olunmayıb.

# Kişi Suqovuşanda azyaşlı uşağı olan qadını yulğunluğa aparıb... - Şok təfərrüat

***Sabirabad rayonunda zorlama və seksual xarakterli hərəkətlər etməkdə ittiham olunan 1991-ci il təvəllüdlü Nicat Cəfərovun cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.***



Teleqraf.com-un xəbərinə görə, Nicat Cəfərov sərxoş vəziyyətdə 3 fevral 2019-cu il tarixdə, saat 22 radələrində tanışları Elvin İmanov və Elmir Həsənovla birlikdə sonuncunun idarə etdiyi "Mercedes 300D" markalı avtomaşınla Sabirabad şəhəri, Heydər Əliyev prospekti ilə rayonun mərkəzi poçtunun qarşısında hərəkət ediblər.

Avtomobildə arxa oturacaqda əyləşmiş Elvin İmanov yolun kənarındakı səkidə azyaşlı uşağı ilə piyada gedən Adilə Məmmədovanı (ad və soyad şərti verilib - red.) görüb və icarəyə götürdüyü kafeyə işə götürmək üçün onunla danışmaq istədiyini bildirib, onu avtomaşına dəvət edib.

Adilə Məmmədova avtomaşının arxa oturacağına əyləşdikdən sonra Nicat Cəfərov onunla cinsi əlaqədə olmaq qərarına gəlib. Qadının müəyyən pul müqabilində bununla razılaşacağını güman edib. Amma maşındakı şəxslərə niyyəti barədə heç bir məlumat verməyib.

Nicat Cəfərov Adilə Məmmədovanın cinsi əlaqədə olmağa razılıq verib-vermədiyini dəqiqləşdirmədən avtomaşını Sabirabad şəhərində yerləşən müxtəlif ünvanlara sürdürüb. Avtomaşın "Kür qırağı" adı ilə tanınan ərazidə olarkən palçığa batıb.

Nicat Cəfərov özünün idarə etdiyi "VAZ 21074" markalı avtomaşının ardınca gedib və maşını həmin əraziyə sürüb. O, Adilə Məmmədovanın oradan uzaqlaşmaq istədiyini görüb.

Bu zaman Adiləyə evə aparacağı vədi ilə özünün maşınına əyləşməyi təklif edib. Adilə də bu sözlərə inanıb və öz azyaşlı övladı ilə birlikdə onun avtomobilinə minib.

Nicat Cəfərov gecə saat 00.40-da Adilə Məmmədovanın azyaşlı övladının yatmasından istifadə edib, qadınla cinsi əlaqədə olmaq məqsədi ilə ondan yerə düşməyi tələb edib.

Nicatın niyyətini başa düşən Adilə maşından uzaqlaşmaq istəyib, onunla cinsi əlaqəyə və seksual xarakterli digər hərəkətlərə razılıq verməyib.

Vəziyyəti belə görən Nicat Cəfərov Adilə Məmmədovanın qolundan tuturaq zor tətbiq edib və avtomaşından düşürdüb. O, qadını avtomobilin yerləşdiyi yerdən 13 metr aralıda Kür çayı ilə Araz çayının qovuşduğu hissədə (Suqovşan) yulğun ağaclarının olduğu dərəyə aparıb. Orada Adilə Məmmədovdan cinsi əlaqəyə girməsini tələb edib.

Nicat Cəfərov Adilə Məmmədovanın əynində olan gödəkçəsini zorla çıxarıb və yerə sərib. Sonra o, soyunduraraq qadını gödəkçənin üzərinə uzadıb.

Adilə Məmmədova ayağa qalxaraq qaçmaq istəyib. Nicat Cəfərov buna imkan verməyib, müqavimətin qarşısını almaq məqsədi ilə onu döyüb.

Qadını şillə-təpiklə vuraraq saçından tutub başını yerə vuraraq müqavimətini qırıb. Ona qarşı seksual xarakterli hərəkətlər edib, cinsi ehtirasını təmin edib. Sonra ayağa duraraq bir qədər kənara çəkilib.

Bundan istifadə edən Adilə Məmmədova dizləri üstündə iməkləməklə dərənin yuxarısına, "Kür qırağı" adlı yola doğru qaçmağa çalışıb.

Adilə Məmmədovanın qaçdığını görən Nicat Cəfərov onun ayağından tutub, aşağıya sürüyüb. Ardınca zor tətbiq etməklə onunla yenə də cinsi əlaqədə olmaq istədiyini deyib.

Adilə Məmmədova dəfələrlə qışqıraraq, onun əlindən çıxmağa çalışsa da, Nicat Cəfərov etirazlara əhəmiyyət verməyib. O, qadına çoxsaylı bədən xəsarətləri yetirib. Sonra zorla təbii yolla zorla cinsi əlaqədə olub.

İstintaq orqanı tərəfindən Nicat Cəfərovun barəsində Cinayət Məcəlləsinin 149.1-ci (zorlama, yəni zərərçəkmiş şəxsə və ya başqa şəxslərə qarşı zor tətbiq etməklə və ya belə zor tətbiq etmə hədəsi ilə və ya zərərçəkmiş şəxsin köməksiz vəziyyətindən istifadə etməklə onunla cinsi əlaqədə olma) və 150.1-ci (zərərçəkmiş şəxsə və ya başqa şəxslərə zor tətbiq etməklə və ya belə zor tətbiq etmə hədəsi ilə və ya zərərçəkmiş şəxsin köməksiz vəziyyətindən istifadə etməklə uşaqbazlıq və ya seksual xarakterli digər zorakılıq hərəkətləri etmə) maddələri ilə ittiham elan edilib.

Lənkəran Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə Nicat Cəfərov 4 il 6 ay müddətinə azadlıqdan məhrum edilib. Onun cəzasını ümumi rejimli cəzaçəkmə müəssisəsində çəkməsi hökm edilib.

Hökmdən narazı qalan Nicat Cəfərov apelyasiya şikayəti verib. O, məhkəmənin hökmü qanunsuz və əsassız olduğunu deyib. Bildirib ki, istintaq orqanın və birinci instansiya məhkəməsinin nəticəyə gəldiyi cinayət əməlini törətməyib.

Nicat Cəfərov elan olunmuş ittiham üzrə özünü təqsirli bilməyib. Qeyd edib ki, ora qarşı sürülən cinayət uydurmalardan ibarətdir. O, Adilə Məmmədovanın bədəni üzərində olan xəsarətlərdən xəbəri olmadığını qeyd edub.

Nicat Cəfərov barəsində ittiham olunduğu hər iki maddə ilə barəsində bəraət hökmünün çıxarılmasını xahiş edib.

Bu şikayətə Şirvan Apelyasiya Məhkəməsində baxılıb və sonda qərar elan olunub. Nicat Cəfərovun şikayəti təmin edilməyib.

# Gəncədə ər arvadını bıçaqladı

***Gəncədə bıçaqlanma hadisəsi baş verib. Hadisə şəhərin Natavan qəsəbəsində qeydə alınıb.***

1994-cü il təvəllüdlü Əsgərova Həcər Hüseyn qızı bıçaq xəsarəti ilə xəstəxanaya yerləşdirilib. Dərhal qadın əməliyyat olunub, vəziyyətinin orta-ağır olduğu bildirilir. İlkin məlumata görə, qadın həyat yoldaşı tərəfindən bıçaqlanıb.

Faktla bağlı araşdırma aparılır.

# Gədəbəydə 27 yaşlı qadın intihara cəhd etdi

***Gədəbəydə intihara cəhd edən qadın xilas edilib.***

Rayonun Rüstəməliyev kəndində 1994-cü il təvəllüdlü Tağıyeva Həcər Qurban qızı yaşadığı evdə özünü asıb. Həmin vaxt yaxınları onu görərək, xilas ediblər və xəstəxanaya çatdırıblar. Faktla bağlı araşdırma aparılır.

# Lənkəranda kişi oğlu tərəfindən bıçaqlandı

***Lənkəran şəhərində bıçaqlanma hadisəsi baş verib.***

Unikal.org apa-ya istinadən xəbər verir ki, hadisə şəhər ərazisində qeydə alınıb.

1972-ci il təvəllüdlü Vidadi Hüseynov yaşadığı evdə oğlu Əliqismət Hüseynov tərəfindən bıçaqlanıb. Xəsarət alan ata döş qəfəsinin daxilinə nüfuz edən kəsilmiş-deşilmiş yara diaqnozu ilə Lənkəran Rayon Mərkəzi Xəstəxanasına yerləşdirilib. Atasına bıçaq xəsarəti yetirən oğlun keçmiş məhkum olduğu bildirilir. Faktla bağlı araşdırma aparılır.

# Sahibkarların problemləri barədə məlumatlar toplanır - Nicat İmanovla müsahibə

***İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətində bir sıra stuktur dəyişiklikləri həyata keçirilib. Bu dəyişikliklərin bir hissəsi Vergi siyasəti Baş İdarəsinin fəaliyyətini əhatə edib.***

“Unikal” Baş idarənin rəisi Nicat İmanovun dəyişikliklərin mahiyyəti və qarşıya qoyulan əsas məqsədləri barədə müsahibəsini təqdim edir:

***- Nicat müəllim, Vergi siyasəti Baş İdarəsində aparılmış son struktur dəyişiklikləri nələri əhatə edir və bu, hansı zərurətdən irəli gəlib?***

- Dövlət Vergi Xidməti bu gün Azərbaycanda iqtisadi inkişafın təmin edilməsində, sahibkarlığın dəstəklənməsi prosesində fəal iştirakçıya çevrilə bilib və ötən illər bir daha göstərdi ki, vergi orqanları ölkənin iqtisadi inkişaf strategiyasının hazırlanmasında və həyata keçirilməsində öz töhfələrini vermək iqtidarındadır. Bu gün hər bir sahənin fəaliyyət prioritetləri hökumətin başlıca vəzifəsi olan davamlı iqtisadi artımın təmin edilməsinə istiqamətlənməlidir.

Məlum olduğu kimi, qanunvericiliyin ictimai münasibətlərin tələblərinə uyğunlaşdırılması və onun icra mexanizmlərinin effektivliyi əlverişli biznes mühitinin formalaşdırılması üçün böyük əhəmiyyət daşıyır. Bu baxımdan, vergi qanunvericiliyinin tətbiqi zamanı sahibkarların qarşısına çıxan çətinliklərin öyrənilməsi, bu istiqamətdə dövlət vergi orqanları ilə sahibkarlar arasında qarşılıqlı birgə əməkdaşlığa əsaslanan horizontal münasibətlərin qurulması vergi siyasəti üzrə prioritet istiqamətlərdən biridir.

Təsadüfi deyildir ki, Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də cəmiyyət, biznes və dövlət üçlüyünün əhəmiyyəti vurğulanmaqla yanaşı, biznesə dost dövlət idarəetməsi iqtisadi yüksəlişin təməl amilləri sırasında qeyd edilib. Həmçinin, İqtisadiyyat Nazirliyinin rəhbərliyi tərəfindən vergi ödəyiciləri ilə vergi qurumları arasında münasibətlərin yeni müstəvidə qurulması, dialoq formatında görüşlərin keçirilməsi, assosiasiyalarla bağlı görülməli olan işlərin intensivləşdirilməsi barədə tapşırıqlar verilib.

Sahibkarların maraqlarını təmsil edən sahibkar birlikləri, assosiasiyaları və digər ödəyici qrupları ilə qarşılıqlı əməkdaşlığa əsaslanan birgə fəaliyyətin təmin edilməsi məqsədilə iqtisadiyyat nazirinin müvafiq əmrinə əsasən İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Vergi siyasəti Baş İdarəsində struktur dəyişiklikləri aparılıb, Qanunvericiliyin monitorinqi və sahibkarlıq subyektləri ilə iş idarəsi, o cümlədən idarənin tərkibində Sahibkar birlikləri və assosiasiyaları ilə iş şöbəsi yaradılıb. Yeni strukturun formalaşdırılmasında əsas məqsəd birgə fəaliyyət zamanı dövlətlə sahibkarlar arasında münasibətləri dialoq platformasında inkişaf etdirmək, sahibkarların vergi qanunvericiliyi ilə əlaqədar qarşılaşdıqları sektoral problem və çətinliklərin dinlənilməsi, qanunvericilikdə və inzibatçılıqda olan çatışmazlıqların müəyyən edilərək aradan qaldırılmasından ibarətdir.

***- Sahibkar birlikləri və assosiasiyaları ilə iş şöbəsinin fəaliyyət prinsipi nədən ibarət olacaq?***

- Son illərdə vergi sahəsində aparılan islahatlara nəzər salsaq, görərik ki, dövlət-sahibkar münasibətlərinin yeni müstəviyə çıxarılması, qarşılıqlı dialoqa əsaslanan işgüzar münasibətlərin qurulması diqqət mərkəzindədir. Struktur dəyişiklikləri, əslində, bu proseslərin davamıdır. Dövlət-sahibkar münasibətlərində horizontal platformanın qurulması hədəflənir. Qurulan iş, ilk növbədə, sektoral problemlərin davamlı olaraq öyrənilməsi və inkişaf perspektivləri, bu məqsədlə qanunvericilik strukturunu necə dəyişmək barədə dövlət qurumlarının məlumatlı olmasını təmin edəcəkdir. Nəticədə sektor üzrə vergi mexanizmlərinin təkmilləşdirilməsi, dəstək tədbirlərinin görülməsi və yeniliklərin tətbiqi üçün əlverişli şərait yaranmış olacaq. Bu, həm də



sahibkarlarla dialoq mesajının cəmiyyətə əyani çatdırılmasıdır. Yeni yaradılmış şöbə müxtəlif fəaliyyət sahələri üzrə sahibkarlıq birlikləri və assosiasiyaları, ictimai birliklər, ticarət palataları və digər ödəyici qrupları ilə aktiv ünsiyyətdə olacaq. Qarşıya qoyulan hədəflərə nail olmaq və qanunvericiliyin tətbiqinin sahibkarlıq subyektlərinin fəaliyyətində yaratdığı müsbət və mənfi halları araşdırmaq üçün bir neçə istiqamətlərdə işlərin görülməsi nəzərdə tutulub.

***- Sahibkarların qarşılaşdıqları problemlərin həlli istiqamətində hansı işlərin görülməsi nəzərdə tutulur?***

- Sahibkarlığın qarşısında duran problemlərin müəyyən olunması məqsədilə sahibkar birlikləri və assosiasiyaları ilə mütəmadi olaraq görüşlərin və müzakirələrin təşkil edilməsi, müəyyən edilmiş real problemlərin həlli istiqamətində vergi qanunvericiliyinin və inzibatçılığının təkmilləşdirilməsinə dair təkliflərin verilməsi nəzərdə tutulur. Hər şeydən öncə, sektorlar üzrə mövcud problemlər və çətinliklər barədə aydın təsəvvür yaradılmalıdır. Bu məqsədlə ayrı-ayrı sektorlar üzrə fəaliyyət göstərən assosiasiyalarla sistemli bir şəkildə iş aparılacaq.

Qeyd edim ki, artıq aktiv fəaliyyət göstərən sahibkar birlikləri və assosiasiyalarla fəal əməkdaşlığa başlanılıb. Bu il fevralın 22-də sahibkarların ictimai birlikləri ilə videokonfrans formatında ilk görüş keçirilib. Həmin görüşün nəticəsi olaraq, sektorlardakı mövcud çağırışlar və onların həlli üçün görə biləcəyimiz işlərlə bağlı təkliflərin formalaşdırılması barədə razılaşma əldə edilib. Hazırda Dövlət Vergi Xidməti tərəfindən müvafiq assosiasiyalarla birgə hər bir vergi növü üzrə sahibkarların qarşılaşdıqları problemlər və çatışmazlıqlar barədə məlumatlar toplanılır. Daha sonra bu məlumatlar emal ediləcək və qarşılıqlı müzakirələr zamanı həmin problemlərin obyektivliyi, habelə alternativ həlləri, yaxud yeni formatın hazırlanması zəruriliyi aydınlaşdırılacaq.

Görüşlərimiz zamanı vergi ödəyiciləri tərəfindən daimi xarakter alan pozuntu halları barədə, eləcə də qanunvericiliklə bağlı vahid yanaşmanın təmin edilməsi üçün assosiasiyalar məlumatlandırılacaq. Onlar da öz növbəsində xarakterik nöqsanlar, habelə vergi orqanının izahları barədə məlumatları sektorda çalışan sahibkarlıq subyektlərinin diqqətinə çatdıracaqlar ki, nəticədə informasiya mübadiləsinin çevikliyi və intensivliyi artmış olacaq. Həmçinin inzibatçılıq sahəsində qarşıda duran çətinliklərin aradan qaldırılmasında həmin sektorlara müvafiq dəstək veriləcək. Bu, sənədləşmələrin tərtibi, elektron sənədləşmədəki çətinliklərin aradan qaldırılması, yeni elektron xidmətlərin tətbiqi və ya təkmilləşdirilməsi ola bilir. Yəni məqsəd sahibkarların inzibatçılıq yükünü azaltmaq, praktiki təcrübəyə uyğun inzibatçılığın qurulmasıdır ki, onlar üçün ikili iş yükü yaranmasın.

Sahibkarlar qarşılaşdıqları problemlər, mövcud vergi siyasəti, həmçinin sahibkarlığa dövlət dəstəyi mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlı təkliflər verə bilərlər. Bu əməkdaşlıq dövlət-sahibkar tərəfdaşlığının inkişaf etdirilməsinə, qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində sahibkarların daha yaxından cəlb olunmasına imkan verəcək.

***- Builki Vergi Forumunda səslənilən yeni fikirlərdən biri də gələcəkdə Vergi Məcəlləsinin strukturunun dəyişdirilməsi ilə bağlı idi. Bu, hansı zərurətdən irəli gəlir?***

- Dövlət Vergi Xidmətinin qarşısında duran hədəflərin icrası baxımından, Vergi Məcəlləsinin yeni strukturunun hazırlanması və mövcud tərtibat formasında dəyişikliklərin edilməsi nəzərdə tutulur. Vergi Məcəlləsinin strukturunun dəyişilməsinin və yeni redaksiyada hazırlanmasının zəruriliyi bir neçə səbəblə bağlıdır. Əvvəla, Məcəllənin daha anlaşılan olması və rəqabətqabiliyyətliliyinin təmin edilməsi üçün zəruri dəyişikliklər edilməsi vacibdir. İkincisi, ölkəyə xarici investisiyaların cəlb edilməsi baxımından daha stabil Vergi Məcəlləsinə ehtiyac vardır. Xarici investorlar müəyyən zaman intervalında vergi mühitinin sabit qalacağına əmin olmalıdırlar. Üçüncüsü, fəaliyyət sahələri üzrə vergiyə cəlb edilən əməliyyatların detallı şəkildə tənzimlənməsi üçün Vergi Məcəlləsinin yeni strukturuna ehtiyac vardır. Sahibkarların ictimai birlikləri ilə aparılan işin məqsədlərindən biri də budur. Nəhayət, Azərbaycanın vergi xidmətinin son illərdə əldə etdiyi beynəlxalq təcrübəyə nəzər salsaq, görərik ki, beynəlxalq vergi münasibətlərinə inteqrasiyanın təmin olunması baxımından bütün bunları özündə əks etdirən, daha qlobal xarakter kəsb edən yeni qanunvericilik sənədinin işlənib hazırlanması məqsədəuyğundur.



## ƏDV-ni geri alanlar üçün 10+10 aksiyası keçirilir

***Ölkənin ən məşhur taksit kartlarından olan BirKart, əhali üçün yeni aksiya təqdim edir. Şərtlərə görə https://edvgerial.kapitalbank.az/ portalında qeydiyyatdan keçənlər, istənilən sifariş kanalı ilə BirKart taksit kartını rəsmiləşdirən zaman balanslarına avtomatik olaraq 10 AZN vəsait hədiyyə olunacaq.***

Unikal.org xəbər verir ki, xidməti daha rahat etmək məqsədilə portalda “BirKart sifariş et” funksiyası yaradılıb.

Ancaq hədiyyə bununla bitmir. Belə ki, BirKart əldə olunandan 10 gün müddətində BirKart-la istənilən məbləğdə əməliyyat edildikdə, əlavə olaraq 10 AZN vəsait də hədiyyə olaraq hesaba köçürüləcək. Aksiya 31 mart 2021-ci il tarixinədək keçərlidir. Aksiyada https://edvgerial.kapitalbank.az/ portalında qeydiyyatı olanlar və yeni qeydiyyatdan keçənlər bəhrələnə bilər.

Qeyd edək ki, BirKart-ın 4 növü var - taksit, taksit/cashback, taksit/miles və taksit/Umico. BirKart bir sıra üstünlüklərə malikdir: 18 ayadək faizsiz taksitlə hissə-hissə ödəmək imkanı, birdəfəlik ödənişlərdə 40 günədək güzəşt müddəti, istənilən aviabiletə dəyişilməsi mümkün olan millərin toplanması, həmçinin 1,5%-dən başlayan keşbek və Umico bonusu imkanı, SMS məlumatlandırma xidməti isə pulsuzdur. BirKart-ın ölkə üzrə 8000-dən artıq partnyor şəbəkəsi fəaliyyət göstərir və bu say artmaqdadır. Kartı bankın saytında sifariş etmək olar - https://kbl.az/bedvs.

BirKart haqqında ətraflı məlumat üçün www.birkart.az saytına, 196 Sorğu Mərkəzinə və ya kartın Facebook səhifəsinə www.facebook.com/birkart.az müraciət edə bilərsiniz. BirKart sifarişi üçün həmçinin 8196 qısa nömrəsinə SMS və ya (+994 51) 250 99 99 nömrəsinə WhatsApp vasitəsilə, həmçinin BirKart mərkəzlərinə müraciət etmək olar.

## Zalsburqdakı Azərbaycan Evində silsilə tədbirlər keçirilib



***Avstriyanın Zalsburq şəhərində fəaliyyət göstərən Azərbaycan Evində Xocalı soyqırımının 29-cu ildönümü ilə əlaqədar bir sıra tədbirlər keçirilib.***

"Xocalıya ədalət!" beynəlxalq təbliğat-təşviqat kampaniyası çərçivəsində Xocalıya həsr olunmuş sərgi təşkil edilib. Sərgidə Xocalı soyqırımına həsr olunmuş kitablar, broşürlər, posterlər və digər çap materialları nümayiş etdirilib.

Azərbaycan Evinin qarşısında isə "Xocalıya ədalət" yazılmış böyük banner yerləşdirilib. Bannerin önündə uşaq oyuncaqları, güllər düzülüb, şamlar yandırılıb. Sərgiyə gələn və bu ərazidən keçən yerli sakinlərə Xocalı şəhərində baş verən dəhşətli soyqırım aktı barədə ətraflı məlumat verilib. Sərgi yerli ictimaiyyətin böyük marağına səbəb olub, sakinlərə Xocalı soyqırımını haqqında məlumatların əks olunduğu broşürlər paylanıb, 10 000 broşür isə əhalinin poçt qutularına salınıb.

Azərbaycan Evində baş tutan anım mərasimi isə Xocalı soyqırımı qurbanlarının xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi və ruhlarına duaların oxunması ilə başlayıb.

Tədbirdə Azərbaycan Evinin rəhbəri Fərid Əzizov çıxış edərək, Xocalı sakinlərinə qarşı törədilmiş soyqırım aktını insanlığa sığmayan dəhşətli cinayət adlandırıb. Bildirib ki, dünya birliyinin Xocalı soyqırımını tanıması, Xocalı soyqırımını planlaşdıran və icra edənlərin cinayət məsuliyyətinə cəlb olunması istiqamətində qətiyyətli addımlar atması mühümdür, çünki yalnız beynəlxalq ictimaiyyətin qəti tədbirləri Cənubi Qafqaz regionunda erməni faşizminin qarşısını birdəfəlik ala bilər.

## Budapeştdə Xocalı soyqırımı qurbanları yad edilib

***Macarıstanın paytaxtı Budapeşt şəhərində fəaliyyət göstərən Azərbaycan Evində Xocalının 29-cu ildönümü ilə əlaqədar anım mərasimi keçirilib.***

Pandemiya qaydalarına uyğun şəkildə baş tutan tədbirdə Azərbaycan diasporunun və yerli ictimaiyyətin nümayəndələri iştirak ediblər. Mərasim Xocalı soyqırımı qurbanlarının xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Tədbirdə çıxış edən Azərbaycan Evinin rəhbəri David Əmirov 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı birləşmələrinin 366-cı motoatıcı alayın köməyilə Xocalıda dinc azərbaycanlılara qarşı dəhşətli soyqırımı aktı törətdiyi barədə ətraflı məlumat verib.

Bildirib ki, "Xocalıya ədalət!" beynəlxalq məlumatlandırma kampaniyası çərçivəsində diaspor təşkilatları da Xocalı şəhərində baş verən kütləvi qırğını dünya ictimaiyyətinə çatdırmağa, müasir dövrün imkan verdiyi bütün vasitələrlə yaşadıqları ölkələrin rəsmi qurumlarının və vətəndaş cəmiyyətlərinin diqqətini bu cinayətə hüquqi-siyasi qiymət verilməsinə, cinayətkarların ədalət məhkəməsi qarşısında cavab verməsinin vacibliyinə cəlb etməyə çalışırlar.

Vətən müharibəsində əldə edilən tarixi Qələbənin soydaşlarımız arasında böyük nikbinlik yaratdığı bildirilib və xalqımızın Xocalı soyqırımına münasibətdə də ədalətə nail olacağına ümid ifadə edilib. Sonra Macarıstan parlamentinə və Xarici işlər nazirliyinə ünvanlanan bəyanat barədə məlumat verilib.

Xocalı soyqırımının 29-cu ildönümü ilə bağlı Azərbaycan Evində yaradılan guşədə qara örtüyün üzərində şamlarla 29 rəqəmi əks edilib, qərənfillər düzülüb.

# Xüsusi təyinatlı döyüşçü: "Mənə nəsə olsaydı, üç qızım "Vətən sağ olsun" deyəcəkdi"

***İkinci Qarabağ Müharibəsində iştirak edən yüzlərlə könüllü döyüşçü qəhrəmanlıq göstərməklə ad-san qazandı, orden və medallarla təltif olundur. "Unikal" xəbər verir ki, modern.az saytı Vətən Müharibəsində iştirak etmiş belə döyüşçülərdən daha birini oxuculara tanıdır.***



Xüsusi Təyinatlı Qüvvələrin çavuşu Emin Tahirzadə hazırda da xidmətə davam edir. Eminin sözlərinə görə, 44 günlük Vətən savaşından öncə hər zaman döyüşlərdə iştirak etməklə bağlı xəyalları olub:

"1996-cı ildən hərbidə xidmətdəyəm. Öz istəyimlə hərb sahəsinə gəldim. Hər kəsə bəllidir ki, hərb sahəsini seçənlərin daxilində vətən sevgisi güclü olur. Məhz həmin sevgi bizi bu sahəyə gətirir. Hərbin öz qayda-qanunları var. O qaydalara tabe olanda hər şey normal olur. Təbii ki, İkinci Qarabağ müharibəsinin nə vaxt başlayacağını bilmirdim. Bu barədə heç bir məlumatım yox idi. Ancaq Qarabağın azadlığı üçün döyüş məqamının gələcəyini hiss edirdim. Əmin idim ki, nə zamansa biz Qarabağın azadlığı uğrunda meydanlara axışacağıq. Çünki biz heç zaman Qarabağ itkisi ilə barışa bilməzdik. Şəhidlərimizin ruhu bizi heç vaxt bağışlamazdı".

Qəhrəmanımız deyir ki, döyüş əmri veriləndə artıq xəyalların gerçəkliyə yaxınlaşdığını anlayıb: "Bizə döyüşmək əmri verildi. Təbii ki, biz də o əmri qürurla icra etdik. Döyüş arenamız geniş oldu. Füzuli rayonunun Alxanlı kəndindən başlayıb Cəbrayıl, Zəngilan, Laçın və Qubadlı uğrunda savaşdıq, nəhayət Şuşada dayandıq. Əsgərlərimizin döyüş əhval-ruhiyyəsi yüksək idi. Hər kəs sidq ürəklə döyüşürdü. Hərbçi olduğum üçün döyüş yoldaşlarımın müharibə ilə bağlı əhvalını bilirdim. Amma heç hərbçi olmayan oğullarımızda da döyüş əzminin daha yüksək olduğunu görəndə qürur duyurdum".

Üç qız övladı böyüdən qəhrəman ata deyir ki, ailəsi onun müharibədə iştirakını normal qarşılayıb: "Böyük qızım tələbə, o biri qızlarım isə məktəblidir. Böyük uşaqların müharibə barədə düşüncələri və yanaşmaları fərqli olur. Həyatı sərbəst formada dərk edə bilirlər. Qızlarım ataları ilə qürur duyurdular. Mən müharibəyə gedən kimi bayrağımızı pəncərəmizin üzərində asmışdılar. Evə qayıdanda üçrəngli bayrağımızı görəndə qürur hissi yaşadım. Müharibə dəhşətli hadisədir. Müharibədə bir işartı olanda insan sevinir. Ancaq döyüşə gedən əsgər hər çətinliyi gözə alır. Mənim də ailəm müharibə ilə bağlı nə varsa, hamısını gözə almışdı. Elə ailələr var ki müharibədə olan yaxınlarına görə nigaran qalırlar. Ancaq bizim ailədə hər kəs güclü



olduğu qədər, hər şeyə də hazır idi. Mənə nəsə olsaydı "Vətən sağ olsun" deyəcəkdilər".

Hərbçi ailəsində böyüyən Emin Tağızadə atasının ona verdiyi tövsiyədən də söz açıb: "Bizim ailə hərbçi ailəsidir. Babam 1941-45-ci ildə olan İkinci Dünya müharibəsinin, atam isə Birinci Qarabağ müharibəsinin iştirakçısıdır. Atam danışır ki, Birinci Qarabağ savaşı 44 günlük Vətən müharibəsindən xeyli fərqli idi. Bu baxımdan ki, o zaman güclü ordumuz yox idi. İkinci Qarabağ müharibəsi başlayanda atam mənə uzun məsləhətlər vermədi. Yalnız bunu dedi: "Vətən anadır. Ana da qeyrətimizdir. Oğul, get vətənimizi, qeyrətimizi qoru".

Qəhrəmanımız döyüş vaxtı şəhid olan yoldaşlarından da danışıb: "Müharibə vaxtı xeyli yaxın dostlarım şəhid oldu. Çörək kəsdiyim dostumun şəhid olması məni çox üzdü. Ancaq "Vətən sağ olsun!" dedik. Belə bir atalar sözümüz var: "Ölüm qaşla göz arasındadır". Doğru fikirdir. Müharibədə bunun şahidi olmaq və bu hissləri yaşamaq isə ağırdır. Heç gözlənilməyən yerdən ölüm insanı ağuşuna ala bilər. Müharibə gedən ərəfədə söhbət etdiyimiz qəhrəman oğlanlar bir saniyənin içində şəhidlik zirvəsinə yüksəlirdi. Ermənilər snayperdən daha çox istifadə edirdilər. Döyüş vaxtı mən də tank mərmisindən yaralandım. Beyin silkələnməm oldu".

Xüsusi Təyinatlı Qüvvələrin çavuşu bəzi məqamlara da toxunub: "Hadrut rayonunun Şur kəndi uğrunda qızğın döyüş gedirdi. İgid oğullarımızn sayəsində Hadruta daxil olmuşduq. Orada daimi yaşayış olduğundan evlər çox idi. Bəzi ermənilər silahları atım qaçsalar da, bəziləri evlərin zirzəmisində gizlənmişdi. Ən pisi o idi ki, erməni döyüşçülərlə qəfil zirzəmidə rastlaşdım. Evə daxil olanda altda tunel vardı. Düzdü, öncədən evin altında tunel olması barədə məlumat verilmişdi. Ancaq tam dəqiqliklə orada ermənilərin olacağını düşünmürdük. Erməni kəşfiyyatçılarla üz-üzə gələndə hər iki tərəf silahlı idi. Dərhal atəş açıb kəşfiyyatçılardan birini vurdum.

Şuşada oğullarımız sidq ürəklə döyüşüb. O cəsarəti, əzmi, döyüş ruhunu sözlə ifadə etmək o qədər də asan deyil. Topxana meşəsindən keçmək çox çətin idi. Mən və döyüş yoldaşlarım günlərlə meşədə qalmışıq. Bakıdan bizə şorqoğalı göndərilmişdi. 2 günü döyüş yoldaşlarımızla 1 litr su, 12 ədəd şorqoğalı ilə yola vermişik. Şuşaya girəndə ilk düşündüyüm şey məscidi görmək idi. Şuşanı dağılmış, viran qalmış formada təsəvvür edirdim. Çünki Cəbrayıl tam, Zəngilan və Qubadlının isə bir çox kəndləri xarabalığa çevrilmişdi. Ancaq Şuşaya daxil olanda məscidin restavrasiya olunmuş halını gördüm. Ən maraqlısı isə yoldaşlarımızın Şuşa məscidində azan verməsi idi. Azan səsinə o qədər sevindik ki!".

Xüsusi Təyinatlı Qüvvələrin çavuşu Emin Tahirzadə onu da deyib ki, müharibə yekunlaşandan sonra adını "Şücaətə görə" medalına təqdim ediblər, amma hansısa səbəblərdən təltif olunanlar siyahısına düşməyib ki, bu da döyüşçünü çox üzüb.

# Snayper atəşindən şəhid olan dünya və Avropa çempionu

***Emil Şamilov 1996-cı ildə Bakı şəhəri Sabunçu rayonunun Ramana kəndində anadan olub. Ailənin biri qız olmaqla 3 övladı olub. Emil orta təhsilini Ramanada yerləşən 296 saylı orta məktəbdə tamamlayıb. 2016-cı ildə isə hərbi xidmətini başa vuraraq, ailəsinin yanına dönüb.***

Kiçik yaşlarından idmana olan marağı Emilin sonrakı həyatına ciddi təsir edib.

Şəhidin atası Rafiq Şamilovun dediyinə görə, Türk dünyasının milli döyüş sənəti olan Alpaqut döyüş sənətinin sirlərini dərindən öyrənən Emil həm bu idman növündə, həm də karate idmanında ard-arda uğurlar əldə edib. 12 dəfə Azərbaycan çempionu, 1 dəfə Avropa və 1 dəfə dünya çempionu adını qazanıb. Bundan əlavə, Asiya və Zaqafqaziya çempionatlarının da qalibi olub: "Mənim özüm 1-ci Qarabağ Müharibəsi veteranıyam. Oğlumla fəxr edirəm. O, mənə həm oğul, həm dost olub. Yəni özünə hörmət qazanan bir oğul olub. Elə bir oğul olub ki, onu dillə demək mümkün deyil. Bunu tək mən demirəm, onu tanıyan bütün qonşular, dostları deyir. Mən oğlumla fəxr edirəm".

### Yarımçıq romanı, şeirlərini yaddaşdan silib, getdi... - Şəhid əmanəti

İdmanda peşəkarlıq səviyyəsinə çatan Emil "Alparslan" idman klubunu təsis edib. Bundan sonra həm də müəllim kimi idman dərsləri keçib, gənclərə bu idman növünün sirlərini öyrədib. Anası Validə Şamilovanın sözlərinə görə, 2020-ci il sentyabr ayında torpaqlarımızın azadlığı uğrunda ölüm-qalım savaşı



başlayarkən Emil tərəddüd etmədən ordu sıralarına yazılıb: "Getdi, könüllü yazıldı bizə demədən. Biz bilmirdik. Deyirdi, çağıracaqlar gedəcəm. Mən də deyirdim ki, bala, çağırarlar gedərsən. Axşam saat 11-in yarısı zəng gəldi ki, səhər gəl komissarlığa. Xəbəri eşidəndə sevindi. Elə sevinirdi ki, uça-uça getmək istəyirdi. Mən ağlayırdım, o sevinirdi. Deyirdi, mama, ağlama, niyə ağlayırsan? Gedib Şuşanı alıb gələcəm".

Onun ən böyük arzularından biri, bəlkə də birincisi Şuşanı azad görmək idi. Bu arzu ilə də döyüşlərə qatılıb. Cəbhənin bir neçə istiqamətində misilsiz qəhrəmanlıqlar göstərib. Sonuncu döyüşü isə Hadrutun düşmənlərdən azad edilməsi uğrunda olub. atası deyir ki, erməni əsgərlərini qısa vaxt ərzində geri otuzdurublar, ağır itkilərlə geri çəkilən düşmən açıq döyüşdə güc gələ bilmədiyi Emilin vətən eşqi ilə çırpınan ürəyini snayperlə nişan alıb və o, şəhidlik zirvəsinə ucalıb: "Axırıncı dəfə ayın 22-si danışdı mənimlə. Ölümündən 4 gün qabaq. O qədər özündən razı danışdı mənimlə. Yoldaşım işdə idi. Dedim, zəng elə. Dedi, nömrəsini bilmirəm, səhər zəng edərəm. Elə o zaman mənimlə danışdı. Ondan sonra da şəhidlik xəbəri gəldi".

Qardaşı Əmirxan Şamilov döyüş yoldaşları ilə Emilin son dəqiqələri haqqında söhbətləşib: "Döyüş yoldaşı danışır, deyir, biz onlara çatanda onların qrupundan 5 nəfər yaralı qalmışdı. Biz ora çatanda Emil vurulmuşdu və kəlmeyi-şəhadətini oxuyurdu. Ondan sonra gözləri ilə sanki bizimlə sağollaşırdı".

**Emil Şamilov şəhidliyi ilə ölümün gözünə dik baxmağı bacardı. Onun yoxluğuna həm də daha çox tələbələri üzülür:**

**Rəhim Tərcvan:** "Biz Emil müəllimlə 6 ildir birlikdəyik. Mənim müəllimim olmaqla yanaşı, həm də böyük qardaş kimi olub. Bütün problemlərimdə yanımda olub. Yarışlarda çiyin-çiyinə olmuşuq. Xeyli nailiyyətlərim olub və mən bu nailiyyətlərimə görə Emil müəllimə minnətdaram".

**İlkin Musazadə:** "Mən körpəlikdən onunla həm məşq yoldaşı olmuşam, həm də müəllimim olub. Bütün problemimizdə yanımızda idi. Buna görə ona çox minnətdarıq. Onu itirmək bizim üçün ağır itkidir".

**Məmməd Hüseynli:** "Emil müəllim hər zaman məqsədi üçün çalışırdı. Onun məqsədi döyüşmək və torpaqlarımız uğrunda şəhid olmaq idi. O da bunu etdi".

Azərbaycan Alpaqut döyüş sənətini bütün dünyada tanıdan, kiçik yaşlarından bayrağımızı yüksək arenalarda dalğalandıran Emil Şamilovun məzarı indi onu sevənlərin, tələbələrinin və ailəsinin and yerinə çevrilib.



# "Ermənilərin heç vaxt dövlətçilik ənənələri olmayıb" - Tarixçi alim

***Tarixi tədqiqatlar göstərir ki, ermənilər Cənubi Qafqaza gəlmədirlər. Onların kompakt yaşayışı, dövləti, dövlətçilik ənənələri heç vaxt olmayıb və bu ərazilərdə yazılı, mövcud olan əşyavi atributları bu günə qədər tapılmayıb. Ermənilərin bura gəlmə, yazdıqları tarixin isə saxta olduğunu açıq-aşkar tarixi faktlarla deyə bilirik.***

Bunu Azvision.az -a AMEA-nın Qafqazşünaslıq İnstitunun Ermənişünaslıq şöbəsinin müdiri, tarix elmləri doktoru Qasım Hacıyev deyib. Onun sözlərinə görə, ermənilər Balkan yarımadasından Ön Asiyaya gəliblər, oradan isə bir qrup erməni Kilikiya ərazisində toplanıb.

"Sonradan Avropa dövlətlərinin, xüsusilə Rus İmperiyasının Şərq siyasətinə uyğun olaraq erməni məsələsi qaldırılıb. Ermənilər onların itaətində hər bir tapşırığı yerinə yetirirdilər. Ermənilərə borclu qalmamaq üçün isə erməni dövləti yaradıldı. Bu erməni dövləti ilk dəfə heç vaxt kompakt şəkildə olmadıqları, tarixi əlaqələri olmayan ərazidə - Azərbaycanın Naxçıvan və İrəvan xanlıqlarının ərazisində yaradıldı. Bu ərazilərin bir hissəsini bölərək ermənilərə verdilər və beləliklə, 1918-ci ildə erməni dövləti yaradıldı. Onun da adını Ararat qoydular".

Tarixçi alim qeyd edib ki, ermənilər bura yerləşənə qədər İrəvan, Vedibasar, Dərələyəz, Göyçə, Zəngəzur vilayətləri Qərbi Azərbaycanın əraziləri olub:

"Bu bölgələrin əhalisinin 80-90 faizi Azərbaycan türklərindən ibarət idi. XIX əsrin əvvəllərində bağlanan Gülüstan və Türkmənçay müqavilələrindən sonra İrandan və Osmanlı imperiyasından köçürülən ermənilər burada yerləşdirildi. Bundan sonra azərbaycanlıların yaratdığı şəraitə baxmayaraq, onlar yerləşdirildikləri ərazini genişləndirmək planı ortaya qoydular. Bu plana uyğun olaraq azərbaycanlılara qarşı etnik təmizləmə işləri apardılar. İrəvan şəhəri verilməklə yaradılmış Ararat dövlətinə qane olmadılar və əlavə ərazi iddiaları irəli sürdülər. Ona görə imperiya Göyçə və Zəngəzuru da azərbaycanlılardan alıb ermənilərə verdi. Bu azmış kimi daha sonra Qarabağ iddiasını qaldırdılar, Dağlıq Qarabağı inzibati ərazi kimi qələmə verib, ermənilərə məxsus olduğunu sübut etməyə çalışırdılar. Lakin buna nail ola bilmədilər".

Q.Hacıyevin sözlərinə görə, ermənilər Qərbi Azərbaycanda azərbaycanlılara aid bütün məscidləri, abidələri dağıdıblar. "XX əsrin əvvəllərində azərbaycanlıları o ərazilərdən deportasiya etdilər, qırğınlar törətdilər. Boşaldılmış ərazilərdə toponimləri, Azərbaycan xalqına məxsus olan abidələri məhv etməyə çalışdılar. İkinci dəfə 1948-53-cü illər deportasiyasından sonra azərbaycanlıların izini itirmək hərəkatı daha geniş vüsət aldı. Bundan sonra planlı hərəkətə keçirilən bu siyasət Ermənistanın dövlət siyasətinə çevrildi. 1980-ci illərdə 250 minə yaxın azərbaycanlı deportasiya edildikdən sonra Qərbi Azərbaycan torpaqlarında Azərbaycan xalqına məxsus tarix və mədəniyyət izlərini yer üzündən silməyə başladılar. Bu siyasət nəticəsində azərbaycanlıların yaratdığı orta əsrlərə aid memarlıq incilərinin hamısı məhv edildi. Bu sırada Abbas Mirzə məscidi, Sərdar məscidi, Şah Abbas məscidi, Dəmirbulaq məscidlərini qeyd etmək olar".

# "Kəsilən ayaqlarımın göydə fırlandığını gördüm" - Qazi Camal Alxasov

***44 günlük Vətən Müharibəsinin qəhrəmanlarından olan qazi Camal Alxasov Sumqayıt Reabilitasiya Mərkəzində müalicə alır. Burada göstərilən xidmətdən razı olan Camal reabilitasiya nəticəsində əl barmaqlarının hərəkət etdiyini deyib.***

Sumqayıt şəhərində yaşayan 20 yaşlı qazi Azvision.az -a döyüş yolundan danışaraq Ağcabədidə N saylı hərbi hissədə xidmət etdiyini deyib. O, oktyabrın 4-də təxris olunmalı idi. Lakin sentyabrın 27-də başlayan müharibədə iştirak edərək, düşmənə qarşı sonadək döyüşüb.

"Mən sürücü idim. Müharibə dövründə hərbçilərimizə silah-sursat, yemək daşıyırdıq. Yəni ordunun təminatına baxırdıq. Füzuli, Cəbrayıl, Qubadlı istiqamətlərində təminat daşımışam. Oktyabrın 31-də Qubadlıda alınmış erməni postunda maşınımızın qaldığı deyildi. Komandir bizə həmin maşını çıxarmağı tapşırdı. Həmin post uğrunda səhər qızğın döyüşlər olmuşdu və post ermənilərdən alınmışdı. Yalnız bir təpə qalmışdı. Biz ora getdik. 3 nəfər idik, maşını təmir etməyə başladıq. Yarım saat olardı ki, həmin alınmayan təpədən ermənilər bizi mərmi yağışına tutdu. Birinci mərmi maşının qabağına düşdü. Onda gözümdən və əlimdən yüngül yaralandım. Həmin vaxtı biz postun içərisinə doğru qaçdıq. Daha 2 mərmi atıldı. Onda heç nə olmadı. Uşaqlar artıq postun zirzəmisinə düşmüşdülər. Mən posta 10 metr qalmış dördüncü mərmi atıldı və arxamda yerə düşdü. Onda dalğa məni göyə qaldırıb tulladı. Həmin vaxtı qəlpə kəsən ayaqlarımın göydə fırlandığını gördüm. İki dəfə qışqırdım, yoldaşlarım məni sürüyüb posta saldılar. 3 saat orda qaldım. Çoxlu qan itirdiyim üçün gözlərim tutulmuşdu. Onda bəxtim gətirdi ki, ayağımın şah damarını qəlpə yandırmışdı. Ermənilər dayanmadan həmin əraziyə mərmi atırdı və maşınlar gəlib bizi götürə bilmirdi".

Camal qeyd edib ki, postdan çıxandan sonra Qubadlının Xanlıq kəndindəki hospitalda 7 saat ərzində əməliyyat olunub.

"Ayaqlarımı tikəndən sonra Füzulinin Diaqnostika Mərkəzinə göndərdilər, orada mənə qan köçürüldü. Daha sonra Bakıda Hərbi hospitala gətirdilər, 84 gün orada yatdım. Prezident İlham Əliyev tərəfindən "Cəsur döyüşçü", "Qubadlının azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" medallarla təltif olunmuşam.

Hazırda sağ qolum sınıqdır. Quraşdırılan aparat çıxmalıdır və qolumda 5-6 sm vətər çatmır, onu tikməlidirlər. Sağ əlimdə 2 barmağım işləmir, ffizioterapiya olunub açılmalıdır. Sol əlimdə bir barmağım yoxdur. Başımda 9 qəlpə var idi, 7-ni çıxarıblar, ikisi qalıb. 2 qəlpə belimdə idi, onları




da çıxarıblar. Başımdakı qəlpələrin çıxarılması təhlükəlidir. Qolumda və ayağımda daha iki qəlpə var. Onların heç biri çıxarılmayıb.

Mənim üçün Almaniyadan protez ayaqlar sifariş olunub. Martın 15-dən sonra məni çağıracaqlar, müalicə üçün qalacağam ki, ayaqlarımın şişi çəkilsin. Ondan sonra belimdən bağlanan ayaq protezi taxılacaq və yeriyə biləcəyəm. Biz qazilərə göstərilən xidmətə görə dövlətimizə, Ali Baş Komandana təşəkkürümü bildirirəm".

***Aytən Zəhra***

# Sovet filmindəki qəribə səhnənin sirri, yaxud, erməni goreşənliyinin gizli səbəbləri

***- Bizdə dəqiq məlumat var ki, burada diversantlar fəaliyyət göstərir. Onlar qəbirləri qazıb, vəbadan ölənlərin meyidlərini çıxarır, ürək və ciyərlərini kəsib götürür, hissələrə bölür və xəstəliyi yayırlar...***

Bu sözlər "Açıq kitab" (1977) adlı məşhur sovet filmindəndir. Yoluxucu xəstəliklərə qarşı mübarizə aparan gənc mikrobioloqun həyatından bəhs edən filmin 6-cı hissəsində söhbət Qarabağda yaşayan ermənilərdən gedir.

Bir gün orada çalışan infeksionist həkimlərin yanına "NKVD" əməkdaşı gələrək, aldıqları məlumatı deyir və qəbirlərin açılmasını tələb edir. Həkimlər etiraz edirlər: Vəbanı yayan mikrobu laboratoriyada asanlıqla çoxaltmaq mümkün olduğu halda, diversantlar ölülərin daxili orqanlarını çıxarmaq kimi çətin yolla niyə getsinlər ki? Amma əmrə tabe olur və dəhşətə gəlirlər: Məlum olur ki, həqiqətən də, qəbirlərin bəzilərindəki erməni meyidlərinin başı, ürəyi, ciyəri kəsilərək, götürülübmüş...

Sovet dövründə çoxumuz bu epizoda elə də fikir vermirdik. Amma indi son hadisələrin təsiri ilə istər-istəməz başqa cür yanaşmaq lazım gəlir: Ermənilər niyə qəbirləri açıb, meyidlərin daxili orqanlarını kəssinlər? Və bu, Kəlbəcərdə ölülərin qəbirdən çıxarılması, Ağdamda qəbirlərin dağıdılması ilə hansısa formada əlaqəli ola bilərmi?

Əslində onların tarixi abidələrimizlə yanaşı qəbiristanlıqlarda da xüsusi vəhşiliklər törətmələri bizə əvvəldən məlum idi. Amma azad olunan torpaqlarda yerlə-yeksan edilmiş qəbiristanlıqlarla rastlaşdıqca, başqa bir dəhşətli mənzərəni görmüş olduq. Sən demə, vəhşi qonşularımız qəbiristanlıqlarda yalnız məzar daşlarını dağıtmayıb, qəbirləri qazaraq oradan sümükləri də çıxarıblar. Niyə? Bu, hansısa qədim, yaramaz adətin davamı deyil ki?

Ümumiyyətlə, bu bir faktdır ki, ermənilər zaman-zaman meyit, qəbir, dəfn mərasimləri mövzusunda iyrənc əməllərə əl atmaları ilə seçiliblər. Məsələn, 90-cı illərdə Birinci Qarabağ müharibəsi zamanı erməni hərbçiləri ölmüş döyüşçü yoldaşlarının qəbirləri üzərində xüsusi vəhşiliklərlə yadda qalan rituallar həyata keçiriblər.

Əvvəllər ermənilərin işğal etdikləri Azərbaycan torpaqlarında qəbiristanlıqları eşmələrini sadəlövcəsinə belə izah edirdik ki, onlar burada qızıl diş axtarırlar... Amma zaman keçdikcə sübut olundu ki, bu xalqın goreşənliyi daha ciddi səbəblərdən qaynaqlanır. Belə vərdiş Qafqaza yad olan bu xalqın genetik kodunda yatmış başqa bir vəhşi unikal adətlərdən və istəklərindən də qaynaqlanır. Bu istəyin adı hannibalizmdir. Bəli, erməni hannibalizmi!

Təsadüfi deyil ki, 21-ci əsrdə kütləvi şəkildə qəbirləri eşən bir toplum kimi gündəmə gələn ermənilər əslində geriyə, dədə-babalarından qalan hannibalizm xəstəliklərinə doğru meylləndiklərini göstərdilər. Buna heç xəstəlik də demək olmaz. Çünki erməni hannibalizmi sırf psixoloji problemlərdən deyil, daha çox fərqli istəklərdən yaranmış vərdişdir.

Misal olaraq tarixə nəzər salsaq, bir neçə faktı göstərə bilərik.

Bu mövzuda hətta erməni mənbələrində də yazılara rast gəlmək olar:

"Ermənilər təqribən 326-408 qram ağırlığında adam ətini 100 dekana satırdılar. Hətta adam ətini konservləşdirilmiş halda da satırdılar". (Armənskie istoçniki o monq).




Digər mənbələrə də nəzər yetirdikdə dəhşətli faktların şahidi oluruq. Məşhur sovet bioloqu Lev Zilberin 1930-cı illərdə Qarabağda taunla mübarizə aparmasına dair xatirələri bu mənada diqqət çəkir:

"Azərbaycanın Xalq Səhiyyə Komissarlığı təcili şəkildə Lev Zilberi çağırır. Artıq gecə saat 04:00-da professor lazımi avadanlıq və əməkdaşları ilə birlikdə qatarla Qarabağa yola düşmüşdü. Məqsəd taunun qarşısını almaq idi. Daxili İşlər Xalq Komissarlığının Qarabağdakı yerli nümayəndələri bildirirdilər ki, xarici ölkənin bölgəyə atılmış diversantları - kəşfiyyatçıları qəbirləri açır, cəsədlərin ürəyini, qaraciyərini kəsərək, infeksiyanı yayırlar. Lakin Zilber bu versiyanı cəfəngiyat adlandırdı. "Bir neçə gün ərzində laboratoriyada taun virusunu hazırlamaq və minlərlə insanı öldürmək olar. Nə üçün diversantlar cəsədlərin orqanlarını kəsirlər? Axı onların özü də buna yoluxa bilərlər", - deyə o bildirir.

Zilberi erməni qəbiristanlığına aparırlar. O, məşəllərin işığında 10-a qədər təzə qəbiri açır.

Alim dəhşətə gəlmişdi. Həqiqətən də bir neçə cəsədin başı yox idi, bəzilərinin dalağı, qaraciyəri, yaxud ürəyi çıxarılmışdı.

"Açdığımız üçüncü qəbir qadına məxsus idi. Paltarlarını çıxaranda gördük ki, ay aman, bu nədir belə. Qadının bədənini yarıb ürəyini, ciyərini çıxarmışdılar", - deyə Zilber yazır.

Zilber ümumi karantin elan edir, lakin o, diversant xəbərinə inanmır. Köhnə tibb jurnallarından tapır ki, bölgədə vaxtilə taun olub və indi həmin xəstəlik yenidən oyanıb.

Bir az rus dilində danışmağı bacaran yerli müəllim Zilberə sirri açır. Bildirir ki, Qarabağda yaşayan erməni əhalisi arasında bir inanc mövcuddur: "Əgər ailədə ard-arda ölümlər baş verirsə, ilk ölənin canlı olmasına inanırlar. Əgər ölü qəbirdə canlıdırsa, deməli, digər doğmaları da "aparmağa gələcək". Ölünün canlı olub-olmadığını bilmək üçün qəribə üsuldan istifadə olunur. Atı qəbirin üstünə aparır və ona yulaf verirlər. Əgər at qəbrin üstündə yulafı yeməsə, deməli, həmin ölü canlıdır və qəbiri qazıb, həmin ölünün başını kəsmək, yaxud ürəyini və digər orqanlarını çıxarmaq lazımdır. Çıxarılan orqanlar doğranaraq ailənin digər üzvlərinə verilir, onlar yeyir və beləliklə ölümdən xilas olurlar".



Məhz bu sirrdən sonra Zilber müəyyən edir ki, vaxtilə bölgədə olmuş infeksiya bu yolla yayılır. O, infeksiyanın yayılmasının qarşısını almağı bacarır.

Hadrutda baş verən bu hadisə erməni hannibalizminin XX əsrdə qeydə alınan əsas nümunəsidir.

1977-ci ildə "Lenfilm" kinostudiyasının Hadrut taunu mövzusunda çəkdiyi filmdə erməni hannibalizmindən bəhs olunur. Hətta kinoda ayrı-ayrı kadrlarda xəstəlik daşıyıcısı olan tayfanın erməni dilində danışması da diqqət çəkir. Ümumiyyətlə, Ermənilərin hannibalizmə yoluxmasının tarixi haqqında müəyyən versiyalar var. Əsas versiyaya görə, onlar vaxtilə Hindistanda mövcud olan və hələ bu gün də insan əti ilə qidalanan tayfaların arasında yaşayıblar. Sonradan qərbə köç edərkən, hannibalizm ənənələrini Qarabağa qədər gətiriblər.

Umberto Eko "Qızılgülün adı" əsərində yazır ki, orta əsrlərdə erməni kilsəsində hannibalizm "yeres" (yanlış etiqad) səviyyəsində olub.

Kim bilir, bəlkə də ictimaiyyətə açıqlanmayan qapalı Vatikan arxivlərində axtarsan erməni hannibalizminə dair onlarla fakta rast gəlmək olar. Həqiqətən də tarixin qaranlıq səhifələrində gizlədilən erməni hannibalizmi, vəhşi adətləri bu gün də onların beyinlərində qalıb, həmin adət və vərdişlər günümüzdə müxtəlif formada özünü büruzə verir.

Bir məqamı da qeyd edək ki, elmə əsaslansaq, hannibalizmin yalnız insanlar arasında deyil, heyvanlarda da baş verdiyini görərik. Heyvanda bu davranış əsasən qidanın çatışmadığı ərazilərdə qida tapmaq instinkti ilə baş verir. Amma bəzən psixoloji problemləri olan insanlar normal şəraitdə belə hannibalizmə xas davranışlar göstərə bilirlər. Ermənilərdə hannibalizmə dair bir xüsusi tarixin, vərdişlərin, genetik koddan qaynaqlanan qəbir, meyitlərə olan sevginin, heyvanın belə etmədiyi vəhşilikləri etmələri isə onların hələ də kütləvi şəkildə hanniballara məxsus psixoloji problemlərdən əziyyət çəkmələrindən xəbər verir.

Yeri gəlmişkən, bir xatırlatmanı edək ki, bu günlərdə Azərbaycanın ildönümünü qeyd etdiyi Xocalı soyqırımı zamanı da ermənilər həmin hannibal meyllərini müxtəlif formalarda büruzə vermişdilər. Psixoloqlar sübut ediblər ki, əksər hanniballar, hannibalizmdən əziyyət çəkən psixi xəstələr öz qurbanlarını rahat şəkildə deyil, xüsusi qəddarlıqla öldürürlər. Bunun konkret elmi izahı olmasa da, sübut olunmuş faktdır ki, insan meyiti ilə qidalananlar digərlərini xüsusi qəddarlıqla öldürməyə meylli olurlar. Bəzən şikarını yaxalayan vəhşi heyvan belə ona qarnında balasının olması səbəbindən toxunmur. Amma "goreşənlik sindromunun" baniləri olmuş bu xalq Xocalıda bütün heyvani hissləri də üstələdilər. Bu həmin hannibal ermənilər idilər ki, hamilə qadının qarnını yarıb körpəni onun gözləri önündə öldürürdülər. Divara mismarlanmış başqa bir körpənin ağzına isə anasının kəsilmiş döşünü salmaqla boğub susdurmuşdular. Hannibal babalarının davamçıları daha hansı tükürpədən vəhşi əməllərdən həzz almadılar ki? Onlar bütün bunları "qəhrəman" yazıçılarının kitablarında belə tarixiləşdirməkdən çəkinmirlər.

Ermənilərin ideoloqlarından biri, yazıçı-şair Zori Balayan "Ruhumuzun dirçəlişi" adlı kitabında yazır:

"Biz Xaçaturla Xocalıda ələ keçirdiyimiz evə girərkən əsgərlərimiz 13 yaşlı bir türk uşağını pəncərəyə mismarlamışdılar. Türk uşağı çox səs-küy salmasın deyə, Xaçatur uşağın anasının kəsilmiş döşünü onun ağzına soxdu. Daha sonra 13 yaşındakı türkün başından, sinəsindən və qarnından dərisini soydum. Saata baxdım, türk uşağı 7 dəqiqə sonra qan itirərək dünyasını dəyişdi. Ruhum sevincdən qürurlandı. Xaçatur daha sonra ölmüş türk uşağının cəsədini hissə-hissə doğradı və bu türklə eyni kökdən olan itlərə atdı. Axşam eyni şeyi daha 3 türk uşağına etdik".

O, həmçinin bu əməllərinə dair qeyd edir: "Mən bir erməni kimi öz vəzifəmi yerinə yetirdim. Bilirdim ki, hər bir erməni hərəkətlərimizlə fəxr duyacaq".

Xocalıdan girov aparılmış Mehriban adlı mülki sakinin erməni hannibalizmi ilə bağlı acı xatirəsi insanı dəhşətə gətirir:

"Meyitlərin başını, qolunu kəsib, gözlərini çıxarırdılar. Kəsilmiş başları bişirib Əsgəranda əsir saxlanan əsirlərə yedirir və bundan həzz alırdılarg13 yaşlı bir qızın dərisini soyan Serj Sarksyan deyirdi ki, mən insan dərisi soymaqdan həzz alıram."

Başqa bir misal. Kəlbəcərli Mikayıl adlı əsir gördüyü dəhşətlər haqqında danışarkən deyib: "Daha sonra qaniçənlər başı kəsilmiş cavan bir oğlanın ətini şişlərə çəkib kabab bişirdilər. Hər bir əsirin başına silah dayayaraq yeməyə məcbur etdilər". ("Ölüm düşərgəsindən qaçış")

Bütün bu olub keçənlərdən sonra indi Kəlbəcərdə qəbirlərin eşilməsi, ermənilərin öz doğmalarına məxsus cəsədləri daşımaları, onların təkcə bu ərazilərə qayıtmayacaqlarını bildikləri üçün deyil, tarixi hannibal ənənələrindən, genetik kodlarındakı şüuraltı istəklərindən irəli gəlir.

Qeyd etdiyimiz kimi, erməni hannibalizmi özlərinin tarixi qaynaqlarında da sübut olunub, digər sadalanan mənbələrdə isə bu anormal millətdə insan ətinin yeyilməsinə, "goreşənliy"ə meylliliyin olması dəfələrlə öz təsdiqini tapıb. Qafqaz xalqları arasında rast gəlinməsi mümkün olmayan bu unikal hannibalizm meylləri görünür, hələ də onların gizli adətləri arasında qalıb.

**Tural Tağıyev**

# İsmayılın fəryadı, son hayqırtı, ikinci dəfə öldürülən Xocalı qurbanları - BİZİM FİLMLƏR

***"Fəryad" filmi deyən kimi dərhal filmin özü keçir arxa plana, ön plana Ceyhun Mirzəyev gəlir. Simasındakı Qarabağ nisgilindən, həsrətindən, ahından yaranan fəryadla.***

Lent.az-ın "Bizim filmlər" layihəsində "Fəryad" filmindən danışırıq.

Filmin hazırlığına 1992-ci ilin sonlarında başlanmışdı. Çəkilişlərə 1993-cü ilin yanvarında start verilib. Ona qədər aktyorların seçimi üçün sınaq çəkilişləri keçirilirdi. İsmayıl roluna çox aktyor sınağa dəvət edilib, hətta Fəxrəddin Manafov.

Ssenari müəllifi Vaqif Mustafayevlə rejissor Ceyhun Mirzəyev "İsmayıl obrazının canlı alınması üçün aktyor oynamalı yox, yaşamalıdır" - deyə qərara gəlirlər ki, Ceyhun Mirzəyev özü çəkilsin.

Filmin operatoru Kənan Məmmədov isə Ceyhunun Mirzəyevin dolu bədənli olduğunu arqument gətirib, alınmayacağından ehtiyat edirdi.

Çəkilişlər səkkiz ay davam edib. Goranboy rayonunda, Murov dağının ətəyində həmin il qış həmişəkindən daha sərt idi, elə bil.

20 nəfərlik çəkiliş qrupu Naftalanda pansionatda yerləşib, hər gün Murovdağ, Zeyvə, Qaraçinar kəndlərinə çəkilişə gedib, gecə vaxtı pansionata qayıdıb dincəlirmişlər.

"Fəryad" filminin əsas qəhrəmanı İsmayılın Xankəndində əsir saxlandığı yer "Azərbaycanfilm" kinostudiyasının pavilyonunda qurulub, çəkilib.

Onu da deyək ki, ssenari real hadisələr əsasında yazılıb, İsmayıl real obrazdır.

Ssenari müəllifi və rejissor əsirlikdən qaytarılan, hospitalda yatan həmin adamla görüşüblər.

Filmdəki zirzəmi səhnəsi 5-ci kardioloji xəstəxananın zirzəmisində lentə alınıb.

Filmin operatoru Kənan Məmmədov deyir ki, o çətin çəkiliş prosesində Ceyhun Mirzəyevin filmi, obrazı necə yaşadığını görüb, onun haqqında "rola uyğun deyil" rəyi verməkdə yanıldığımı anladım.

Murovdağın ətəyində filmin ən ağır kadrları lentə alınıb. Möhkəm qar yağıb, yerdə oturmuşdu. Naftalanda pansionatda Xocalı qaçqınları yaşayırdı. Çəkiliş məsulları gedib onlarla danışıblar ki, Xocalı faciəsini filmə çəkirik, gəlin həmin səhnədə özünüz çəkilin ki, daha canlı olsun. Canla-başla razılaşıblar. Düşünüblər ki, belə bir filmin çəkilməsi təbliğat vasitəsi kimi xeyrimizə işləyər, yurdlarına qayıtmağa kömək edən bir detal olar. O vaxt səsimizi dünya eşitmirdi, faciələrimizi özümüz qışqırıb, özümüz də eşidirdik. Dünyanı biz maraqlandırmırdıq. Sonunda bunları anlayıb, özümüz həll etdik məsələmizi. Görünür, bu zamanın yetişməsi üçün "Fəryad" filmi də çəkilməli idi.

Filmdə qarın üstünə yıxılan yaralı insanlar Xocalı sakinləri özləridir. Kadrların yaxşı alınması üçün təbii ki, həmin anda nə operatoru, nə ssenari müəllifini insanların nə yaşadığı barədə düşünməyə vaxtları belə olmayıb. "Sən burdan yıxıl, sən belə qışqır" - deyə göstəriş verən operator Kənan Məmmədov deyir ki, bir də gördüm, kimsə hönkürüb ağlayır. Dönüb gördüm Ceyhun Mirzəyevdir: "O faciədən sağ çıxanlara burda onu yenidən yaşadıb, öldürməyək, dayandırın" - deyir.

Kadrlar o qədər real alınır ki, o vaxt televiziyalar real Xocalı kadrları ilə filmin kadrlarını süjetlərdə bəzən dəyişik salıb verirdilər.

Filmdə istifadə edilən silahları kinostudiyanın pirotexnika şöbəsinin rəhbəri Əlibala Məmmədov tapmışdı, bəzilərini şöbənin anbarından, bəzilərini də hərbi hissələrdən.

Filmin büdcəsi yox dərəcəsində olduğundan hamı Qarabağ mövzusu üçün müəyyən güzəştlər edirdi. Hətta musiqiləri AzTV-nin səsyazma studiyalarında səsləndirilib. Bunun üçün bəstəkar Cavanşir Quliyev sədrə müraciət edib və razılıq alıb. Bəstəkardan söz düşmüşkən, Cavanşir Quliyev filmin sonluğu üçün əla bir musiqi-marş bəstələyib, amma sonda qərar alınıb ki, onu verməsinlər. Bəstəkar özü bu barədə heç nə deməsə də, belə başa düşdük ki, o vaxtın məğlub ruhu ilə musiqinin mübarizə havası uyğun gəlməyib. Amma bu gün üçün o marş lap yerinə düşür, hər şeyin öz zamanı. Odur ki, yazının sonunda həmin musiqini təqdim edəcəyik.

Aktrisa Sənubər İsgəndərova filmdə bircə kadra çəkilib. Deyir ki, Ceyhun Mirzəyevlə dost idik, o, dedi, mən də təmənnasız çəkildim: "Və indi deyirəm ki, nə yaxşı o filmdə bircə kadrlıq da olsa, əməyim var".

"Ögey ana"dakı İsmayılı bu filmə gətirmək ideyası isə çəkiliş prosesində Ceyhunun öz ağlına gəlib. Yaradıcı qrup ideyanı bəyənib, bir əlavə ilə - İsmayılın cəbhəyə yola salındığı kadra "Ögey ana"dan balaca İsmayılın atasının arxasınca ağladığı səhnəni salmaqla məsələ həll olunub.

Ceyhun Mirzəyev filmin çəkilişlərində tez-tez ürək ağrılarından şikayət edirmiş. Xanımı Lidiya Mirzəyeva müsahibəsində demişdi ki, Ceyhun çəkilişlərdən evə gələndə elə bil müharibənin özündən gəlirdi, döyüşdən çıxana oxşayırdı: "Gecəni də yata bilmirdi, ah-ufla o tərəf, bu tərəfə çevrilirdi yatağında".

Bunu Lent.az-ın "Şəhid ziyalılar" layihəsində də yazmışdıq, Ceyhun Mirzəyevin hayqırtısıdır əslində "Fəryad" filmi. Doğulduğu Ağdamın Abdal-Gülablı kəndinin itkisinə, Xocalı faciəsinə, Qarabağ dəhşətlərinə hayqırtısı. Son dəfə hayqırdı və ürəyi partladı. Filmin montajına qədər dözmədi. O qədər real yaşadı filmdəki rolunu.

İsmayılın döyüldüyü, işgəncə verildiyi kamera səhnələri Bayıl həbsxanasında lentə alınıb, Stalinin yatdığı kamera ilə üzbəüz kamerada.

Cavanşir Quliyev danışır ki, Ceyhun səhnələr təbii alınsın deyə özünü həqiqətən döydürürdü. Onu kaskadyorun əvəz etməsi təklif edilsə də, razı olmadı. Bir kadr isə dəfələrlə çəkilirdi: "Bəlkə də o döyülən səhnələrdə ürəyindəki tromb tərpənib deyə az sonra ürəyi partladı".

Kənan Məmmədov danışır ki, öz paltarının altından ona zirehli gödəkçə geyindirmişdik, amma onları soyunanda gördük ki, bədənində döyülən yerlər göyərib.

Ceyhun Mirzəyevin vertolyotla çəkildiyi kadrlar yenə Goranboyda çəkilib. Vertolyotu isə Gəncədən Surət Hüseynov göndərib. Cəmi iki saata vertolyot çəkilib qayıtmalı idi. Ha gözləyirlər gəlib çıxmaq bilmir, hava şəraiti uyğun olmadığından, dumanlı olduğundan düşünürlər yəqin gəlməyəcək. Bir də eşidirlər ki, səsi gəlir. Bir neçə dəqiqədən sonra dumanın içindən vertolyotun özü çıxır. Kadrı 20 dəqiqəyə çəkirlər, bəzi məqamlarda Çingiz Mustafayevin çəkdiyi kadrlar bədiiləşdirilib: "Gör körpə uşağın başına nə oyun açıblar" dediyi yerdən.

Vertolyot missiyasını yerinə yetirib geri dönmək istəyəndə xarab olub, iki saat əvəzinə çəkiliş meydanında dörd saat qalmalı olub. Pilot pəri açıb düzəldəndən sonra gedə biliblər.

Çəkiliş vaxtı Ceyhun Mirzəyevin səhhətində ciddi narahatlıqlar yaranıb. Ürəyində problem olduğu üçün orqanizmi zəifləmişdi. Soyuq hava, ürəyi zəif adam. Üstəlik də çəkilişlərdən birində az qala ölmüşdü.

Vertolyota zərərçəkənləri mindirib özü balaca qız uşağını işgəncə ilə öldürən ermeninin üstünə gedəndə hiss edir ki, düz boğazını üzə biləcək yerdə nazik məftil çəkilib. Çölün düzündə o məftili ora kim hansı məqsədlə çəkmişdi aydın olmayıb, amma Ceyhun Mirzəyev son anda əli ilə məftili qaldırıb keçdiyi üçün ovcunun içi kəsilib.

Filmdə rus və gürcü aktyorlar da çəkilib, epizodik kadrlarda. Erməni dilində danışılan səhnələri isə İrəvan teatrının aktyoru Vidadi Əliyevlə oğlu, SOY kompaniyasının rəhbəri Oqtay Əliyev səsləndiriblər.

Yalnız Məlik Dadaşov öz hissələrində səsini başqasının səsləndirməsinə razı olmayıb ki, mənim səsimi əvəz edə bilən olmayacaq. Aktyor özü mətni erməni dilinə çevirdirib, əzbərləyib və səsləndirib. Görünür, bu qədər təbii oynadığı üçün aktyor sonralar küçəyə çıxa bilmirmiş, hamı onu "erməni" adlandırırmış. Bir dəfə hətta onu döymək istəyən kütlənin əlindən aktyoru sənət dostları güclə almışdılar.

İsmayılın dostu Rövşən rolunu oynayan aktyor Hacı İsmayılovla Ceyhun həyatda dost olublar. Aktyor deyir, ilk dəfə milli ordu formasını o filmdə geyinib arzuma çatmışam.



Filmin montaj prosesi gedəndə Ceyhun Mirzəyev haqqında televiziyada veriliş hazırlanırmış. Çəkilişlər vaxtı, sonra montaj prosesində qəribə tələskənlik varmış Ceyhun Mirzəyevdə, çalışırmış ki, tez bitirsin filmi.

Bir də martın 5-də gedib kassaya ki, bəlkə pulumuz köçüb, 8 mart üçün Lidiyaya çəkmə almaq istəyirəm. Həmin vaxt pul köçürülən vaxt deyilmiş.

Kinostudiyadan montajdan çıxanda deyib ki, gedirəm görüm, hazırladıqları verilişi necə montaj ediblər və yollanıb Azərbaycan televiziyasına.

Orda halı pisləşib. Onun haqqında veriliş hazırlayan Hicran Hüseynov Ceyhunu tez evinə çatdırıb. Evdə qızı Cəmiləni çağırıb, onun üzünə baxıb və gözlərini yumub. Təcili yardım gələndə artıq keçindiyi məlum olub. 5 mart 1993-cü ildə. 46 yaşında.

Film isə öz həyatını davam etdirir - rejissorun həyatı yarıda qırılsa da. Montaj da olur, premyera da. Sonralar müxtəlif mükafatlara layiq görülür. Ölümündən sonra Ceyhun Mirzəyev də "Humay" mükafatına layiq görülür o filmə görə. "Fəryad" Vaqif Mustafayevin də ssenariyə görə "Tağıyev" mükafatı aldığı işdir. Ssenari müəllifi Vaqif Mustafayev, quruluşçu rejissor Ceyhun Mirzəyev, quruluşçu operator Kənan Məmmədov, quruluşçu rəssam Rafiz İsmayılov, bəstəkar Cavanşir Quliyevdir. Rollarda Ceyhun Mirzəyev, Məlik Dadaşov, Hacı İsmayılov, Liana Qudadze, Fikrət Məmmədov, Nəcibə Behbudova və başqaları çəkilib.

"Fəryad" filmi bu gün də Qarabağ müharibəsi haqqında çəkilən ən səmimi film hesab edilir.

Sonda ürəkaçan bir xəbər. "Fəryad" filminin ikinci hissəsinin lentə alınması üçün Mədəniyyət nazirliyi Vaqif Mustafayevə ssenari yazmağı sifariş verib. Rejissor ssenari üzərində işə başlayıb. Könül istərdi ki, filmin çəkilişləri Xocalıda aparılsın...

***Ramilə Qurbanlı***

# Heç vaxt gözlərinizi ovxalamayın! Ciddi göz problemlərinə səbəb olur

***Oftalmoloqlar gözləri ovxalamağı göz sağlamlığı üçün çox ziyanlı hesab edirlər. Bunun nəticəsində buynuzlu qişa zədələnə, cızıla bilər ki, gözdə iltihab yarana bilər.***

Bundan əlavə gözlərini tez-tez ovxalayan insanlarda keratokonus inkişaf edə bilər. Keratokonus zamanı buynuzlu qişa sürtülür, nazilir və konusvari forma alır. Bu isə görmənin ciddi pozulmasına gətirib çıxardır ki, onu bir çox hallarda eynəklərin köməyi ilə korrektə etmək mümkün deyil. Müalicə olunmadığı halda keratokonus korluğa səbəb ola bilər.

"Unikal" saglamolun.com-a istinadən bildirir ki, gözləri ovxalamaq vərdişi həm də gözətrafı dərisinin tez qocalmasına və qırışların əmələ gəlməsinə səbəb olur.

Gözünüzə yad cisim (toz, kirpik və s.) düşübsə süni göz yaşı damcıları və ya adi qaynanmış suyun köməyi ilə gözünüzü yuyun.

# Qara ciyər - çox vacib orqandır

***Qara ciyər bədəndə olan ən böyük vəzi və cüt olmayan ən iri ölçülü orqandır. Onun orta çəkisi 1,5 kq-dır.Hesablamalara görə qara ciyər orqanizmdə 500-dən artıq müxtəlif funksiyalar icra edir.***

Ona görə də qara ciyərin işində baş verən istənilən pozğunluq dərhal bütün orqanizmə mənfi təsir edir. Qara ciyərin xaric edilməsi və ya məhv olması 1-5 gün ərzində labüd şəkildə insanın ölümünə səbəb olur.

Bəs, qara ciyərin əsas vəzifələri hansılardır?

1. Qara ciyər orqanizmin biokimyəvi laboratoriyasıdır.

Həkimlər onu məhz belə adlandırırlar. Bu qara ciyərin ən əsas funksiyalarından biridir. Məhz burada, dəri, ağ ciyərlər və bağırsaqlar vasitəsi ilə orqanizmə daxil olan ilkin məhsullardan, orqanizmin yaşaması - fəaliyyət göstərməsi üçün vacib olan zülallar, yağlar, limfa və s. maddələr (bunlar olmasa orqanizm yaşaya bilməz) istehsal olunur. Qara ciyər, yağların həzm edilməsi üçün vacib hesab edilən öd də istehsal edir. Gün ərzində qara ciyər 1 litrə yaxın öd hasil edir. Öd, qara ciyərin altında yerləşən öd kisəsində (ödün saxlanması üçün kisə) saxlanılır və lazım olduqda həzm prosesində istifadə olunur.

2. Qara ciyər - anbardır. Orqanizm üçün gərəkli olan maddələr qara ciyərdə toplanaraq, ehtiyac yarandıqca orqanizm tərəfindən istifadə olunur. Qan zərdabında hər zaman qlyukoza - başqa sözlə desək şəkər olmalıdır. Bu, beyin və əzələ hüceyrələri və eritrositlərin fəaliyyət göstərməsi üçün əsas enerji mənbəyidir. Hüceyrələr hər zaman qlyukoza ilə təmin olunmalıdırlar, əks halda onlar sadəcə olaraq yaşaya bilməzlər. Qlyukozanın ehtiyatı məhz qara ciyərdə saxlanılır. Qlyukoza suda həll olduğu üçün onu ehtiyat şəklində toplamaq orqanizm üçün münasib deyil. Buna görə də qara ciyər, qanda artıq miqdarda olan qlyukoza molekullarını tutaraq, onları həll olunmayan polisaxarid olan qlikogenə çevirərək, qranullar (dənəciklər) şəklində qara ciyər hüceyrələrində saxlayır və tələbat yaranan kimi yenidən qlyukozaya çevirərək qana daxil edir. Qara ciyərdə həmçinin vitaminlərdən - A, D, E, K, S, B12, nikotin və fol turşuları, mineral maddələrdən - mis, sink, kobalt, molibden və s. ehtiyatları da saxlanılır. Qara ciyərdə orqanizm üçün həyati əhəmiyyət kəsb edən və qan hüceyrələri olan eritrositlərin tərkibinə daxil olan, dəmir elementi də toplanılır.

3. Qara ciyər - bədəndə olan tullantıların yenidən emal edilməsi zavodudur.

Orqanizm üçün "artıq" hesab edilən və ya öz funksiyasını sona qədər yerinə yetirən maddələr məhz qara

4. Qara ciyər - təbii filterdir (süzgəcdir).

5. Qara ciyər - qan anbarıdır. Qara ciyərdə xeyli qan vardır, ancaq onun heç də hamısı qan dövranında iştirak etmir. Bu qanın kifayət qədər çox hissəsi (ümumi miqdarının 10%-ə qədəri) ehtiyatda saxlanılır. İnsan xeyli miqdarda qan itirdikdə, qara ciyərdə olan damarlar sıxılaraq, öz qan ehtiyatlarını ümumi qan dövranına qovaraq insanı şokdan xilas edir.

Bütün bu deyilənlərdən bizə aydın olur ki, qara ciyər orqanizmin çox vacib olan orqanıdır və onun fəaliyyətinin pozulması bir çox hallarda həqiqi fəlakətə də səbəb ola bilər. Buna görə də təbiət onun etibarlı müdafiəsinin də qayğısına qalmışdır. Qara ciyər çox yüksək dərəcədə davamlılığa və zədələndikdən sonra bərpa olunma xüsusiyyətinə malikdir. Orqanizmdə olan heç bir digər orqan, qara ciyər kimi, regenerasiya edərək öz hüceyrələrini bərpa etmək xüsusiyyətinə malik deyil! Bu orqanın ? hissəsini xaric etdikdən sonra, bir neçə həftə ərzində o özünü tam həcmdə və formada bərpa etmək xüsusiyyətinə malikdir! Ancaq bu heyrətamiz xüsusiyyətinə baxmayaraq, zərərli faktorların daimi olaraq ona təsir etməsi nəticəsində o, özünü bərpa etmək funksiyasının öhdəsindən gələ bilmir ki, bu halda, qara ciyərin müxtəlif xəstəlikləri (və hətda ən qorxulu olan qara ciyər sirrozu-məhv olması) inkişaf etmiş olur.

# Uşaqlarda nəfəsalma orqanlarının infeksion xəstəlikləri



***Göyöskürək - davamlı tutmaşəkilli öskürəklə xarakterizə olunan infeksion xəstəlikdir. Xəstəlik daha çox uşaqlarda rast gəlinir. Bəzən böyüklər də bu xəstəliyə tutula bilər.***

Yenidoğulmuşlar və 1 aylığına qədər olan körpələr üçün o daha təhlükəlidir. Xəstəliyin törədicisi - göyöskürək çöpüdür.

Uşaq xəstə ilə sadə təmas zamanı yoluxa bilər. Mikrob günəş şuaları təsirindən, yüksək və alçaq temperaturlarda asanlıqla məhv olur. Buna görə də göyöskürəyə tutulmuş xəstənin olduğu otağın xüsusi təmizlənməsinə ehtiyac olmur. Sadəcə, otağın havasını tez-tez dəyişmək kifayət edir. Xəstə uşağın oyuncaqlarını, qabqacağını və digər əşyalarını sabunla yumaq lazımdır.

Uşaqlarda göyöskürəyə qarşı həssaslıq çox yüksəkdir. Ona görə də onlara mütləq bu xəstəliyə qarşı peyvənd vurdurun (bu peyvənd bütün uşaqlar üçün vacib olan peyvəndlər siyahısına daxildir). Peyvənd olunmuş uşaq göyöskürəyə tutulsa da, onu daha yüngül keçirir. Keçirilən xəstəlikdən sonra davamlı ömürlük immunitet əmələ gəlir. Uşaqlıqda bu xəstəliyi keçirməmiş böyüklər də istənilən yaşda göyöskürəyə yoluxa bilərlər.

Xəstəliyin başlanğıcı KRVİ-yə bənzəyir. Lakin KRVİ-də olan öskürək daha yüngül olur və tez keçib gedir. Göyöskürək zamanı isə öskürək artaraq davamlı və tutmaşəkilli xarakter alır. Bir neçə dəqiqə çəkən ağır tutmaşəkilli öskürək fit səsli dərin nəfəsalmalarla əvəzlənir. Bu zaman uşağın üzü qızarır, sonra göyərir, bəzən öskürək qusma, qeyri-iradi sidik buraxma ilə tamamlanır. Üzücü öskürəkdən sonra uşaq halsız, yorğun olur, sifəti avazımış və bir qədər şişkin görünür.

Südəmər uşaqlarda göyöskürək zamanı baş verən öskürək tutmaları tənəffüs dayanmasına gətirib çıxara bilər! Məhz buna görə də belə uşaqlarda göyöskürəyə azacıq şübhə olduqda, onları dərhal xəstəxanaya yerləşdirmək daha yaxşı olar. Göyöskürəyə tutulmuş hətta böyük uşaqları belə, nəzarətsiz qoymaq olmaz! Çünki xəstəlik zamanı baş verən öskürək tutmaları istənilən an tənəffüsün dayanmasına səbəb ola bilər!

Göyöskürək həmçinin öz fəsadları ilə də təhlükəli hesab edilir (pnevmoniya - sətəlcəm). Xəstəlik başladıqdan sonra diaqnoz nə qədər tez qoyularsa, xəstə uşağı müalicə etmək bir o qədər asan olur. Sağalma tədricən baş verir, öskürək tutmalarının sayı yavaş-yavaş azalır. Göyöskürək keçirən uşaqları uzun müddət pediatr, pulmonoloq və bəzi hallarda isə hətta nevropatoloq nəzarət altında saxlamalıdır.

Göyöskürəyin profilaktikası - uşağa vaxtında bu təhlükəli xəstəliyə qarşı vurulmuş peyvənddir.

### Difteriya

Difteriya - kəskin infeksion xəstəlikdir. Onun törədicisi - difteriya çöpləridir. Difteriya çöpləri xarici təsirlərə qarşı çox davamlı olub, yalnız qaynama zamanı və dezinfeksiyaedici məhlulların təsiri altında məhv olurlar. Difteriya ilə istənilən yaş qrupundan olan uşaqlar, hətta böyüklər də xəstələnə bilər. Ağır formalarda keçən bu xəstəlik hətta ölümlə də nəticələnə bilər! Məhz buna görə də uşaq sahə poliklinikasında təqvim üzrə difteriyaya qarşı peyvənd almalıdır.

Peyvənd almış uşaqlar da bu xəstəliyə tutula bilər. Ancaq bu zaman onlarda xəstəliyin gedişatı peyvənd olunmayanlarla müqayisədə xeyli yüngül keçmiş olur.

İnfeksiya xəstədən uşağa hava, oyuncaqlar, məişət əşyaları, bəzən isə qida məhsulları (süd və süd məhsulları) ilə də keçə bilər.

Difteriya əsnəyi, qırtlağı, burnu zədələyir. Əsnəyin difteriyası zamanı, xəstəliyin ilk saatlarında badamcıqlar üzərində hörümçək toru şəklində ərplər əmələ gəlir. Bu zaman bu ərplər asanlıqla təmizlənir. 1-2 gündən sonra isə ərplər bərkimiş, parıltılı olur, bozumtul-ağ rəng alırlar. Ərp yalnız badamcıqların səthini deyil, qövsləri, əsnəyi, udlağın arxa divarını da bürüyür. Badamcıqların selikli qişası qızarmış, şişkin olur. Yaxınlıqdakı limfa düyünləri böyüyür, hərarət 37,50C-38,50 C-yə qalxır. Əsnəyin difteriyası əksər hallarda iltihab prosesi əsnəkdən və burun-udlaqdan qırtlağa yayılarkən baş verir.

Difteriyanın ağır forması zamanı hərarət 39-400C-yə qalxır, boyunda şişkinlik əmələ gəlir, yaxınlıqdakı limfa düyünləri çox böyüyür və ağrılı olur, tənəffüs çətinləşir.

Difteriyanın müalicəsinin nəticəsi müalicənin nə qədər erkən başlanmasından asılıdır. Xüsusilə bu, xəstəliyin ən ağır formalarına aiddir. Belə ki, bu zaman müalicədə ləngimə, səhlənkarlıq uşağın tələf olmasına gətirib çıxarır! Bir daha təkrar edək: difteriyanın ağır formaları əksər hallarda peyvənd olunmamış uşaqlarda rast gəlinir!

Hətta yüngül formalı difteriyalar da xəstəxana şəraitində difteriya əleyhinə xüsusi zərdab yeridilməklə müalicə olunur.

Keçirilmiş xəstəlikdən sonra uşaq 3 aydan 2 ilə qədər olan müddət ərzində pediatr, lazım gələrsə, kardioloq, nevropatoloq və LOR-həkimlərinin nəzarətində olmalıdır.

Yuxarıda qeyd etdiyimiz kimi, difteriyanın ən gözəl profilaktikası bu xəstəliyə qarşı peyvəndin vurulmasıdır. Bu peyvəndin vurulmasına heç bir mütləq əks göstəriş yoxdur.

# Pandemiya yığma oyunçularını kuryer, taksi sürücüsü, naxırçıya çevirdi



***Dünyanı bürüyən koronavirus pandemiyası bütün sahələr kimi idmana da böyük zərbə vurub.***

Apasport.az saytının məlumatına görə, planetin hər nöqtəsində olduğu kimi Azərbaycanda da infeksiyadan zərərçəkən idmançılar az deyil.

Buna əsas səbəblərdən biri karantinlə əlaqədar əksər idman növləri ilə məşğuliyyətə qadağa və ya məhdudiyyətlərin olmasıdır. Təkcə sevimli idman növü deyil, həm də peşələrindən uzaq düşmələri onların karyeralarına da təsirsiz ötüşmür.

Təbii ki, idmansız, bir sözlə işsiz qalanlar özlərinə yeni peşə axtarmağa məcburdurlar. Dünyanın digər ölkələrində olduğu kimi Azərbaycanda da idmançılar üçün belə addım qaçılmaz olub.

Ən böyük zərbənin futbol istisna olmaqla, digər komanda idman növlərinə dəydiyini desək, yanılmarıq. Yarışları və məşqləri açıq havada deyil, qapalı məkanda keçirilən həndbol, basketbol, voleybolun varlığı ilə yoxluğu artıq hiss olunmur.

Basketbolla həndbolun varlığı adi vaxtlarda da o qədər hiss olunmurdusa, voleybol məhz koronavirusun qurbanı sayılır. Avropada sözünü deyən qadın voleybolçularımız ölkə xaricində çıxış etməklə bu idman növümüzü, eyni zamanda yığmamızı yaşada bilirsə, kişilərlə bağlı durum daha acınacaqlıdır.

İki aydan sonra Avropa çempionatının seçmə mərhələsinə qatılmalı olan və Gürcüstan, Yunanıstan, Monteneqro ilə qrupda favorit sayılan yığmamızın üzvləri üçün məcburiyyətdən voleybol arxa plana keçib. Az qala final mərhələsi barədə düşündüyümüz halda indi heç voleybolçularımızın seçmə oyunlarına qatılması belə sual doğura bilər.

Voleybolsuzluq milli üzvlərini müxtəlif sahələrə aparıb. Maliyyə problemi səbəbindən iş axtarışında olanların bəziləri özünə yeni yer tapsalar da, hələ də seçim etməyənlər də var.

Millinin kapitanı Aleksey Çervyakov hazırda ölkə xaricindədir. Düşünməyin ki, o, legioner həyatı yaşamaq imkanına malikdir. Rusiyaya gedən voleybolçu orada istənilən işin "qulpundan" yapışmaq arzusunda olsa da, hələ də özünə uyğununu tapmayıb.

Komandanın toppaylayıcısı Tural Həsənli isə "universallığı"nı meydandan kənarda da göstərir. Bir müddət corab sexində çalışmağa məcbur olan idmançı indi də başqa peşəyə yiyələnib. Tural poçtda kuryer vəzifəsində çalışır.

Elmin Alışanov da kuryer olmağa üstünlük verib. Qadın yığmamızın üzvü Şəfaqət Həbibova ilə ailəli olan Elmin poçtda deyil, karqo şirkətlərin birində çalışır. O, çatdırma üzrə kuryer vəzifəsində işləyir.

Bakıda voleybol arzusu ilə yaşayan Asif Əliyev idmansız qaldıqda doğma Cəlilabada qayıdıb. O, kənddə heyvandarlıq sahəsində mal-qara otarmaqla - naxırçılıqla məşğuldur.

Bu gün üçün ən populyar sahələrdən biri olan sürücülükdə də voleybolçuya rast gəlmək mümkündür. Yığmamızın üzvü Aqil Ağazadə dolanışıq üçün taksi sürməklə sevimli idman növündən uzaq düşüb.

Voleybolsuz qalan digər milli üzvləri də özlərini yeni sahədə sınamaqdadır. Gənc idmançıların çoxu ofisiant, bir qismi kuryer kimi fəaliyyət göstərir.

Tokio-2020, AVRO-2020 kimi nəhəng tədbirlərə zərbə vuran pandemiyanın voleybolumuzu hansı duruma qədər sürükləyəcəyi bəlli deyil. Yalnız bircə şey məlumdur ki, mayın 7-də Gürcüstanda Monteneqro ilə seçmə mərhələ oyunu olacaq.



# 35 yaşdan yuxarı "10-luq"

***Müasir futbolda əsasən gənclərə üstünlük verilir. Çox az sayda veteran oyunçu bunun fonunda hələ də yüksək səviyyədə performans sərgiləyə bilir.***

Formasını geyindikləri klublar, çiyin-çiyinə oynadıqları komanda yoldaşları dəyişdi, yaşları 35-i ötdü, ancaq onlar hələ də əvvəlki performanslarından elə geri qalmırlar. Həmin futbolçuların hamısını azarkeşlər çox yaxşı tanıyır...

**Kriştianu Ronaldo**

Şübhəsiz ki, o, dünya futbol tarixinin ən yaxşılarındandır. Oyun üslubunu dəyişə bilən, meydana hələ də hökm etməyi bacaran portuqaliyalı 36 yaşında olmasına baxmayaraq, hazırda "Yuventus" kimi nəhəng klubun qol yükünü daşıyır.

**Zlatan İbrahimoviç**

Qeyri-adiliyi, zəkanı və xarizmanı özündə birləşdirən isveçli 40 yaşın içindədir. Amma hələ də dünya səviyyəli ulduz imicini itirmir. "Milan"ın bombardiri bu yaşda "rossonyerlər"ə çempionluq qazandırmaq əzmindədir.

**Andres İnyesta**

Futbolda düha deyiləcək azsaylı simalardan biridir. Xavi ilə birlikdə tarixin ən təhlükəli yarımmüdafiə cütlüyü yaradan İnyesta hazırda Yaponiyanın "Vissel Kobe" klubunda çıxış edir. 37 yaşı olmasına baxmayaraq, "Barselona" hələ də onu qaytarmağa çalışır.

**Tyaqo Silva**

Hazırda 37 yaşı var, amma o, müdafiədə olanda komandası arxayın oynayır. 36 yaşda "Çelsi" kimi nəhəng kluba keçmək və komandanın aparıcı siması olmaq hər kəsin işi deyil.

**Frank Riberi**

Topla möhtəşəm davranışı və sürəti sayəsində uzun illər "Bavariya"nın liderlərindən oldu, dünyanın ən güclü cinah oyunçuları sırasında yer aldı. 38 yaşı olsa da, İtaliya A seriyası klubu "Fiorentina"da çıxış edir.

**Luka Modriç**

Qüsursuz orta sahə oyunçusu dedikdə ağıla ilk gələn xorvatiyalı superulduz olur. Sentyabrda 36 yaşı tamam olacaq, ancaq hələ də dünya nəhəngi "Real"ın əvəzedilməzidir.

**Filipe Luis**

"Atletiko"nun ən yaxşı illərində komandanın formasını geyinən braziliyalı hücuma dəstəyi sayəsində daim seçilirdi. 36 yaşlı sol cinah müdafiəçisi hazırda ölkəsində "Flamenqo"da çıxış edir.

**Aleksandar Kolarov**

15 ilə yaxındır böyük klubların şərəfini qoruyan serbiyalı müdafiəçi hazırda da İtaliya A seriyasına liderlik edən "İnter"in uğurları üçün çalışır. 36 yaşı olsa da, "neradzurra" qış fasiləsində onun gedişinə imkan vermədi.

**Sanri Kazorla**

İspaniyalı ən çox "Arsenal"dakı oyunu ilə xatırlanır. Uzun müddət komandanın liderlərindən olub. 37 yaşlı yarımmüdafiəçi hazırda Qətər klubu "Əl-Sədd"in şərəfini qoruyur.

**Pepe**

"Real"ın "dəmir yumruğu" sayılırdı. Ötən ay 38 yaşı tamam olmasına baxmayaraq, Portuqaliyanın bir nömrəli klubu "Porto"nun müdafiə xəttində yer alır(apasport).

# Fəxri adlar verildi - 39 nəfərə

***"5 mart-Bədən tərbiyəsi və idman günü" münasibətilə idmanın inkişafında və təbliğində xidmətləri olan idman mütəxəssislərinə fəxri adlar verilib.***

Gənclər və idman nazirliyinin mətbuat xidmətinin rəhbəri Səmayə Məmmədovanın apasport.az saytına verdiyi məlumata görə, 39 nəfər fərqləndirilib.

Onlardan 19-u fəxri bədən tərbiyəsi və idman işçisi, 14-ü Azərbaycan Respublikasının əməkdar məşqçisi, 2-si Respublika dərəcəli hakim adına layiq görülüb.

4 nəfər isə Əməkdar idman ustası fəxri adını alıb.

# Neymar yeni eşqə düşdü, lakin...

***PSJ-nin hücumçusu Neymar yaşıl meydanlarda olduğu kimi, ondan kənarda da daim gündəmdə olur.***



Apasport.az saytının məlumatına görə, Natalya Baruliçlə ayrılan braziliyalı hücumçu yeni eşqə "yelkən açıb".

29 yaşlı superulduz italiyalı model Çiara Nasti ilə sevgili olmaq arzusuna düşüb. İtalyan modelin son vaxtlar sosial şəbəkələrdəki bütün paylaşımlarına rəy bildirən "sambaçı" onunla yaxınlıq etməyə çalışsa da, Nasti hələ ki, futbolçuya üz vermir.

Neapolda anadan olan Çiara Nastinin sosial şəbəkədə izləyici sayı 1,7 milyondur. "Armani" və "Trussardi" kimi məşhur markalarla çalışmış 23 yaşlı model əvvəllər televiziya proqramlarında da iştirak edib.

Qeyd edək ki, Çiara Nasti 2017-ci ildə nişanlandığı Uqo Abbamonte adlı şəxslə ötən il ayrılıb.

Səhifəni hazırladı: Aygün İlqarqızı